2 AZN

№2(34), 2007

ƏDƏBİ, FƏNNİ, SİYASİ, İCTİMAİ, MÜSƏVVƏR, HƏFTƏLİK
TÜRKCƏ MƏCMUƏYİ - İSLAMİYYƏDİR

0,7

# Füyuzat

2м.

*Kainatın Sultanının bu*
*dünyanı yaratmaqda məqsədi*
*eşq idi, dünyanı bəhanə etdi,*
*Eşq bülbülü bu dünyaya qanad*
*açdıqdan bəri bir yer tapmadı,*
*öz yuvasını bizim qəlbimizdə qurdu.*

*Müslimi Şirazi*




8(05) 16988
Füyuzat
2007 №2

# İçindəkilər


4



TƏBRİKLƏR VƏ MƏKTUBLAR

16



f.e.n. Ofeliya BAYRAMLI
ƏLİBƏY HÜSEYNZADƏNİN HƏYATI

26



Abdullah GƏNC
YENİ NƏSİL

32



prof. Şahlar ƏSGƏROV
DÖVRÜN SƏCİYYƏSİ

40



Elmira QASIMOVA
XOCALI FACİƏSİ TƏSVİRİ SƏNƏTDƏ

50




Babək TATLIYEV
EYXORNİYA

| | | |
|---|---|---|
| BAŞ REDAKTORDAN | 3 | *Teymur ƏHMƏDOV* |
| "HƏYAT" QƏZETİNİN BAĞLANMASINDAN SONRA "FÜYUZAT" JURNALININ İŞIQ ÜZÜ GÖRMƏSİNDƏN HASİL OLAN TƏƏSSÜRATIM | 9 | *Həsər Səbri EYVAZOV* |
| ALƏMLƏRİN ARASINDAN ALƏMLƏRİN RƏBBİNƏ | 12 | *Əhməd YAŞAR Hocaəfəndi* |
| NİCAT MƏHƏBBƏTDƏDİR | 22 | *Əlibəy HÜSEYNZADƏ* |
| MİLLİ MƏDƏNİYYƏTİMİZİN BÖYÜK ABİDƏSİ | 28 | *Ofeliya BAYRAMLI* |
| QAFQAZ MÜNAQİŞƏLƏRİ | 36 | *A.M.HACIYEVA* |
| MİLLİ RUH | 44 | *Ağa HACIBƏYLİ* |
| HİSSİYATE-MADƏRANƏ və yaxud övlad bəsləmək hissləri | 46 | *Məhəmməd HADİ* |
| SÖZ | 47 | *Ə.Sabir TAHİRZADƏ* |
| TOXUNMAYIN BU GÜNÜMÜZÜ VAR EDƏN DÜNƏNİMİZƏ | 48 | *Azər EYVAZOV* |
| AĞACOYMA SƏNƏTİNİN BƏNZƏRSİZ USTASI | 52 | *Zümrüd QURBANQIZI* |
| XOCALI DƏHŞƏTİ UNUDULMAZ | 56 | *Vasif QURBANOV* |
| MƏNƏVİ TƏRBİYƏYƏ EHTİYACIMIZ VAR! | 60 | *Qürbət GÜMÜŞOV* |
| KÖNÜL KÖRPÜSÜ | 62 | *Mübariz YUNUSOV* |
| GÜNAH - TÖVBƏ | 64 | *Bəxtiyar VAHABZADƏ* |


16988
M.F.Axundov adına Az... Milli

# Füyuzat

№ 2(34), 2007 (1906-1907)

Təsisçi "Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu

Baş redaktor Teymur Əhmədov

Redaktor Elçin Bilaloğlu

Məsul katib Mübariz Yunusov

Şöbə müdiri Samir Ramizoğlu

Redaksiya heyəti Cəmil Quliyev
Tofiq Köçərli
Allahşükür Paşazadə
Bəxtiyar Vahabzadə
Ağamusa Axundov
Fuad Qasımzadə
İsmail Allahverdi
Yusif Rüstəmov
Sevda Məmmədəliyeva
Şirməmməd Hüseynov
Cahangir Məmmədov
Əlirza Qafarlı
Ağa Hacıbəyli
Qürbət Gümüşov
Muxtar Cəfərli

Dizayner Fəxri Vəliyev

Korrektor Elşad Xanəlibəyli

Rəssamlar Zaur Orucov
Gülxan Bəydəmir
Ələkbər Məmmədov

E-poçt fuyuzat2007@e-mail.ru

VÖEN 1300563641

Tiraj 500

Ünvan Bakı şəhəri, AZ-1122, H.Zərdabi pr., 78

Telefon (+994 12) 4332297
(+994 50) 7223334

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat №1303

**Redaksiya heyəti daxil olan materialları lazım bildiyi şəkildə redaktə və ixtisar etmək hüququna malikdir**

**Dərc olunan yazılar müəlliflərin mövqeyini əks etdirir**

**Əlyazmalar geri qaytarılmır**

**"Füyuzat" jurnalına abunə olmaq istəyənlər üçün:**

6 aylıq - 10 AZN
12 aylıq - 18 AZN

**"NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur**


# baş redaktordan


***Professor TEYMUR ƏHMƏDOV***




Bu bir həqiqətdir ki, cəmiyyətin tarixi dönəmlərində yaranan demokratik ab-hava ayrı-ayrı ictimai zümrələrin qəzet və jurnal nəşrinə geniş meydan açır.

XX əsrin əvvəllərində Azərbaycanda da belə bir şərait yaranmışdı: Müxtəlif məsləkli qəzet və jurnalların çoxluğu yay gecələri açıq, buludsuz səmada sayrışan ulduzları xatırladırdı. Onların arasında ən parlaq ulduz hamının diqqətini çəkdiyi kimi tək-bir qəzet və jurnal da oxucuların qəlbinə yol tapırdı: "Molla Nəsrəddin", "Füyuzat", "Tərcüman", "Həyat", "Həblülmətin", "Kəşkül" və s. Bunların Avropa və Şərq ölkələrində olan oxucularını cəlb edən sadəcə Azərbaycanın ictimai-siyasi vəziyyəti, xalqın həyat tərzi deyil, bu mətbuat səhifələrində olan maarifə, mədəniyyətə, birliyə olan çağırış idi. Oyanan Şərq əsarətdən, zülm və istibdad şəraitindən çıxış yolu, nicat axtarırdı. Bu cəhətdən Əlibəy Hüseynzadənin "Füyuzat" məcmuəsinin ilk saylarından Türkiyə, Orta Asiya, Krım və Rusiya müsəlman aləminin diqqətini cəlb etməsi təsadüfi deyildi.

"Füyuzat" (1906-1907) məcmuəsi XX əsrin başlanğıcında Azərbaycan ədəbi, siyasi və fəlsəfi məfkurəsində özünüdərk və istiqlal düşüncələrini ortaya qoymaqla misilsiz xidmət göstərmişdi. Ona görə ilk nəşrindən yüz il keçsə də, hətta Sovet hakimiyyəti illərində qadağa qoyulsa da "Füyuzat" unudulmadı.

Bugün "Füyuzat"ın öz nəşrini davam etdirməsi və ilk nömrəsinin rəğbətlə qarşılanması ədəbi hadisədir. Xalq şairi, akademik Bəxtiyar Vahabzadə yeni "Füyuzat"ın oxucularla görüşünü son dərəcə heyrət və sevinclə qarşıladı: gözlərində iki damla yaş giləndi. Redaksiya əməkdaşlarına uğurlar arzuladı. Əlibəyin müqəddəs yolunu davam etdirməyi, müasir dövrün tələblərinə cavab verməyi, azərbaycançılığa xidmət etməyi məsləhət gördü.

Əlibəy Hüseynzadə azərbaycançılıq ideyasını yüksək qiymətləndirmişdir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideyası, eləcə də müasir dövrün qarşıya qoyduğu vəzifələr təbliğatımızın tərkib hissəsini təşkil edir.

Yeni "Füyuzat" yüksəliş yolunda olan müstəqil Azərbaycanın aynası olacaqdır. Gənc nəslin tərbiyəsi üçün vacib olan Azərbaycan tarixi, mədəni irs, fəlsəfə, mənəviyyat, təbabət, səhiyyə və s. onun səhifələrində vaxtaşırı işıqlandırılacaqdır. "Füyuzat"ın bu sayında Xocalı hadisəsinə xüsusi diqqət yetirilməsi təsadüfi deyildir.

Bu bəşəri faciə tariximizin qanlı səhifəsidir. Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Xocalı özünün əsl siyasi hüquqi qiymətini aldı. Erməni şovinist millətçilərinin törətdiyi cinayətlər haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü.

Milli Məclisin 24 fevral 1994-cü il tarixli qərarı ilə fevralın 26-sı Xocalı soyqırımı və Milli matəm günü elan olundu.

Xocalı soyqırımı Xatın, Xirosima, Naqasaki, Sonqmi kimi dünyanın ən dəhşətli faciələrindən biri idi. Azğın erməni quldurları 366-cı rus hərbi birləşməsinin köməyi ilə Xocalı şəhərini xarabazara çevirdilər. 613 nəfər dinc əhalini məhv etdilər. Minlərlə adam güllə yarasından şikəst oldu. 106 nəfər qadın, 83 nəfər azyaşlı uşaq, 70 nəfər ahıl qoca qətlə yetirildi. Erməni cəlladları 56 nəfəri xüsusi qəddarlıqla öldürdülər: Günahsız insanlar diri-diri yandırıldı, başlarının dərisi soyuldu, bədən əzaları, başları kəsildi, gözləri çıxarıldı, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edildi. 1275 nəfər dinc sakin girov götürüldü.

Dünyanın bütün sülhsevər xalqları, beynəlxalq təşkilatları erməni millətçilərinin bəşəri cinayətlərinə öz münasibətlərini bildirməli, onları mühakimə etməlidirlər. Hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq bu müsibəti unutmamalı, Xocalı soyqırımının bütün dəhşətləri ilə dünya xalqlarına çatdırmalı, erməni faşizmini ifşa etməlidir.

Əks halda, Xocalı soyqırımı günahkarlarını-insanlıq simasını itirmiş erməni millətçilərini və onların havadarlarını mühakimə etmək çətin olacaqdır. Biz hamımız şəhidlərin ruhu qarşısında öz vətəndaşlıq borcumuzu verə bilməyəcəyik, onda ömrümüz boyu əzab çəkəcəyik. Gəlin birləşək, düşmənə cavab verək.

# Təbriklər və məktublar



## Qafqaz Müsəlmanları İdarəsinin sədri, tarix elmləri doktoru, professor Şeyxülislam Allahşükür PAŞAZADƏ

Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm oxucular!

Sizləri Azərbaycanın ədəbi-ictimai həyatında önəmli hadisə - özünün nəcib və nəfis dəst-xətti ilə seçilən "Füyuzat" jurnalının işıq üzü görməsinin bir əsrlik tarixinin tamam olması və dərginin yenidən nəşrə başlaması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

"Füyuzat" - Azərbaycan içtimai fikir tarixində əsl hadisə olmuşdur. XX əsrin görkəmli şəxsiyyətlərindən biri, əlindəki qələmin müqəddəsliyinə ehtiramla yanaşan, ensiklopedik zəka sahibi, milli təfəkkürümüzün sadiq müdafiəçisi, eyni zamanda qlobal düşüncəyə malik vətənpərvər və ən əsası, İslam dininin zəngin dəyərlərinin ardıcıl təəssübkeşi Əli bəy Hüseynzadənin naşirliyi ilə işıq üzü görmüş dəyərli mətbu nümunəsi olmuşdur. Oxucuları ilə görüşə gəldiyi qısa zaman kəsiyində "Füyuzat" dərgisi qarşısına qoyduğu uca məram və niyyətlərə sadiqlik nümayiş etdirmiş, başqa nəşrlərin onilliklər ərzində öhdəsindən gələ bilmədiklərini cəmi bir il ərzində ərsəyə gətirmiş, millətinə xidmətdən fəxarət duymuşdur.

"Füyuzat" dərgisi uzun müddət yaşamadısa da, daşıyıcısı olduğu ideyaları millətin beyninə həkk etmək iqtidarında oldu. Başımızın üzərində qürurla dalğalandırdığımız müstəqil Azərbaycanın üçrəngli bayrağı Əli bəy Hüseynzadə ideyalrının həmişəyaşar rəmzidir. Türkləşmək, islamlaşmaq, avropalaşmaq kimi ideyaların daşıyıcısı olan "Füyuzat"ın böyük uğurunu şərtləndirən və başqa mətbu orqanlarının qibtəsinə səbəb olacaq haldır ki, onun təlqin etdiyi, aşıladığı ideyalar isıq üzü görmədiyi dövrlərdə belə intişardan qalmamış, millətinin tərəqqisi və hüriyyətinə dəlalət etmişdir.

Məcmuəyi-islamiyyə mərami ilə çap olunan "Füyuzat" XX əsrin mürəkkəb içtimai-siyasi, ədəbi-mədəni həyatına yeni baxışı, fərqli mövqeyi və ideya istiqaməti ilə seçilən bir mətbu orqanı olaraq, Azərbaycanın bir çox dəyərli ziyalıları, şair və ədiblərini öz ətrafına toplamaqla öz möhtəşəmliyini artırmış, mötəbər fikir kürsüsünə çevrilmişdir.

Milli dövlətçiliyin dərkində özəl mərhələ olmuş "Füyuzat" milli şüurun istiqbalımız üçün hazırlanması yolunda məramnamə rolunu oynadı. Milli özünüdərk, Qərb və Şərq mədəniyyətlərinin sintezi ilə bərabər islamlaşmağı -İslam intibahını yaşamağı tərəqqinin asas qayələrindən biri kimi təqdim edən Əli bəy Hüseynzadəyə görə, ittihad "aləmi-islamın sülh və insaniyyət dairəsində ittihadıdır". İttihada doğru tərəqqi məramının gerçəkləşməsində Əli bəy Hüseynzadə "maarif, ittihad, hürriyyəti" ardıcıl mərhələlər kimi səciyyələndirir. Bu növ yanaşma, Əli bəy Hüseynzadənin İslam fəlsəfəsini gözəl dərk etmək, onun dərinliklərinə nüfuz etmək, dəyərlərinə vaqif olmaq fəzilətindən qaynaqlanırdı. Həqiqətən də, İslam dünyabaxışı, düşüncə tərzi, ilk növbədə, təfəkkürün müstəqilliyini nəzərdə tutur. İslamın və elmin aləmşümulluğu isə onları ümumbəşəri dəyərlər kimi birləşdirir və müsəlmanların şüurunda elm və din mənşəcə Allahın dərkində iki təməl kimi qəbul edilir. Digər tərəfdən, fövqəlmilli, ümumbəşəri mədəni məzmun daşıyan İslamda dini olan milli olana qarşı qoyulmamışdır və onlar arasında təmas dairəsi genişdir.

Ə.Hüseynzadənin İslam dininin özəlliklərinə belə dərindən bələd olması, əslində, qanunauyğundur. Mənim üçün, bir Şeyxülislam olaraq, xüsusilə önəmli və dəyərlidir ki, belə bir parlaq zəka sahibi tanınmış din xadimləri, Qafqazın Şeyxülislamları olmuş Axund Məhəmmədəli Hüseynzadə və Axund Əhməd Hüseynzadə kimi dəyərli şəxsiyyətlərin ailəsində dünyaya gəlmişdir. Qafqazın ilk Şeyxülislam Axund Məhəmmədəli Hüseynzadənin sevimli nəvəsi Əli bəy mənsub olduğu şəcərənin ən gözəl ənənələrini özündə ehtiva edən, ocağına, xalqına qürur yaşadan, fəxr gətirən övladlardandır. Bu mütəfəkkir insanın müqəddəs İslam dininə olan böyük sevgi ve ehtiramı, həmçinin, dərin məhəbbətlə qələmə aldığı "Bibiheybət məscidi" tablosundan da aydın sezilir; bu sənət əsəri əsrarəngiz dini-tarixi abidənin ilkin görkəmini gözlərimiz önündə canlandırmaqla qəlblərimizi riqqətə gətirir.

"Füyuzat"dan danışarkən, millətimizin böyük oğlu, milli qeyrət təcəssümü olan Hacı Zeynalabdin Tağıyevi xatirlamamaq qeyri-mümkündür. Bu böyük millət təəssübkeşi, uzaqgörən şəxsiyyətin maliyyə dəstəyi sayəsində ərsəyə gəlmiş "Füyuzat" məcmuəsi Hacının Azərbaycan xalqına çoxsaylı ərmağanları sırasında önəmli yer tutur. Allah ona qəni-qəni rəhmət eləsin! Ruhu şad, qəbri nura qərq olsun!

Azərbaycan Respublikasının istiqlaliyyətinin bərpa edilməsi Qadir Allahın bəxş etdiyi ədalətin təntənəsidir. Allah-Taalanın iradəsi ilə xalqımız 1920-ci ildə qəsbkarların təzyiqi altında zor gücünə məhrum olduğu səadətini - dövlət istiqlaliyyətini, özünün əsl siyasi simasını yenidən kəsb etdi. Vaxtilə "Füyuzat"ın təşviq və təbliğ etdiyi ideyalar Ulu Öndər, ümummilli liderimiz Heydər Əliyev həzrətlərinin azərbaycançılıq məfkurəsində, milli, dini-mənəvi dəyərlərə qayıdış, dünyaya inteqrasiya etməyin vacibliyi haqqında dəyərli tövsiyyələri və əməli fəaliyyətində özünün məntiqi davam, intişar və intibahına qovuşdu.

Bu gün müstəqillik qazandıqdan sonra "Füyuzat" kimi düşüncə nəhənginin, öz ənənələri ilə məhşur müfid bir məcmuənin çapının bərpasını dəyərli addım kimi səciyyələndirir və bu uğurlu təşəbbüsü ürəkdən dəstəkləyirəm. Bu xüsusda, jurnalın naşirləri və redaksiya heyətinə böyük uğurlar, yeni zirvələr fəth etməyi arzu edirəm.

Allah köməyiniz olsun!



## Akademik Cəmil Quliyev:

Həyatın əsl mənası yaşamaq və yaratmaqdır, bu obyektiv bəşəri prosesin nüvə mərkəzində insan durur, o, cəmiyyətin rifahı, tərəqqi ölçüsüdür, "daimə səadətə - füyuzata meyillidir". Fəxr etməliyik ki, xalqımızın iki milyondan çox tarixinin XX yüzilliyinin başlanğıcında milli özünüdərk etməyə, istiqlala, azadlığa, yeni mənəviyyata çağıran, zamanına uyğun dəyərli siyasi füyuzatçılıq cərəyanı olmuşdur!

Arzu edirəm ki, yeni "Füyuzat" - XXI elm əsrində, cahana səs salmış müstəqil Azərbaycan dövlətinin, ümumbəşəri sivilizasiyanın ayrılmaz bir tərkibi olaraq, özünəməxsus fövqalədə tarixi yol keçməsinin, millətlər arasında telerantlığın, Şərq və Qərb qovuşuğunda iki mədəniyyətin sintezinin bənzəri olmayan təcəssümün mahir carçısı olsun.

Yeni "Füyuzat" jurnalı Azərbaycan xalqının, bütün əhalinin, ictimaiyyətin istəkli dostu və əsl "Füyuzat" həmkarı olacağına inanıram. İstərdim daimi tərəqqi, yüksək mənəviyyat meyli "Füyuzat" ın əbədi şüarı olsun.

Ümummilli liderimiz Heydər Əliyevin elmi və ictimai-fəlsəfi irsinin tədqiqi və tətbiqi, Prezident İlham Əliyevin "Azərbaycanı bütün dünyaya tanıtdırmalıyıq" tövsiyəsini həyata keçirmək jurnalın şərəfli vəzifəsi olmalıdır.

Əsl ülvi arzum öndərimiz Heydər Əliyevin - "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" kəlamının mənası, dərinliyi ilə millətini həqiqətən sevənlərin, müqəddəs borcu olsun - yeni "Füyuzat"ın başlığında yazılsın.

- Mən fəxr edirəm ki, Azərbaycanlıyam!

*17 fevral 2007*

## Tatarıstandan:

"Qafqas qitəyi-mübarəkəsi heç mücahidsiz qalırmı? Cahanın ən qaranlıq, aləmi-bəşəriyyətin ən vəhşi zamanlarında belə Qafqas əqtari-ərzə nur saçıyordı. Millətimizin bugünkü günündə belə yüz dərəcə cahil bulunan bir zamanında Rusiya müsəlmanları arasında mətbəəyi-islamiyyə ilk Qafqasda açılmışdır. "Əkinçi"lər, "Kəşkülçü"lər Qafqas övladları, Qafqas qəhrəmanlarıdır. Tarixi-ümuminin türklər üçün müzlim nöqtələrini kəşf və tənvir edən və bunların ədəbiyyatına xeyli xidmətlər edən... yenə Qafqas qəhrəmanları deyilmidir? Bunun üçün Qafqas qitəsi boş qalmayacaqdır. Orası bir ictihadi-mədəniyyətpərvərانə meydanı olacaqdır...

...Qafqas qitəsi Rusiya müsəlmanlarına, bəlkə Osmanlı türklərinə belə hər kəsdən ziyadə xidmət etmişdir, etməkdədir və edəcəkdir. Qafqas hər xüsusda Rusiya türklərinə rəhbər və müəllim olmuşdur və olacaqdır".

## Türkiyədən:

"Füyuzat" meydani-intişara qonuldu. Bizə bu lazım idi. "Füyuzat" mənbəyi-feyz və kəmalatdır. "Füyuzat"ın tülu ilə Asiya qövmünün və Rusiya müsəlmanlarının məsud və bəxtiyar olmalarını təfaül edəriz. "Füyuzat"ın bu vəzifəyi icra buyuracağından əminəm. Zira, bu incə və həqiqi məsələ biçarə müsəlmanları əsir və səfil etmiş idi. Şu səfalət və əsarətdən təxlisi-giriban etmək üçün başqa bir vasitə bulunmaz. Əfəndim, "Füyuzat"ın davamı üçün sizin sağ olmağınız şərtdir".

***1906-cı il***





## Xalq şairi, akademik Bəxtiyar Vahabzadə:



Mən hesab edirəm ki, "Füyuzat"ın yenidən çap olunması millətimizin, ziyalılarımızın bayramıdır.

Ona görə ki, "Füyuzat", "Molla Nəsrəddin", "Tərcüman" və digərlərinin bu gün yenidən oxucularla görüşməsi çox böyük hadisədir. Buna görə də mən yalnız jurnalın əməkdaşlarını yox ümumiyyətlə Azərbaycan ziyalılarını təbrik edirəm. Mən əminəm ki, jurnalın yenidən nəşri ilə Əli bəy Hüseynzadənin ruhunu şad edəcəkdir.

Sizin vəzifəniz o ada layiq olmaq, o ənənəni davam etdirməkdir. Mənim üçün ən sevindirici hal odur ki, Əli bəy Hüseynzadənin adına yazılan o mənasız ləkə götürüləcək. Uzun müddət bizim ədəbiyyatşünaslarımız "Füyuzat"a qarşı "Molla Nəsrəddin"i qoyub. Axı bunlar ikisi də eyni əqidənin yolçularıdır. Burda ancaq fərq üslubdadır. "Molla Nəsrəddin" satirik üslubla xitab edib, "Füyuzat" isə romantik üslubda yazılıb, budur fərq, ideya eynidir, məqsəd eynidir. Milləti ayıltmaq, millətə faydalı olmaq, milləti maarifləndirmək, milləti müasir millət səviyyəsinə qaldırmaq hər ikisinin əqidə yolu olub.

Mən "Füyuzat"ın yenidən işıq üzü görməsinə çox şadam. "Füyuzat"ın yenidən işıq üzü görməsi xəbərini eşidəndə mən özümü saxlaya bilmədim, ağladım. Çünki vaxtilə Əli bəyə, Əhməd bəy Ağayevə o qədər ləkə vurulub ki, düz 70 il Əli bəyi təhqir ediblər.

Burada onu da demək istəyirəm ki, Əziz Mirəhmədov yeganə adam idi ki, öz günahını etiraf etdi: Yazdı ki, Əli bəy Hüseynzadə sənin qarşında diz çökürəm, bağışla məni, mən səni təhqir etmişəm, sənə nalayiq sözlər demişəm, amma neyləyim əlacım yox idi o dövr beləydi. Mən sizin ruhunuzdan üzr istəyirəm. Bu özü də böyük mərdlik idi. Mən xahiş edirəm ki, onun etiraflarını, mütləq jurnalınızda nəşr edin.

Sizə uğurlar arzulayıram. Arzu edirəm ki, "Füyuzat"ın o müqəddəs yolu davam etsin. Biraz da müasirləşin, müasir dövrün tələblərinə cavab verin. İstərdim ki, Azərbaycançılığa xidmət edən "Füyuzat" jurnalının yenidən fəaliyyətə başlamasında xüsusi yeri olan dərginin baş redaktoru Teymur Əhmədova başladığı bu müqəddəs işdə uğurlar arzulayıram.

Ziyalılarımızın qarşısında duran problemlərə toxunun, yazılarda yeni duyğular, yeni fikirlər olsun. Hər şeydən əvvəl burda bir məqama da diqqət yetirmək lazımdır, o böyük xadimlərimiz "Füyuzat"ı çıxaranda Azərbaycan müstəqil deyildi, müstəmləkə idi. İndi Allaha şükürlər olsun, Azərbaycan müstəqil dövlətdir, müstəqil bayrağımız, dövlətimiz, dövlət atributlarımız var. İndi onun möhkəmlənməsinə çalışmaq lazımdır və o böyüklərimizə o, dahilərimizə xitab etmək lazımdır ki, ruhunuz şad olsun. Siz arzuladığınız müstəqilliyi artıq əldə etmişik və sizin ideallarınızın gerçəkləşməsinə hər zaman çalışacağıq, əlimizdən gələni edəcəyik...

Sağolun öz minnətdarlığımı bildirirəm.

*19 fevral 2007*



## Xoş gəldin!

Səninlə tanışlığımız soyuq bir qış günündə başladı, dünyaya gəldiyin gündən bir neçə gün sonra.

Səni gördüyüm anda donub qaldım . O qədər doğma idin ki , sanki daha əvvəl səni görmüş kimi idim. Əvvəlcə adın içimi titrətdi. Sanki qəlbim illərcə sənin adına həsrət idi.

Çöhrən o qədər mütəvazi idi ki...

Amma bununla yanaşı qəribə bir dərinliyin, bir sirliliyin var idi...

Gözüm qapağının üzərindəki "100 il" sözünə rast gəldi, elə yanındaca "33-cü say" yazısını gördüm və anladım. Anladım ki, sən düz yüz il imiş bizdən ayrı qalmısan. Doğma Vətənindən, yurdundan, insanlarından qoparılmısan. Düz yüz il imiş qərib imişsən, öz yurdunda qərib.

Sənə iftiralar atıblar, sənə biganə qalıblar, səni yadlaşdırmaq istəyiblər...

Amma səni yadlaşdırmaq, səndən uzaqlaşmaq olmaz, çünki sənin qaynağın saflardan saf, təmizlərdən təmiz, paklardan pakdır.

Səni özününküləşdirmək olmaz. Çünki sən bütün insanlığın ehtiyacısan. Çünki sənin qaynağın nurdur. Çünki sən könülləri aydıladan bir feyz mənbəyindənsən. Səhifələrini vərəqlədikcə içim isindi, dayandım, səninlə bağlı olan yazılara, kitablara baxdım, oxudum, araşdırdım, sanki mən də yenidən dirildim.

Nə gözəl, nə şərəfli bir tarix. İllərcə bundan əvvəl milləti üçün, Vətəni üçün çırpınan qəlblər, nə müqəddəs könüllər ...

Bir anlığına sənin ilk dönəminə yollandım. Sanki qarşımda Sahibi-imtiyaz, xeyriyyəçimiz Hacı Zeynalabdini gördum. Yanında da Əli bəy dayanıb sənin təkrar gəlişinə təbəssüm edirdirdilər.

Və belə deyirdilər: "Füyuzat" necə ki bizlərə əmanətdi, bizlər də bunu sizə əmanət etdik.

Ey feyizlərlə milləti, Vətəni üçün faydalı olmaqdan başqa bir yol olmadığına inanan ixtiyar baba və nənələr, ata və analar, gənclər və beşikdəki yavrular, FÜYUZATa sahib çıxın!"

Digər tərəfdən: "Yeganə amalımız insanlığın islahıdır, qurtuluşudur", - deyən Muhəmməd Hadi və göz yaşları qurumayan Həsən Səbri "bu jurnal sizə əmanətdir!" - deyirdi.

Anladım!.. Anladım ki, sən nə Hacının, nə Əli bəyinsən, nə də bir başqasının. Sənin anlamın adın qədər dərin, bəlkə də daha da dərin...

Anladım ki, sən bizə səadət əsrindən əmanətsən!

Xoş gəldin evimizə, xoş gəldin obamıza, xoş gəldin ölkəmizə. Xoş gəldin!..

*Yunus Xatəm,*
*Bakı şəhəri*



# "HƏYAT"

## qəzetinin bağlanmasından sonra

# "FÜYUZAT"

## jurnalının işıq üzü görməsindən hasil olan təəssüratım

*Həsən Səbri Eyvazov*

"Həyat" qəzetinin mətbuat aləminə acı bir şəkildə vida edib müvəqqəti tətilə məcbur olaraq, bir kənara çəkilməsi bütün oxucularını, bəlkə də bütün müsəlman fərdlərini son dərəcə hüznlü və kədərli etdi.

Həyatımızı canlandıran zavallı "Həyat" qəzeti hələ ilk çağlarında (yaş yarımında) mübarizə və mücadilə meydanından ağlaya-ağlaya çıxdığı zaman bütün müsəlman mətbuatını ümidsizliyə və bütün vicdan sahiblərini də böyük kədər və hüznə bürüdü.

Bəli, mətbuat aləmi çox məyus, milli qəzetlərimiz də çox hüznlü və kədərli oldu. Çünki onlar çox gənc və fəal olan yoldaşlarından birini itirdilər.

Lakin bu hüzn və kədərin ən böyük, ən şiddətlisi və ən acısı "Həyat" qəzeti ilə münasibətdə olanlara, daha doğrusu, "Həyat" qəzeti üzündən qələmini hərəkət etdirənlərə, "Həyat" qəzeti vasitəsilə millət və vətən uğruna qələmini işə salanlara aiddir.

Bunun üçün "Həyat" qəzetinin vida etməsindən ən çox kədərlənən və acı çəkənlərdən biri də bu sətirləri qaralayan acizdir...

"Həyat"ın vidanaməsini oxuduğumda üzüntü və kədərimin çoxluğundan yana-yana ağladım. Axıtdığım göz yaşları nə üçün idi?

Altı-yeddi milyonluq bir müsəlman camaatının iki qəzeti maddi baxımdan idarəetmə və müntəzəm şəkildə davam etdirəcək qədər yardım, qeyrət və mərdlik ortaya qoya bilmədikləri, daha doğrusu əsrlərdən bəri zillət içində qalıb hələ də qəflət yuxusundan oyana bilmədiklərinə görə idi.

Bəli, uşaq kimi hönkür-hönkür ağladım...

Nə üçün?

Çünki kimsəsiz və yetim qaldım. Səsimi, sədamı, fəryad və fəğanımı, ahuzar və iniltimi əks etdirəcək səhnə bağlandı, fikir və təsəvvürləri əks etdirən, ayna olan "Həyat"ın səhifələrini qara buludlar əhatə etdi...

Məhz bunun üçün "Həyat" qəzetinin mətbuata vida etməsindən müvəqqəti də olsa ən çox kədərlənənlərdən biri də mən idim.

Bu şiddətli üzüntülərimə bir az təskinlik verən yenə də "Həyat" oldu.

İl yarıma qədər bir müddətdə inqilab və mübarizənin ən şiddətli yerində, hər cür böhran və hücum dalğalarına qarşı sinə gərərək, xarici həmlələrdən hüquq və namusumuzu müdafiə ilə, ölmüş və uyuşmuş, hərəkət edən bir meyitdən heç fərqi olmayan heyətimizin paslanmış və qırışmış qəlblərinə ruh və həyat saçan "Həyat" qəzeti, son nəfəsində oxucularını yetim qoymamaq, onları ağlatmamaq üçün, öz meydanında qoyduğu "Füyuzat"ın yaxınlarda çıxıb oxucularına feyz qazandıracağını müjdələyərək, "Füyuzat"ın salamını catdırdı. Bu müjdə və salam mənə təsəlli verdi və "Həyat"ın ölməyəcəyini anlatdı...

Doğrusu, bu müjdəni görməsəm, anlamasam da, "Həyat"ın

ölecəyi qənaətində deyildim. Çünki "Həyat"ı "Həyat" edən şəxsin ömrünün axırına qədr olmasa da, uzun bir müddət inzivaya, tənhalığa çəkilib durması ilə vicdanı qarşısında müttəhim və məhcub olacağını çox gözəl bildiyini anlayırdım. Bəli, bir hikmət sahibi, təbiətin gözəlliklərinə hakimanə nəzərini yönəldərək aldığı ləzzətlər ilə məşğul olub, öz xalqının övladlarına əlindən gəldiyi xidməti etməyib, təkcə öz aləmində vaxt keçirmək üçün dünyaya gəlməyib. Bəlkə də bütün fikri və zehni qüvvəsi ilə gücdən düşüncəyə qədər millətinə, vətəninə xidmət etmək vəzifəsi ilə vəzifələndirilib. Bir insan zaman və məkan şəraitinə görə, elm və bilik əldə edib öz millətinin övladınlarını faydalandırmazsa, yaxud kamil bir alim təşəbbüs etdiyi məsləkdə, arxasıyca getdiyi işdə çətinliyə düşəndə məsləyindən üz çevirərsə, mənəvi cəhətdən məsuliyyət daşıyır.

Demək istəyirəm ki, "Həyat" himayəsiz və köməksiz qaldığı halda yenə də öz məsləyindən üz çevirmədi. Yalnız bir-iki aya qədər cəmiyyətdən ayrılaraq Qafqaz dağlarında gizləndi...

Mübarək Qafqaz bölgəsi heç mücahidsiz qalarmı?

Cahanın ən qaranlıq, bəşəriyyət aləminin ən vəhşi zamanlarında belə Qafqaz dünya ölkələrinə nur saçırdı. Millətimizin bəlkə də bugünkü günündən də yüz dəfə cahil olan bir zamanında Rusiya müsəlmanları arasında ilk dəfə müsəlman mətbəəsi Qafqazda açıldı. "Əkinçi"lər, "Kəşkül"çülər Qafqaz övladları, Qafqaz qəhrəmanlarıdır. Ümumi tarixin türklər üçün qaranlıq nöqtələrini işıqlandıran və onların ədəbiyyatına xeyli xidmət göstərən Murad bəy həzrətləri də Qafqaz qəhrəmanlarından deyildirmi?

Buna görə də Qafqaz bölgəsi boş qalmayacaqdır: ora mədəniyyətlərin ictihad meydanı olacaqdır. On beş-iyirmi gün bundan əvvəl vida ilə bağrımızı yandırıb yaxaraq kənara çəkilən "Həyat" bu gün başqa bir libasa bürünərək, ətrafına feyz saça-saça günəş kimi doğur.

"Füyuzat" doğur.

Ah! Bilsəydiniz bu tülu (doğuş) nə qədər ümidlər doğurur, nə qədər sevinclər bəxş edir! Bu doğuşun şövqü bir anda Qafqaz dağlarını, obalarını, dənizlərini keçərək yaxın vətənimiz olan Krım yarımadasını da işıqlandırmağa başladı. Maarif günəşi olan "Füyuzat"ın çıxmasında başqa bir ləzzət, başqa bir ülviyyət var. Zavallı "Həyat" qəzetinin batması nə qədər hüznlüdürsə, "Füyuzat"ın işıq üzü görməsi o qədər sevindiricidir.

"Həyat"ın sönməsi ilə qaranlıqda qalan gözlərim "Füyuzat"ın doğması ilə mənəvi bir nura qərq oldu. "Həyat"ın getməsi ilə hüznlənən qəlbim "Füyuzat"ın dünyaya gəlməsi ilə həzz duyur...

Nə üçün?

Çünki "Füyuzat" ədəbiyyat aləmində yol bilməyənlərə yol göstərəcək, yolunu azanlara rəhbər olacaq, bəhs və elmi mühazirələrdə həddi aşanlara nəzarət edəcəkdir...

Fitrətin ən böyük bəxşişi olan və insanlığın var olması ancaq onunla qüvvətlənən "dil"ə başqa bir şirinlik, başqa bir nəzakət verəcəkdir. Bunu meydana gətirən, yəni dilimizin islah edilməsinə, zənginləşməsinə çalışan "ədəbiyyatdır". Dilimizi ədəbi bir dil edəcək olan da mübarək "Füyuzat" jurnalıdır.

İnsaf ilə düşünün "Dil" nə qədər böyük bir nemət, "Söz" də nə qədər təsirli bir qüvvədir. İnsan təbiəti dünyanın hər cür ağrı-acı və kədərlərinə, həyatın min cür hücümlarına, zamanın

***Bəli, bir hikmət sahibi, təbiətin gözəlliklərinə hakimanə nəzərini yönəldərək aldığı ləzzətlər ilə məşğul olub, öz xalqının övladlarına əlindən gəldiyi xidməti etməyib, təkcə öz aləmində vaxt keçirmək üçün dünyaya gəlməyib. Bəlkə də bütün fikri və zehni qüvvəsi ilə gücdən düşüncəyə qədər millətinə, vətəninə xidmət etmək vəzifəsi ilə vəzifələndirilib.***






atəş saçan top-tüfənglərinə sinə gərərək müqavimət göstərdiyi və özünü müdafiə etdiyi halda, "söz" təsirinə, nüfuzuna qarşı dözməyib itaət etməyə məcbur olur. İnsaniyyətin anası sözdür. Söz bir çox şeylər doğurmuş və doğuracaqdır. Fikirlərin davamı üçün yeganə köməkçi nitq və dildirsə, sözün gözəl təsirinin daş ürəklərə nüfuzu da "ədəbiyyat" sahəsində meydana gələcəkdir. Çünki insanın dilinin bəyaz və parlaq səhifəsi ədəbiyyatdır. Mərhum Kamal "Ədəbiyyatsız millət dilsiz insan kimidir", deyib.

Sözün nə qədər təsirli bir fitri gözəllik və nə qədər təsirli bir qüvvət və qüdrət olduğu, cəmiyyətin ən böyük əllamə və alimlərini belə məğlub etdi. Necə ki İslam dininin zühurunda şəriət qılıncına qarşı müqavimət edən (cahiliyyə dövrünün) ərəb təəssübkeşləri bəlağətli hökmlərin qarşısında dayana bilməyib məğlub və itaətə məcbur oldular...

Bu gün aramızda sözlə qarşısındakını məğlub edə biləcək neçə adam ola bilər? Bəli, rus və ya fransız dillərində bülbül kimi danışan müəllimlərimiz çox olsa da, ana dilimiz olan türk dilində "ədəbiyyat" qayda-qanunları dairəsində söz söyləyə bilən və qələm yürüdən insan çox azdır. Bu halda dilimizi ədəbi bir dilə çevirə bilən ədəbiyyat olduğuna görə ona çox böyük ehtiyacımız vardır.

Ədəbiyyatın lüzümunu inkar edənlər, bu vəziyyətin həyati davranışlara olan təsirlərini inkar etsələr də mümkün deyildir... Ola bilməzdə. Hər hansı mühüm məsələni həll edəcək, millətimizi ədəbiyyatla tanıtdıracaq "Füyuzat" jurnalı olacaqdır.

Bu halda bütün ədəbiyyat müntəsibləri ondan istifadə edəcək bu ədəbi "Füyuzatın" çöhrəsinin təbəssüm etməsinə sevinməmək mümkündürmü? Belə ədəbi, fənni, ictimai bir jurnalın doğulduğunu insan görüb necə razı və təsirli olmaz. Maddi və mənəvi olan filosoflarımızın, ədiblərimizin maarifpərvər qələmlərindən töküləcək həqiqətlərin yayılma vasitəsi olacaq "Füyuzatı" oxuyub necə feyz əldə etməzlər?..

Doğrusu, bu gün qəlbimdə doğan mənəvi hissləri, fərəh və sevinci söyləməkdə acizəm.

Zavallı "Həyat"ın bir kənara çəkilməsindən necə təsirlənib ağladımsa, "Füyuzatın" şölə saçaraq ortaya çıxmasından da eləcə təsirlənib ağlayıram. Bəli, şiddətli təəsüratlarımı tuta bilməyib həyat tərcümanım olan gözlərimdən qətrə-qətrə yaşlar axıtdım. Lakin sevinclə axıtdığım göz yaşları ilə hüznlə tökülən qətrələr arasında çox böyük bir fərq vardır. Bugünkü yaşlar çox sevincli idi.

Məhz yuxarıdan bəri dilimin döndüyü qədər anlatmağa çalışdığım, lakin bir hissəsini belə ifadə edə bilmədiyim şövqün bu nöqtəsi məni özümdən keçirir.

*1906, №2*

بسم الله الرحمن الرحيم

# Aləmlərin arasından aləmlərin Rəbbinə



*Əhməd Yaşar Hocaəfəndi*

*Türkcədən çevirəni **Afət Allahverdi***

***Rəhman və Rəhim olan Allahın adı ilə.***

Aləmləri tərbiyə edən Allah-Taalaya həmd-sənalar olsun ki, O, bütün varlıqları insan oğluna xidmət etmək üçün yaratmışdır.

İnsan oğlu isə özü üçün yaradılmış bu aləmləri və içindəki varlıqları düşünərək, Rəbbini tanımaq və Ona borclu olduğu şükür vəzifəsini haqqı ilə yerinə yetirmək naminə xəlq edilmişdir.

Allah-Taala (c.c) - (Cəlalı böyük olan) bütün aləmləri həmdin özünə aid olduğunu Qurani-Kərimdə: "Həmd-sənalar aləmləri tərbiyə edən Allah-Taalaya məxsusdur"-buyuraraq bizlərə bildirmişdir.

İnsan oğlu Əhsənul-Xaliqin (ən gözəl yaradan) olan Rəbbinin bu varlıqları ən gözəl şəkildə tərbiyə etdiyini düşündükcə, Onun nə qədər gözəl bir Rabbul-Aləmin olduğunu öyrənər.

Kainatda Günəşə, Aya, ulduzlara, yerə, göylərə, rüzgarlara, buludlara, əlqərəz, zərrədən kürəyə sayıla bilməyəcək qədər çox varlıqlara ayıq bir nəzərlə və sağlam bir ağılla baxan insan oğlu bütün bu varlıqların hal dili ilə "Sübhanə Rabbiyəl əla" (Pak və Uca Allah)- deyə zikr etdiklərini duyar. Eyni ilə gözlə görünən varlıqların da "Mən şahidlik edirəm ki, bizi tərbiyə edən ən gözəl şəkildə tərbiyə etmiş, heç bir zərrəmizdə heç bir əskiklik yoxdur" - deyə zikr etdiyini duyar. Onların da bundan başqa bir səda duyması əsla mümkün deyildir.

Qəlbimizi xəbərdar edən bir başqa səda isə: "Başını qaldır, fəza boşluğuna, göyə bax. Bir nizamsızlıq görə bilirsənmi? "Bu, ilahi əmrdir. Sən də bu ilahi əmrə qulaq ver. Şəffaf bir gecədə başını səmaya doğru qaldıraraq gözlərini fəzanın sonsuz dərinliklərinə doğru çevir. O zaman hər əşyanın "Sübhanə Rəbbiyəl əla"- deyə zikr etdiyini görərsən. Beləliklə, bu uca aləmləri ən gözəl tərbiyə şəklində tərbiyə edənin tərbiyəsində heç bir əskikliyi olmadığını haqqı ilə bir daha gözünüzlə görüb qəlbinizlə təsdiq, dilinizlə də iqrar edərsiniz. Əgər ilk baxışda qəlbinizdə təsdiq tamamlanmamışdırsa, "Yenidən başınızı qaldırıb baxın!" - İlahi sədaya qulaq verin. O zaman gözləriniz baxmaqdan yorular və siz kainatın tərbiyəsində qüsur axtardığınız üçün yalnız bu davranışda yol verdiyiniz böyük peşmanlığı idrak edərsiniz. Məhs o zaman qul: "Qadiri - Mütləq olan Allah-Taala(c.c)-nın yaradıb tərbiyə etdiklərində məxluq olan ağlınla nöqsan axtarma və ya kamalatında sonuna çatma mənim həddim deyildir" qərarına gəlir, bu inancı qəlbin ilə təsdiq, dilin ilə də iqrar edərsən.

Allah Qurani-Kərimin ilk surəsi olan Fatihə surəsinin ilk ayəsində bizə özünü "Aləmlərin Rəbbi" olaraq tanıtdığı üçün biz də Onu bu şəkildə tanımağa və tanıtmağa əhəmiyyət verməliyik. Bütün bunlar bir daha bizə göstərir ki, Allah-Taala (c.c) adəm oğluna Özünü tanıtmaq üçün bu aləmləri yaratmışdır.

Kainatdakı aləmlərin həqiqi saylarını aləmlərin Rəbbi olan Allah bilir. Buna görə bu yazımızda sayları bizə məlum olmayan aləmlərin bəzilərinə işarə edək.

Məqaləmizdə izah etməyə çalışacağım aləmləri:

a) minerallar aləmi,
b) bitkilər aləmi,
c) heyvanlar aləmi,
d) cinlər aləmi,
e) insanlıq aləmi,
f) mələklər aləmi.

Bu aləmlərin hamısında məna maddəyə çevrildilmişdir, çünki məna hər şeydən əvvəldir.

Biz aləmlərin Rəbbini görünən varlıqlardan meydana gələn maddi aləmlərlə və onların içərisindəki varlıqlarla tanıya bilərik.

Maddi aləmdəki varlıqların cisim və şəkilləri bir-birindən



fərqli ola bilər. İlk baxışda bunların cansız və duyğusuz varlıqlar olduğunu düşünə bilərik. Ancaq həqiqi mənada onların da özlərinə aid duyğuları vardır. Çünki Allah-Taala (c.c): "Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik, fəqət onlar bunu yüklənməkdən çəkindilər, məsuliyyətdən qorxaraq, acizliklərini izhar etdilər. Onu insan yükləndi. Doğrusu o, çox zalım, çox cahildir." (Əhzab, 72)

Allah-Taala Özünün sifətlərindən bəzilərini bəşərə ehsan etmişdir. İnsan oğlu bu sifətlərdən qürura qapılıb özünə güvənərək əmanəti və qulluq vəzifəsini üzərinə almışdır. Buna görə də Allah (c.c) insanın "cahillik edərək, özünə zülm etmiş olduğunu" ifadə etmişdir.

İnsanın cahillik etdiyi nöqtə – özünə verilmiş olan sifətlərlə öz başına qulluq edə biləcəyini düşünməsi idi. Halbuki insan sifətləriylə müstəqil olaraq bir şey etməkdə güc sahibi deyildir. Buna görə qulluq vəzifəsini qəbul etməsi cahillikdir.

Doğru olan isə Allahın yardımı ilə qulluq vəzifəsini istəməsi olardı.

Aləmlərin Rəbbinə qul olmaq vəzifəsini istəyənlərin önündə peyğəmbərlər gəlir. O seçilmiş insanlar qulluq vəzifələrini arzularının ən əhəmiyyətlisi hesab etmişlər. Buna görə "İsra" surəsinin ilk ayəsində Rəsulullah (s.a.v) "qul" sifətilə zikir edilmişdir.

Minerallar adıyla tanıtmaq istədiyimiz aləmlər qulluq əmanətini öhdələrinə götürməkdən çəkinməklə, tabe olduqları imtahandan qurtula bilmədilər. Allah bu dəfə onlara belə səslənir: "Sizi yaratmış olduğum ayrı-ayrı qayələr üçün hərəkət edəcəksiniz. Bu vəzifələri zorla etdirməyimi istəyirsiniz, yoxsa mənə təslim olaraq etmək istəyirsiniz?" Aləmlər: "Biz Sənə itaəti tərcih edirik" – deyərək ilahi iradəyə təslim olmuşlar.

Burada aydın olur ki, maddi aləmlərin hamısının özlərinə məxsus duyğu və qabiliyyətləri vardır. Bu aləmlər qeydsiz-şərtsiz təslimiyyətlərinə görə ən kiçik zərrəsindən ən böyük qalaktikasına qədər müsəlman olaraq adlandırmışdır.

Bitkilər, heyvanlar, cinlər, insanlar və mələklər təşkil etdikləri bu aləmlərdəki varlıqların bəzilərinin sadəcə duyğu və həyatları var. Bəzilərinin həyatı və nəfsi var, fəqət ağlı yoxdur. Bəzilərinin həyatı və ağlı var, fəqət nəfsi yoxdur. Bəzilərin isə həyatı, ağlı və nəfsi var.

Həyatı, ağlı və nəfsi olan varlıqlar da cinlər və insanlar olaraq iki sinfə bölünmüşdür. Göz ilə görünməyənlər cin adlanarkən, varlıqları görünənlər insan olaraq adlandırılmışdır.

Ağıl sahibi olan cinlər insanlıq aləmindən daha əvvəl yaradılaraq imtahan aləmi olan dünyaya göndərilmişlər. Cinlər də bir mənada insanlara xidmət üçün yaradılmışdır. Çünki onlar imtahan dünyasına insanlardan əvvəl gələrək imtahana məruz qalmış, imtahandan keçə bilmədikləri zaman cəzalandırılmışlar. Bu zaman onların böyük bir qismi həlak olmuşdur. Beləliklə, Allah-Taala (c.c) insan oğlu dünyaya gəlməmişdən əvvəl yer üzərində yaşayan bir camaatı onlara örnək olaraq göstərmiş və insanların qəflətə düşərək xəta etmələrinin qarşısını almağı murad etmişdir.

Allah-Taala (c.c) ilk insan Hz.Adəm(a.s)ı yaratdığı zaman mələklərə:

"Mən yer üzərində bir xəlifə yaradacağam" buyurmuşdur. Mələklər:

"Yer üzərində daha əvvəl qan töküb fəsad törədən varlıqlarmı yaradacaqsan?"-deyə fikir bəyan etdikləri zaman Allah-Taala (c.c):

"Mən sizin bilmədiyinizi bilirəm"-buyurmuşdur. (Bəqərə 30)

Allah mükəmməl bir şəkildə yaratdığı insana rəva bildiyi imtahanları qazana bilməsi üçün Rəsullar və kitablar göndərərək haqqı təbliğ etmiş, eyni zamanda əvvəlki dövrlərdə yaşanmış hadisələrlə də onları xəbərdar etmişdir.

Rəbbimiz Rəhman surəsinin əvvəlində "Rəhman olan Allah rəhmətinin təzahürü olaraq sizə Quranı bildirdi. İnsanı yaratdı, ona anlamaq qabiliyyətini verdi" (Rəhman 2-4). Bizə böyük nemətini-Qurani-Kərimi öyrənmək, anlamaq olduğunu xəbər verməkdədir.

Rəsuli-Əkrəm (s.a.v) bu ilahi xəbərdarlığı vəzifələrinin ən birinci olduğunu qəbul edərək, Rəbbindən aldığı əmr və yasaqları bizə nöqsansız bir şəkildə çatdırmaq üçün bütün imkanlarını sərf etmişdir.

Tarixə nəzər yetirdikdə insanlara həqiqətləri anladanları, bunları qəbul edənləri və ya rədd edənləri görürük. Eynilə də, həqiqətdən kənar inancları anlatmaq istəyənləri, bunları da qəbul və ya rədd edənləri görürük. Bir də heç bir şey anlatmayan və anladılan yaxşı və ya pis şeyləri heç düşünmədən qəbul və ya rədd edənləri görürük.

Ancaq biz elə bir günə gəldik ki, nə anlatmaq istəyən öz anladacağını bilir, nə də dinləyənlər nəyə möhtac olduqlarından xəbərdardır.

Halbuki insanların fitrətləri dəyişməyib, özünə elm əldə etmək üçün təhsil vasitələri olaraq verilən qulaq, göz, burun, dil və ya digər duyğu orqanları onlara bəxş edilən qabiliyyətlə birlikdə hələ də mövcuddur. Elm təhsilində insanın ən çox xəbərdaredici əzası qulağıdır. Buna görə Allah insanları ən əvvəl Rəsulların vasitəsilə göndərdiyi kitablarla xəbərdar etmiş, onlara keçmişlərini bildirib, gələcəklərindən xəbər vermişdir. Beləliklə, Allah-Taala(c.c) təbliğ edilən həqiqətləri qulaqları ilə dinləyən insanlığı tarixdə olub keçən fəlakətlərə qarşı xəbərdar etməkdədir. Çünki aləmlərin Rəbbi insanlara duyduqlarını düşünərək, daldıqları qəflətdən oyanacaq qədər ağıl ehsan etmişdir.

Təəssüflər olsun ki, dünyəvi məşğuliyyətlər insanlığı əhatə edincə, hər sahədə insanların həyatı böyük bir pərişanlıq və fəlakətə doğru sürüklənməyə başlayar. Buna görə qulaqlar da vəzifəsini haqqı ilə yerinə yetirə bilməz.

Təbliğçilər insanların qulaqları ilə həqiqətə çata bilmədikləri kimi, önlərinə sərilən kainat kitabındakı hikmətləri və ətraflarında meydana gələn təbii fəlakətləri də gözlərilə gördükləri halda, yenə ibrət alaraq Haqqa dönmədiklərini gördükdə duyğu orqanlarının bir başqası olan qoxualma duyğusu ilə Haqqa yönəlmələrini cəhd edərlər.

Kar olub heç nə eşitməyənlər, kor olub Allah-Taala (c.c)nın ehsan etdiyi saysız nemətləri görə bilməyənlər ya duyduqları qoxuların arxasına düşər, ya da birindən özünü həmin qoxuların yanına aparmasını rica edər. Yəni ətrafa yayılan gözəl qoxular insanı özünə çəkər. Eyni ilə də insan ətrafa yayılan pis qoxudan da sürətlə uzaqlaşmağa cəhd edər.

Allahdan gəlib Allaha tərəf gedən insan oğlu əgər saleh əməl sahibidirsə, cənnət bağçalarının qoxusunu duyar və ona gedən yolu axtarmağa başlar. Rəsuli Əkrəm (s.a.v) Veysəl Qərani həzrətlərini nəzərdə tutaraq, "Yəmən tərəfindən mənə cənnətin ətri gəlir"-buyuraraq, qoxunun insana verəcəyi faydalara diqqətimizi çəkməkdədir.

Bir başqa hədisi şəriflərində isə Rəsuli- Əkrəm (s.a.v) : "Ey əshabım! Cənnət bağçalarının düzəngah torpaqları misq (müşk) kimi gözəl qoxuyar. O bağçalarda meyvə ağacları əkmək istəyirsinizmi?" - deyə sual verər. Səhabeyi - Kiram: "İstəyirik, ya Rəsulallah", - deyə cavab verərlər. Və "o meyvələrin ağaclarını necə əkə bilərik?" - deyə soruşarlar. Rəsuli- Əkrəm (s.a.v) :

"Subhanəllahi (Pak Allah) vəlhəmdulillahi (Allaha həmd) vəla ilahə illallahu (Allahdan başqa Allah yoxdur) vəllahu əkbər (və Allah böyükdür) dediyiniz zaman o bağçaya bir meyvə ağacı əkmiş olarsınız"-buyurur.

Rəsulullah (s.a.v)-ın bu hədisi ilə cənnətin misq kimi qoxan torpağı və orada yetişən meyvələrin ətrinə diqqətimizi çəkərək, o qoxunu burada duyub oraya yönəlməyimizi bizə xatırlatmaqdadır.

İman bir həqiqətdir.

İnsan görmədiklərini görmüş kimi, qoxulaya bilmədiklərini qoxulamış kimi, dada bilmədiklərini dadmış kimi qəbul edib təsdiq etmədikcə, bu həqiqətə yetişə bilməz. Məhz iman insana bu halları yaşadan bir həqiqətdir.

Yüksəkgərginlikli elektrik cərəyanı vurmuş bir insanı görmədiyimiz halda, elektrik cərəyanından görənlər kimi çəkinməkdəyik. Fəqət ən gerçək, ən doğru və ən gözəl sözün sahibi və eyni zamanda da və dinə ən sadiq olan Allahın əmr və yasaqlarından bir elektrik cərəyanı qədər özümüzü himayə etməkdəyik. Əgər bunları düşünə bilsək, qulaqlarımızın kar, gözlərimizin kor, həmçinin ağlımızın öz qabiliyyətini itirdiyini idrak edər və özümüzə çəkə bilərik.

Allah-Taala (c.c) və Rəsuli Əkrəm (s.a.v)-in cənnət meyvələrinin qoxusu haqqında verdiyi xəbərləri inancımızla duymağa, ruhumuzla dadmağa cəhd etməliyik. Bu xəbərlərə, ətrafına qoxularını saçan gözümüzlə gördüyümüz varlıqlardan daha dəqiq bir şəkildə inanmalıyıq.

# Əlibəy Hüseynzadənin HƏYATI

**Bu günlərdə Azərbaycanın böyük mütəfəkkiri, fikir dünyamızın formalaşmasında naşiri olduğu "Həyat" qəzeti və "Füyuzat" dərgisi ilə özünəməxsus yer tutan Əli bəy Hüseynzadənin doğum günüdür. Türkçülük ideyasının yaradıcılarından biri olan Əli bəy Hüseynzadənin həyatının maraqlı olacağını nəzərə alaraq mərhum, dəyərli araşdırıcımız görkəmli ədəbiyyatşünas Ofeliya Bayramlının qələminin məhsulu olan "Əli bəy Hüseynzadənin həyatı" məqaləsini dəyərli oxucularımıza təqdim edirik.**

**BİZ İNSANIZ:**

Məzhəb və qövmiyyət insanlığı, insaniyyət hüququnu müdafiə ediniz. Məzlum olan sinifləri zalım siniflərin təcavüzatından azad etməyə çalışınız, müsavati-tammə istəyiniz. Yersiz, yurdsuz əkinçilərimizə, kəndlilərimizə yer, torpaq, tələb ediniz, füqərayi-kasibəmizin şəraiti-təəyyüşünü təshihə çalışınız.

**BİZ MÜSƏLMANIZ:**

Binaənəleyh öz əqayidi-diniyyəmizə, hürriyyəti-vicdanımıza hər nə lazımsa, onu istəyiniz, onu tələb ediniz.

**BİZ QAFQAZLIYIZ:**

Qafqaz əhlinin öz ümuri-idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb ediniz.

**BİZ TÜRKÜZ:**

Dilimizin, lisanımızın tərəqqisinə mane olan hər növ sədlərin, divarların yıxılmasına, rəf olunmasına qeyrət ediniz.

*Ə.Hüseynzadə*
*("Həyat", 2 iyun 1906)*







Azərbaycan ictimai və ədəbi fikir tarixində müstəsna yer tutan Əli bəy Hüseynzadə belə böyükməramlı şəxsiyyətlərdən biri idi.

Ə.Hüseynzadənin qəribə taleyi olub. Hələ sağlığında tədqiqatçılar uzaqgörənliklə onu "bütün türk dünyasının mücahidi" adlandırıblar.

Ədu qırar qapını, biz evdə bixəbəriz.

Nə başqa-başqalarız, nə ittihad edəriz!

- sözləri təkcə Vətəni Azərbaycanda deyil, bütün türk dünyasında böyük ümidlə qarşılanıb və həmrəylik doğurubdur.

A.Şaiq hələ 1923-cü ildə "Maarif işçisi" məcmuəsində çap etdirdiyi "Azəri ədəbiyyatı" haqqında tədqiqatında yazırdı: "Ə.Hüseynzadə... o zamankı Azərbaycan ədəbiyyatına bir yenilik gətirmək, ədəbiyyatı məhdud çərçivədən kənara çıxarmaq istəyirdi. Onun ədəbi, ictimai-siyasi fəaliyyəti gəncliyə müəyyən təsir göstərirdi. Şeir və sənətin nə olduğunu gəncliyə anladırdı".

Ə.Hüseynzadə haqqında 70 ildə bəzi tədqiqatçılarımız da tək-tük müsbət fikirlər söyləyiblər. Çünki belə nəhəng şəxsiyyət haqda danışmamaq olmazdı. Ə.Hüseynzadə elə yazıçı olub ki, onun əzəmətli sənətinin ecazkar

16988.
M.F.Axundov adına Az... Milli Kitabxanası



təsiri üstündən laqeydliklə ötüb keçmək mümkün olmayıb. Lakin buna baxmayaraq, dövrün hökmü, kommunist rejimi daha güclü idi. Ədibin azərbaycanlı tədqiqatçıları, yəni "özümüzkülər" millətimizin bədxahlarının (rus şovinistlərinin, erməni millətçilərinin), Ə.Hüseynzadəni gözdən salan ədalətsiz hökmlərinin əsiri olaraq ona cürbəcür damğalar vurub, mürtəce ideoloq, millətin düşməni kimi təqdim ediblər. Məhz buna görə də Ə.Hüseynzadənin Azərbaycanda siyasi-ədəbi irsi çap olunmayıb, həyat və yaradıcılığı isə təhrif olunmuş şəkildə işıqlandırılıb.

İllər keçdi. Bu gün illərin bəxş etdiyi yeni-yeni hadisələr ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən Ə.Hüseynzadəyə münasibətimizdə böyük dönüş yaratdı. Bizi ədib haqqında tamamilə başqa cür düşünməyə məcbur etdi. Ə.Hüseynzadənin bütün varlığı ilə millətinə bağlı, vətəninin müstəqilliyi, azadlığı uğrunda döyüşən mübariz azərbaycanlı olduğu dəqiqləşdi. Ə.Hüseynzadə əsrin əvvəllərində nəinki Azərbaycanda, nəinki Rusiya müsəlmanları arasında, həm də bütün türk dünyasında, islam aləmində milli azadlıq hərəkatının genişlənməsində, milli şüurun oyanmasında, tərəqqiyə olan hər cür təcavüzlərin aradan götürülməsində xidmətlər göstərən, bu yolda bütün çətinliklərə mətanətlə sinə gərən qeyrətli vətəndaş idi. Əsarətə, xarici təcavüzə boyun əyməyən Ə.Hüseynzadə imperializmin əleyhdarı, amansız və qətiyyətli düşməni idi.

Ə.Hüseynzadə 1864-cü il fevralın 24-də Salyan şəhərində anadan olub. Anası Xədicə xanım Qafqaz şeyxülislamı Şeyx Əhmədin qızı, atası Hüseyn Hüseynzadə isə Kruzma[1] bəylərindən Kazımbəy Hüseynzadənin 4 oğlundan kiçiyi idi. Kiçik yaşlarında ikən anasını itirdiyindən atası öz oğlanlarını (Əli bəylə onun kiçik yaşlı qardaşı İsmayılı) götürüb Tiflisə köçür və burada Qafqaz ruhani idarəsinin nəzdində olan molla məktəbində riyaziyyat müəllimi kimi fəaliyyətə başlayır. Əli bəy də ilk təhsilini həmin məktəbdə alır (1872).

Nəvənin zəkalı və qabiliyyətli olduğunu görən baba, Şeyx Əhməd Salyani, onun tərbiyəsi və təhsili ilə özü məşğul olur. Rus və qərb mədəniyyətinə yiyələnsin deyə, nəvəsini rus məktəblərindən birinə vermək istəyir. Qafqaz valisinin icazəsilə onu Tiflisdə rus gimnaziyasına qoyur. Burada oxuduğu on il müddətində Ə.Hüseynzadə (1875-1885) rus, latın, yunan, ərəb və fars dillərini öyrənir, rus və qərb ədəbiyyatı ilə yaxından tanış olur, Hötenin əsərlərini dönə-dönə mütaliə edir, yunan dili müəllimlərinin təkidilə Platonun "Dialoq", ingilis filosofu Herbert Spencerin "Tərbiyə"





(Education) və "Elmlərin təsnifi" (Classification des Schmenes) əsərlərini oxuyuyub mütaliə edir.

Ə.Hüseynzadə ibtidai və orta təhsil aldığı bu məktəblər barədə təəssüratını sonralar məqalələrinin birində belə şərh edirdi: "Bu təhsiliibtidaim Qurani-kərimin qiraəti ilə farsi-əlifbaya, tarixi Nadirin və Gülüstani-Sədinin mütaliəsinə münhəsir qaldı. Bir uşağın bu sürətlə öz ana dili ta ibtidaidən əhmal olunub ona zorla əcnəbi dilləri təhsil etdirilirsə nə nəticə hasil olur? Məncə, buradakı çalışmamızın qismi azami havaya ketdi, çünki türk olduğum halda türkcə bilmədim, müsəlman olduğum halda Quranı anlamadım..."[2]

Babası Əli bəyin təhsilini davam etdirmək məqsədilə 1885-ci ildə onu Peterburqa göndərir. O, fizika-riyaziyyat fakültəsinə daxil olaraq Mendeleyev, Vaqner, Beketov kimi məşhur rus professorlarından təhsil alır. Fakültə dərslərinə davam etməklə bərabər, Əli bəy, bir tərəfdən, Homeri, Danteni, Şekspiri, Bayronu, Şilleri və Höteni mütaliə etmiş, digər tərəfdən, şərq dilləri fakültəsində məşhur şərqşünas Cukovskinin "Ömər Xəyyam haqqında" mühazirələrini böyük maraqla dinləmişdir.

O zaman azadfikirli gənclərin çarpərəst müəllimlər tərəfindən sıxışdırılması Əli bəyə dərin təsir göstərir. Çarizmin özbaşınalığı, təzyiq, əsarət, təqiblər, kütləvi həbslər, sürgünlər, katorqalar, xüsusilə Peterburq universitet tələbələrinin coşğun, əsəbi və üsyankar çıxışları, siyasi quruluşa qarşı etirazları gənc Əli bəydə mütləqiyyətə nifrət oyadır. Bu ağır istibdad mühiti onu Peterburqdan uzaqlaşdırır. Peterburqda təhsilini bitirən Əli orada ona təklif edilən yüksəkməvacibli işi qəbul etməyərək, gizlicə Rusiyanı tərk edir (1889) və o günə qədər xəyallarında dolaşdığı Türkiyəyə gedir. Ancaq Peterburqda aldığı diploma ixtisası üzrə iş tapa bilmir, məcbur olub yenidən bir çox çətinliklərə qatlaşaraq, 1890-cı ildə İstambulda hərbi tibb məktəbinə daxil olur. Peterburq Universitetində olduğu kimi, burada da Ə.Hüseynzadə yaxşı oxuyur, tələbələrin hörmətini qazanır.

Lakin 90-cı illərin Türkiyə həyatı yalnız amansız irtica hadisələrilə səciyyələnmirdi. Bu illər Türkiyədə gənc türklər hərəkatının meydana çıxdığı, osmançılıqla, islamçılıqla yanaşı, türkçülük görüşlərinin yayıldığı, gizli fəaliyyət göstərən ittihadçılar cəmiyyətinin yarandığı illər idi. Bu cəmiyyətin bünövrəsi 1889-cu il mayın 21-də hərbi tibb məktəbinin bir qrup müdavimi tərəfindən qoyulmuşdu. "İttihadi-osmani" cəmiyyəti kimi tanınan bu təşkilat 1894-cü ildən "gənc türklər" adlanır. Bu cəmiyyət, bir tərəfdən yeni osmanlıların Əbdülhəmid, istibdadına qarşı konstitusiyalı quruluş uğrunda mübarizə ideyalarını davam etdirir, ikinci tərəfdən, yeni osmanlılardan fərqli olaraq "milli tərəqqi" amalı ətrafında bütün türk xalqlarını hərəkətə gətirmək, onları bu məqsəd ətrafında birləşdirmək istəyirdi.

Bu cəmiyyətin İbrahim Temo, Abdulla Cövdət, İshaq Sukuti, Mehmet Reşid, Bəhaəddin Şakirbəy, Şərafəddin Miqmumi kimi geniş siyasi düşüncəli üzvlərinin, xüsusən həmin cəmiyyətin hərbi tibb məktəbinin tələbələri arasında yaranması və təşkilində mühüm rol oynayan Şeyx Ubeydulla əfəndi ilə tanışlığının Ə.Hüseynzadənin ictimai, siyasi ideoloq kimi yetişməsində böyük təsiri olub.

Ə.Hüseynzadə "İttihad və tərəqqi" cəmiyyətinə daxil olması hadisəsini sonralar xatırlayaraq, məqalələrinin birində yazır ki, gizli cəmiyyət təşkil etmək üçün nənəsinin o zaman ona Şirvandan göndərdiyi pulu ittihadçılara kömək məqsədilə verərək, həmin cəmiyyətə üzv olmuşdur.

1895-ci ildə hərbi tibb məktəbini həkim yüzbaşı rütbəsilə bitirən Ə.Hüseynzadə Heydərpaşa hərbi xəstəxanasının dərizöhrəvi xəstəlikləri kafedrasına assistent təyin olunur (1895-1897). Bu illərdə o, həkimliklə yanaşı, bədii yaradıcılıqla, tərcüməçiliklə də məşğul olur. Onun ilk qələm təcrübələri də bu illərə təsadüf edir. O, alman şairi Bodenştedtin "Ömər Xəyyam" haqqındakı əsərini türkcəyə tərcümə edib, "Ə.H." imzası ilə A.Cövdətin "Ramazan bağçası" adlı məcmuəsində, Faustdan tərcümə etdiyi bəzi hissələri və Heynenin bir şerini "Məlumat" məcmuəsində "Salyani" imzası ilə dərc etdirib. Ədib ingilis şairi Con Miltonun "İtirilmiş cənnət" əsərindən tərcümə etdiyi parçaları isə o zaman "İrtika" qəzetində çap etdirib.

1897-ci ildə Türkiyə-Yunanıstan müharibəsi zamanı Ə.Hüseynzadə "Hilali Əhmər" ("Qırmızı ay") heyətinin tərkibində yaralılara kömək məqsədilə osmanlı qoşunu ilə Tesaliyanın müxtəlif müharibə meydanlarında olur.

Ə.Hüseynzadə Türkiyədə də çox qala bilmir. Bir tərəfindən gənc türklərin təqib və həbsləri, o biri tərəfdən isə Rusiyada birinci rus inqilabı hadisələrinin gündən-günə yüksəlişi Ə.Hüseynzadəni azadlıq ideyalarında qətiləşdirir. O, sözdən işə keçmək gününün yaxınlaşdığını hiss edərək, ittihadçıların məsləhətilə vətənə qayıdır.

1903-cü ilin əvvəllərində Azərbaycana qayıdan Ə.Hüseynzadə artıq siyasi hazırlıqlı, yüksəkməramlı bir ziyalı idi. Onun əsas məqsədi türkçülük

**H.Z.Tağıyevin maddi vəsaitilə 1906-cı ildə "Füyuzat" jurnalı Ə. Hüseynzadənin redaktorluğu ilə nəşrə başlayır.**

**Beləliklə, əsrin əvvəllərində xalqın milli şüurunun hansı istiqamətdə inkişafı məsələsi ətrafında gedən ideoloji mübarizə şəraitində yeni yetişən mübariz qüvvələr içərisində Ə.Hüseynzadə öz yerini tapır. Onun rəhbərlik etdiyi "Həyat", "Füyuzat" mətbu orqanları xalqın milli azadlıq hərəkatında yeni səhifələr açır.**

fəaliyyətini davam etdirmək, azadlıq uğrunda çarizmə qarşı daha müvəffəqiyyətlə mübarizə aparmaq idi. Lakin bu dövrdə Azərbaycanda vəziyyət çox mürəkkəb və gərgin idi.

Rus-yapon müharibəsində Rusiyanın məğlubiyyətinin çarizmin müstəmləkəçilik siyasətinin sarsılması ilə nəticələnməsi ayaqlanan xalqları yeni həyat və demokratiya uğrunda mübarizəyə qaldırır.

1905-ci il Rusiya əsarətində əzilən millətlərin həyatında olduğu kimi, azəri türklərinin həyatında da mühüm bir dövrün başlanğıcı olur.

Müsəlmanların ictimai-siyasi şüurunu oyatmaq, onları milli azadlıq uğrunda səfərbər etmək üçün o zaman Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov və digər ziyalılar Azərbaycanda başçılıq etdikləri hərəkatı Ümumrusiya müsəlmanlarının milli azadlıq hərəkatı ilə birləşdirmək məqsədilə İ.Qaspiralı, Ə.İbrahimov, Akçuraoğlu, S.K.Alkin və digər türk-tatar ziyalıları ilə əməl birliyi yaradaraq, milli tərəqqi məramı ətrafında geniş fəaliyyət göstərirlər. 1905-ci il iyun ayının 7-dən Bakıda Ə.Hüseynzadənin və Ə.Ağaoğlunun rəhbərliyilə "Həyat" qəzeti nəşrə başlayır və həmin il avqustun 15-də müsəlmanların Nijni Novqorodda gizli birinci qurultayı çağırılır. Sonrakı qurultaylar isə ölkədə ixtilalın güclənməsindən qorxuya düşən çarın vəd etdiyi manifestin (1905, 15 oktyabr) elanından sonra keçirilir. Rusiya Müsəlmanlar İttifaqının II qurultayı 1906-cı il yanvarın 13-də Peterburqda, üçüncü qurultayı isə avqustun 16-21-də Novqorodda çağırılır.

1906-cı il iyunun 8-də I Dövlət Duması dağıldıqdan sonra Ə.Topçubaşov bir çox duma deputatları ilə birlikdə Finlandiyaya gedib, orada rus imperiyası xalqlarını mütləqiyyətə qarşı mübarizəyə səsləyən məşhur "Vıborq müraciətnaməsi"ni imza etdiyinə görə həbsə alınır və qəzetçilik hüquqlarından məhrum edilir. Onun yerini Bakıda rus dilində çıxan "Kaspi" qəzetinin baş redaktoru vəzifəsini Ə.Hüseynzadə qəbul edir.

Milli tərəqqi uğrunda mübarizə məramını izləyən bu hərəkatın məqsədi tənəzzülə doğru gedən türk-müsəlman, xalqları arasında elm, maarif və mədəniyyəti inkişaf etdirmək və bu yol ilə həmin xalqlar arasında milli birlik yaratmaq idi. Bu məram, Ümumrusiya Müsəlmanlar İttifaqının nizamnaməsində də öz əksini tapmışdır. Ə. Topçubaşov və Musa Bigiyev tərəfindən tərtib olunmuş bu nizamnamədə əsas vəzifə: "...söz, mətbuat və din azadlığı, tədris ocaqlarının yenidən təşkili, ibtidai və orta məktəblərdə təhsilin ana dilində aparılması, dini və dünyəvi elmlərin tədrisi" və s. idi.

H.Z.Tağıyevin maddi vəsaitilə 1906-cı ildə "Füyuzat" jurnalı Ə. Hüseynzadənin redaktorluğu ilə nəşrə başlayır.

Beləliklə, əsrin əvvəllərində xalqın milli şüurunun hansı istiqamətdə inkişafı məsələsi ətrafında gedən ideoloji mübarizə şəraitində yeni yetişən mübariz qüvvələr içərisində Ə.Hüseynzadə öz yerini tapır. Onun rəhbərlik etdiyi "Həyat", "Füyuzat" mətbu orqanları xalqın milli azadlıq hərəkatında yeni səhifələr açır.

Ə.Hüseynzadənin "Füyuzat" səhifələrində "İslamlaşmaq, türkləşmək, avropalaşmaq" məramına əsasən vücuda gətirdiyi "türk hissiyyatı ilə mütəxəssis,





islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti hazirəsilə mütəməddin" ədəbiyyat isə füyuzatçılıq ədəbi məktəbinin zəminini qoyur. Ə.Hüseynzadənin təmsil etdiyi "Həyat" qəzeti, xüsusilə "Füzuyat" məcmuəsi türkçülüyün ictimai, siyasi, ədəbi-fəlsəfi hadisəsi kimi yüksəlir.

1908-ci il 31 mart gənc türklər hərəkatının qələbəsindən sonra Baha Şakirin və başqa ittihadçı dostlarının dəvəti ilə Ə.Hüseynzadə Türkiyəyə gedir. O, İstanbulda Heydərpaşa hərbi xəstəxananın tibb fakültəsində dəri-zöhrəvi xəstəliklər üzrə (1910-1926-cı ilə qədər) müəllim işləmişdir. 24 sentyabr 1931-ci ildə təqaüdə çıxsa da, yenə bir müddət (1933-cü ilə qədər) həmin fakültədə dərs verir. Bütün bunlarla yanaşı, Ə.Hüseynzadə həmişə "Hilali Əhmər"in xidmətlərilə əlaqədar müxtəlif xəstəxanalarda xəstələrin, yaralıların müalicəsilə məşğul olmuşdur.

O, 1911-ci ildə ittihadçılar partiyasının konqresində Talat Paşanın təklifilə yenidən "İttihad və tərəqqi"nin mərkəzi təşkilatına üzv seçilir. Bir müddət Edip Səbri, Nihat Şükri, Naci Adil, Ziya Köy Alp ilə birlikdə çalışaraq türkçülük görüşlərini təbliğ etmişdir.

Ə.Hüseynzadənin Türkiyədəki fəaliyyətinin doğurduğu ən görkəmli fikir ocaqlarından biri "Türk yurdu"dur.

Jurnalın əsas məqsəd və məramı haqqında məcmuənin bütün nömrələrinin ilk səhifəsində başlıqda qeyd edilmişdir: "Türklüyə xidmət etmək, türklərə fayda vermək". Məcmuədə türkçülük ideyaları ilə aşılanmış yazılara geniş yer verilirdi. 20 il fəaliyyət göstərən bu məcmuə türkçülüyün inkişafında yeni mərhələ idi.

Jurnal vaxtilə yasaq edilmiş mövzuları üzə çıxarır, türkün mənşəyini, mədəniyyətini, əzəmətini tanıdan türk tarixinin yazılması fikrini müdafiə edir. Milli qayğılar ilə sosial mühit arasındakı münasibətləri türkçülük çərçivəsində həll edir. Türkçülüyün müxtəlif cərəyanlara-islamçılığa, avropalaşmağa münasibəti araşdırılır...

"Türk yurdu" məcmuəsi Türkiyədə rusiyalı mühacirlərin (Ə.Ağaoğlu, Y.Akçuraoğlu, Ə.Hüseynzadə) rəhbərliyi altında nəşr olunmuşdur. Jurnalın əsas rolu Türkiyədəki oxuculara bütün türk aləmini tanıtmasında idi.

Birinci dünya müharibəsinin sonunda Rusiyanın dağılması gözləndiyindən, Türkiyədə Rusiya müsəlmanlarının gələcək taleyini müəyyənləşdirmək məqsədilə onların hüquqlarını müdafiə cəmiyyəti yaradılmışdır. 1915-1916-cı illərin əvvəllərində "İttihad" təşkilatının tapşırığı ilə Ə.Hüseynzadə buxaralı Müqimiddin, Y.Akçuraoğlu və başqa ittihadçı yoldaşları ilə "Turan" adlanan kiçik nümayəndə heyətinin tərkibində Qərbi Avropanın bir neçə ölkəsinə gedir. Həmin təşkilatın göstərişi ilə onun tərtib etdiyi "Rusiya müsəlmanlarının tələbləri" adlı kitabça Budapeştdə alman dilində nəşr olunmuşdur. Bu kitabçada Rusiyanın tabeliyində olan altı müsəlman dövlətinin müstəqilliyi tələb olunurdu.

Həmin heyət 1916-cı ilin yanvar ayında Berlində toplanan "Türk qövmləri konqresi"nə göndərilmişdir. Burada alman sosialistlərindən F.Ebertin, P.Şeydemanın vasitəçiliyindən istifadə edərək, Ə.Hüseynzadə Rusiya türklərinin hüquqlarının qorunmasını tələb edən raport irəli sürmüşdür.

1918-ci ildə Ə.Hüseynzadə Ə.Ağaoğlu ilə birlikdə Azərbaycanda milli bir dövlət qurmaq məsələsini ziyalılarla, qabaqcıl fikirli adamlar ilə müzakirə etmək üçün vətənə yollanır. Bu məqsədlə onlar əvvəlcə Qafqaz cümhuriyyətləri ittifaqının xarici işlər naziri Xalikbəylə Batumda görüşürlər. Sonra oradan Azərbaycanın ilk paytaxtı Gəncəyə Nuri Paşanın yanına gedir.

1925-ci ildə Ə.Hüseynzadə Bakıda keçirilən I Türkoloji qurultayda Fuad Köprülüzadə ilə birlikdə iştirak etmişdir.

Türkiyəyə qayıdan zaman Ə. Hüseynzadə Mustafa Atatürkə sui-qəsd etmək təşəbbüsündə olan ittihadçılarla birlikdə yenidən 1926-cı ilin 14 iyununda hökumət tərəfindən həbs olunur.

Məhkəmə Ə.Hüseynzadənin türkçülüyə dair çalışmalarının təqdirəlayiq və onun özünün günahsız olduğunu elan edərkən salonda böyük bir alqış tufanı qopur. O, avqustun 26-da bəraət qazanır.

Ə.Hüseynzadə tibb fakültəsində müəllimliklə yanaşı, elmi fəaliyyətini də davam etdirmiş və dosentlikdən professor dərəcəsinə qədər yüksəlmişdir. Onun 1900-cu ildə Mehmət Rəfi ilə birlikdə Nenterdən tərcümə etdiyi "Vəba və mikrobu" kitabı İstanbulda çap olunmuşdur.

Lakin professor dr. Kəmal Cənab Berksoy ilə hazırladıqları "Ensiklopedik tibb lüğəti" kitabı işıq üzü görməmişdir.

Ə.Hüseynzadə 1940-cı il martın 17-də Türkiyədə vəfat etmişdir.

---

[1] Ə.Hüseynzadənin öz dəsti-xəttilə yazdığı tərcümeyi halında verdiyi məlumata görə, Kruzma - ata qohum əqrəbasının yaşadığı bu kənd, Kür və Araz çaylarının birləşdiyi yerin yaxınlığında indiki Sabirabad rayonunun ərazisindədir. Vaxtilə həmin bu rayon Şamaxı uyezdinə daxil idi.

[2] Ə.Huseynzadə. "Nümunə məktəbi", "Həyat", 1906, №185.

# Nicat məhəbbətdədir!..

*Ustade-kainat ke in karxane saxt,*
*Məqsud eşq bud, cahanra bəhane saxt,*
*Ruzi ke, morğe-eşq bealəm qoşud bal,*
*Cayi nədid, dər dele-ma aşiyane saxt.*

Kainatın Sultanının bu dünyanı yaratmaqda məqsədi eşq idi,
dünyanı bəhanə etdi,
Eşq bülbülü bu dünyaya qanad açdıqdan bəri bir yer tapmadı,
öz yuvasını bizim qəlbimizdə qurdu.

***Müslimi Şirazi***

***Əlibəy Hüseynzadə***

1906 miladi ili sona çatır, demək Həzrəti Məsih (ə) ın təvəllüdündən şəmsi ili hesabi ilə min doqquz yüz altı il keçir. İlin bu mövsümündə, bu günlərində Peyğəmbər(s)in hicrətindən yenə eyni hesabla 622 il əvvəl Fələstin bölgəsində Beyti-ləhəm adlı bir qəsəbədə bir xurma ağacının altında (İncilə görə, bir axur yemliyində) Həzrəti Məryəmdən, Allahın hikmətilə və Cəbrailin bir dəfə üfürməsi ilə dünyaya bir uşaq gəldi ki, o uşaq ənbiyaye zişandan cahanın bütpərəstliyinə, müşrikliyinə ilk dəfə əzəmətli bir zərbə vuran Həzrəti İsa(ə) idi. Adı çəkilən Peyğəmbər 33 ilə qədər davam edən ömründə insanlara nəyi öyrətmək, təlqin etmək istəyirdi?..

İsəviliyin ilk yayıldığı məmləkətlərin birində, yəni Yunanıstanda gəzərkən kəndli, fəqir bir xristianın evində rəsm yerinə müsəlman qaydasında divara asılı bir lövhə gördüm. O lövhədə açıq mavi rəngli bir atlas üzərində zərli bir xətt ilə yunan ifadəsi olaraq bu sözlər yazılmışdı: "İman, ümid, məhəbbət". Bu üç qüvvət ki, İsa(ə) onunla kainatın nicatıdır". Zənnimcə, üç kəlmənin üçünü də daha əhatəli "məhəbbət" kəlməsilə ifadə etmək mümkün olduğu kimi, məhəbbət kəlməsini də kəlimətullah ilə, yəni İsa(ə) adıyla ifadə etmək olur: məhəbbət, yəni İsa(ə), İsa, yəni məhəbbət!.. bu o qüvvətdir ki, ona 7 əsr sonra Xatəmul-ənbiya vəl mursəlin təzə bir ruhaniyyət, təzə bir rövnəq, qiyamət gününə qədər sönməyəcək bir rövnəq və nuraniyyət verdi...

Məhəbbət nədir? Məhəbbət insanların haqq yolunda biri-birini və hər birinin də cəmiyyəti sevməsidir. İslamın əzəmətli müctehidindən olan imam Süyuti həzrətləri "İctihad"ın zikr etdiyi vəchlə deyir:





"İnsanlara məhəbbət yeganə və həqiqi" "Hübbullah"dır... (Allah sevgisi)

Bu, islamiyyətdə elə bir həqiqətdir ki, zənn edirəm, onu qraf Tolstoy cənabları Yasnaya Polyanasında eşitsə, indiyə qədər bundan gözəl bir həqiqət kəşf etmədiyindən heyrətlənib, dəli olurdu. Hər halda Tolstoyun və onun kimilərinin bu həqiqəti alqışlayacaqlarına şübhə yoxdur...

Lakin bəşəriyyət özü 13 əsr, yaxud 20 əsrdən bəri təcəlli edən bu həqiqəti alqışlayırmı?.. Heyhat!..

1907-ci miladi ili yenə bir çox əmsalı kimi al qanlar içində sona çatır!.. Ah! bu al qanlar, bu qırmızı qaranlıqlar, bu altı cəhətdən gələn "terror"alovları!.. Biz heç onlardan bəhs etmək istəməzdik, biz ancaq fikir və xəyalımızı nur, məhəbbət, gözəllik, uyğunluq, nizam aləmlərində gəzdirmək, cahanın hər tərəfində ancaq bunların əlamətlərini görmək istəyərdik. Lakin nə fayda ki, məhəbbət və şəfqətdən bir əsər buraxmayan Stolıpin üsuli-idarəsilə buna müqabil yas və qəmlər içində hökm edən terrorun nəticələri olaraq qurulan dar ağaclarının, zindanların, sürgün yerlərinin, iyrənc mənzərələri, dəhşətlə partlayan barıtın, dinamitin iyrənc sədası bizi bu cür səfalardan məhrum edir.

Biz bu cür hadisələri zikr və saymaqdan, oxucularımız isə oxumaqdan yorulduq, bezdik. Bu gurultular, bu vəhşətlər, bu qanlar artıq əsəblərimizə, həvəs və duyğularımıza təsir etmədi. Lakin nə ordu qüvvələri insanları asıb kəsməkdən, həbs etməkdən, nə də inqilab terroristləri bomba atmaqdan, "Brauninq" sıxmaqdan yorulub usanmadılar. Rusiya geniş bir ölüm meydanına çevrildi. İnsanlar məchul, mövhum ilahlara, bütlərə qurban edilirlər. Bu həftə adı çəkilən məhkəmə gündə iyirmi-otuz adam edam edəcək dərəcədə fəaliyyətinə təkan verdi. Lakin buna uyğun terror hadisələri də eyni nisbətdə çoxaldı, şiddətləndi. Hər tərəfdən ancaq bomba səsi gəlir. "Hər gün bomba partlayır" – demək azdır. Bir qəzet yazarının dediyi kimi, hər gün bombalar vəhşicəsinə rəqs edir...

Bu həftə ərzində Rusiyanın müxtəlif bölgələrində dəfələrlə baş verən terror hadisələrinin mühümlərini xatırlatmasaq olmaz.

Bu ayın doqquzunda Tver şəhərində "Quberniya zəmindarlıq məclisinin" müzakirələrində iştirak edən, dövlət şurası üzvündən qraf Aleksey Pavloviç İqnatyev "ictimai inqilab"çılar firqəsinin göndərdiyi bir cavan adam tərəfindən qətl edildi. Adı çəkilən sağ firqələrin ən fəal rəislərindən biri olub muhafizəkarlığı ilə məşhur bir şəxs idi. Ayın 15-də Omsk şəhərində Akmolla qubernatoru Litvinov kücədə gedərkən qətl olundu.

Bu qətllər hələ unudulmamış, ayın 22-də Peterburqda bu şəhərin qradonaçalnik, yəni hakimi olan Fon Derlaunes vurulub qətl edildi. Hadisə bu yolda baş vermişdir: Peterburqda tibb təcrübəsi müəssisəsi dairəsində əmrazi-cildiyyə, yəni dəri xəstəliklərinə məxsus bir şöbə inşa edilmişdi. Bunun rəsmi açılış münasibətilə adı çəkilən dairəyə qatılmış kilsədə dini ayin icra olunurdu. Burada şahzadə Oldenburqski tərəfindən dəvət edilmiş qradonaçalnik də var idi. Mərasimin sonunda kilsədən çıxıb eyvana enərkən onun üzərinə bir cavan adam hücum edərək bir neçə "Brauninq" gülləsilə vurub qətl etdikdən sonra özözünü də vurub intihar edib. Burada diqqət çəkən bir məsələ vardır ki, o da hadisənin İsa(ə) məbədi sayılan kilsə ilə Eskulap, yaxud Loğman məbədi olan darüttibb (tibb məntəqəsi) önündə baş verməsidir.

Kilsə məhəbbət, qardaşlıq və ruh saflaşması mənşəyi, tibb ocağı isə şəfqət, insaniyyət və sağlamlıq mənbəyi lazım olduğu halda, hər ikisi də zamanımızda hökmdən düşüb təsirsiz bir hala gəlmişdir. Onsuz da bu anda kilsələrin insanlığın əsas vəzifəsini unutduqları, məktəblərin, xüsusən ali məktəblərin isə həyəcan və qələyan (qaynama, coşma) mənbəyinə döndükləri görülür.

Qardaşlıq və məhəbbətdən sanki bir əsər qalmamışdır. Kilsənin qabağında insanlar bir-birlərini öldürürlər. Məktəb içində insanlar bir-birini vurur. Bu halda hara azaddır? Heç bir yer!

***Yuxarıdan bəri məqaləmizdə bir məhəbbət, bir məhəbbət rabitəsi kəlməsidir işlənir. Görəsən insanlar arasında istər Rusiyada, istər Avropada, istər İslam məmləkətlərində İsa(ə) və Muhəmməd(s)in arzu və tələb etdikləri bu məhəbbəti nə ilə və nə vasitə ilə təmin etmək olur?... O vasitəni bəşəriyyət kəşf edə bilibmi? Şübhəsiz, etmişdir. O nədir? Hürriyyət və kamil bir ədalət!..***

**Bütün bu halların səbəbi nədir, bilirsinizmi? Səbəbi həzrəti İsa(ə) ilə həzrəti Muhəmməd(s)in yüzlərcə əsrlərdən bəri bəşəriyyətə anlatdıqları qarşılıqlı məhəbbətin insanlar arasında bu gün mövcud olmamasıdır!..**

Bomba isə əsla ehtiyat və tədbir bilmir, keyfincə "rəqs edir", istədiyi kimi atılıb düşür, partlayır. Gah görə-görə, gah kor-koranə partlayır. Xarkov şəhərində vağzalda, yeni dayanacağın ortasında, Kiyev şəhərində otel içində partlayıb günahsız müsafirləri, Varşava şəhərində sobaya gətirilən xəmir içində çıxıb biçarə çörəkçini, bilmirəm harada əkin torpağını qüvvətləndirmək üçün gətirilən gübrədən çıxıb kasıb əkinçini, Tiflis kimi bir çox şəhərlərin küçələrində, meydanlarında, evlərində partlayıb heç bir şeydən xəbəri olmayan gəlib keçənləri, qonşuları tələf edir. Ancaq çox vaxt hədəf olanlar hökumət məmurları olurlar...

Bütün bu halların səbəbi nədir, bilirsinizmi? Səbəbi həzrəti İsa(ə) ilə həzrəti Muhəmməd(s)in yüzlərcə əsrlərdən bəri bəşəriyyətə anlatdıqları qarşılıqlı məhəbbətin bu gün insanlar arasında mövcud olmamasıdır!..

Rusiyada mühafizəkarlar ilə inqilabpərvərlərin, camaatla bürokratiyanın, zəngin siniflərlə, kasıb fəqirlərin arasında məhəbbət qalmamışdır. Sadə Rusiyada və xristian aləmində deyil, müsəlman aləminin bir çox yerlərində hal və keyfiyyət bu mərkəzdədir: Fas (Mərakeş) ölkəsində Rəsuli firqəsilə Molla Əbdüləziz tərəfdarlarının və Molla Əbdüləzizə müavinət bəhanəsilə Fasa yerləşmək istəyən avropalıların arasında qətiyyən məhəbbət yoxdur. Məhəbbət olmadığı üçün bu günlərdə gələn teleqrafa görə Arsilada qoşunlar arasında toqquşma gözlənilir. Sinat (Serğat?) qəsəbəsi isə top atəşinə tutulub yanır. Topun və bombaların səsi Təncə şəhərindən eşidilirmiş...

Uzaq qərbdə bu mübahisənin, bu məhəbbətsiz oyuncaqı hələ layiqincə anlaşılmadığı halda, Afrikanın bəri başında, yəni Misir ölkəsində ingilislərlə müsəlmanların arasında başlayan düşmənçiliyin məhəbbətsizlik səbəbi bir dərəcəyə qədər aşkardır. Bu da Misir əhalisi arasında vətənpərvərlik hissi və hürriyyətpərvərliyin oyanmasından ibarətdir. Misir bölgəsində "Əl-Misir lil-Misriyin" (Misir Misirlilərindin) səviyyə getdikcə avam insanlar arasında tərəqqi etməkdədir. İngilislər əleyhinə olan bu hərəkatın rəyasətində "Əl-Liva" qəzetinin sahibi Mustafa Kamil Paşa durur... "Əl-came-ətül-misriyyə" adı ilə milli bir universitet inşa edib, bu bina üçün 7435 lirə toplamaları misirlilərin oyanmasına dəlalət edər...

Misirdən Hindistana keçsək, burada vəziyyətin bir az başqa cür olduğunu görürük. Burada müsəlmanlar bir dərəcəyə qədər bitərəflik göstərdikləri halda, əksinə, ingilislərlə yerli qeyri-müsəlmanlar arasında məhəbbətsizliyin, düşmənçiliyin gündən-günə şiddətlənməsi görünür. Budda və Brəhmən məzhəbində olan hindular ictimai vəziyyəti, siyasəti və milliyyətlərini islah etmək üçün Kəlküttə şəhərində böyük bir konqres təşkil edib ingilislərin əleyhinə olan fikirlər və hisslərini aşkar bir surətdə bəyan etməkdədirlər. Bu da tərəqqiləri ilə yapon mədəniyyətinin təsiri nəticəsində əmələ gəlir. Bu hərəkətin Mustafa Kamil Paşası Nabxayi Naurici adlı bir hindu olub konqresdə ingilis əleyhinə son dərəcə atəşli nitqlər söyləmişdir...

Hindin qeyri-müsəlmanları hürriyyət və tərəqqiyə doğru belə addımlar atmaqda ikən hər nədənsə bu vaxtlar Hindin 70 milyon əhalidən ibarət müsəlmanları qonşularının əleyhinə olaraq ingilislərə zidd deyil, bir meyl və məhəbbət göstərmək istəyirlər... Bu niyyətlə benqalalıların Kəlküttədəki konqreslərinə qarşı Hindistanın böyük mərkəzlərindən birində, ehtimal ki, Laknau şəhərində bir müsəlman konqresi tərtib etmək üzrədirlər. Deməli, bu qitədə belə ixtilaf və məhəbbətsizlik hökm sürür. Ancaq bu məhəbbətsizlik ingilislə müsəlman arasında olmayıb, "müsəlmanla məcus" və "məcus ilə ingilis" arasındadır... Dağınıq və pərakəndə olan müsəlmanların halı ötədə-beridə bu yolda ikən bu xalqın mənəvi rəisi sayılan şəxs, görəsən, nə ilə məşğuldur? Bunu bilmək istəyən "Molla Nəsrəddin" jurnalında Fas səltənətinin halını təsvir edən bir rəsmi müraciət edə bilir...

Lakin orada təbəssümdən başqa bir şey görməzsiniz. Halbuki adı çəkilənin işi çoxdur: tərəqqiyə xidmət edənlərə və ümumiyyətlə əhaliyə nəfəs aldırmır, almanlara tənəffüz üçün bol-bol imtiyaz yerləri göstərir.

Milli məclis qapılarına yeni-yeni kilidlər vurur. Və səltənət taxtını da haqqı olmayan, ancaq bürokratlara bir çox haqq verəcək bir cavan üçün hazırlamağa çalışır... Hər halda bu qədər məşğuliyyətlə bərabər bütün məmləkətində camaatla hökuməti bir-birinə bağlayan məhəbbət rabitəsi mövcud deyil.

Yuxarıdan bəri məqaləmizdə bir məhəbbət, bir məhəbbət rabitəsi kəlməsidir işlənir. Görəsən insanlar arasında istər Rusiyada, istər Avropada, istər İslam məmləkətlərində İsa(ə) və Muhəmməd(s)in arzu və tələb etdikləri bu məhəbbəti nə ilə və nə vasitə ilə təmin etmək olur?... O vasitəni bəşəriyyət kəşf edə bilibmi? Şübhəsiz, etmişdir. O nədir? Hürriyyət və kamil bir ədalət!..

Bunu Ərdəbil şəhərinin "nemət"ləri ilə "heydəri"ləri hələ anlamayıb bir-birlərinə qarşı mənasız və cahilanə bir ədavət aparmaqda davam edirlərsə də, lakin məmnuniyyətlə bütün İran hökuməti ilə əhalisi anlamışdır. Anladıqları üçün hürriyyət və ədalətin müqəddəs yollarını təmin etmək üçün milli məclisi açdılar. Bu son günlərdə Tehrandan gələn teleqraflar olduqca təsəllivericidir. Həqiqətən şah həzrətlərinin xəstəlikləri davam edir. Bununla belə şah, vəliəhdi Məhəmmədəli Mirzə ilə bərabər əsas qanunu qəti surətdə imzaladılar. Bu münasibətlə Tehranda atəşfəşanlıq oldu. Bundan başqa, vəliəhd həzrətləri milli məclisi iki ilə qədər tətil etməyəcəyini qəti surətdə öhtəçiliyə götürüb, o yolda bir əhdnaməyə imza atmışdır. Ancaq bu müddət keçdikdən sonra məclisin tənzimlədiyi qanun layihəsi senat tərəfindən iki dəfə rədd olunursa, şah milli məclis üzvlərini dəyişmək üçün məclisi dağıda bilər. Doğrusu əvvəlcə haqqında gəzən şayələrə rəğmən İran vəliəhdi əsas qanuni və yeni islahatlara tərəfdar olub bu xüsusdakı fikirlərini milli məclis üzvlərinə söylədiyi bir nitqdə bəyan etdi. İndiyə qədər milli məclis üzvlərinin səyi ilə bir çox faydalı qayda və qanunlar əmələ gəldi. Bu qanunlara görə, milli məclis maliyyə büdcəsinə kontrol haqqına malik olur. Milli məclisin icazəsi olmadan dövlət nə bir tərəfdən pul istiqraz edə bilir, nə də dəmir yol çəkmək üçün kimsəyə bir imtiyaz verə bilir. Nazirlər məsul tutulur, istənilən suallara cavab verməyə məcburdurlar. Məclisin bilavasitə şaha ərizə təqdim etməyə haqqı vardır. Bir də milli məclis üzvlərinin anda sədaqətləri hökumətin konstitusiyasına riayətinə qədərdir.

İran konstitusiyası ümumi heyəti etibarilə, ehtimal ki, konstitusiyasına oxşar olacaq. Milli məclisin üzvləri 162 nəfərdən ibarət olacaq. Milli məclisin razı olmadığı bir məsələ varsa da, o da hökumətin, milli məclisdən başqa, bir də məclisi-əyan adı ilə ikinci məclis təsis etmək istəməsidir. Adı çəkilən bir rəvayətə görə, yarısı seçki, yarısı da şah tərəfindən təyin olunan üzvlərdən ibarət olacaq.

Hər halda isə İranda hürriyyət və ədalətə doğru böyük təşəbbüslər görünür ki, etiqadımızla insanlar arasında ahəng və məhəbbəti təmin edəcək vasitələr başlıca bu iki nemətdən ibarətdir.

Fəxri-kainat(s) əfəndimiz buyurmuşdur ki, küfr zəlalətində olan bir məmləkət ədalət ilə baqi qalacağı kimi, ədalət olmayan bir ölkə islam adını daşısada baqi olmaz... Ədalət olursa, hürriyyət də olur, hürriyyət olursa, məhəbbət və sevgi də olur. Həzrəti İsa(ə)ın da, həzrəti Muhəmməd(s)in da şəriət və qanunları bu həqiqətə söykənir. Bəli, yeni ictimai mücahidlərimizində məqsədi bu həqiqətdir. Hətta bu axır zamanda zühur edən bizim balaca Mehdinin böyük "Təkamülü"də bu həqiqəti öyrətməyə çalışmaqdadır.

İnşallah, müvəffəq olur...

24 Dekabr.

1906, №6

# YENİ NƏSİL

Abdullah Gənc

## Getdiyin yolun aydın, ümidlərin çin, əzmin yenilməz olsun!..



Ölkəmizin ən ucqar sərhədində əlində silah Vətən keşiyində dayanan gənc əsgər...

Elmin dərinliklərində tədqiqat aparan, dinamikliyi ilə xəzinələrə yönələn elm əhli gənc...

Fitnələrin, xaosların millətə toxunmasına qalxan olan gənc...

Yaşlı nəsillərlə gələcək nəsil arasında körpülərə çevrilən gənc...

Ətrafdakı qorxunc oyunların təsirlərinə düşməyən, xalqının gözlərinə səmimiyyətlə baxmağı bacaran gənc...

Yol sənindir. Əslində yol bəllidir, sənə çox yaxın və əzizdir. Çünki bu yolda sevdiklərin müsafir olmuş, yolu canları və qanlarıyla qorumuşdur. Sən də dostlarla çiyin-çiyinə, əl-ələ, könül-könülə buradan keçməlisən. Əcdadın miras qoyduqlarına varis olmaq şərəfi bu gün sənin şəxsində Vətən oğullarına aiddir. Barıt qoxuyan səngərdə düşmən canına vəlvələ salan, dünyanın hər cür hiylələrini təhlil edib elmlə silahlanan, ayaqlarının altındakı sərvəti qoruyan, Azərbaycan deyilən Vətənin sahibi sənsən, sən!..

Sərhəd, səndə möhlət yox, elm, səndə cəhalət yox, mərhəmət, səndə nifrət yox, nur, səndə xəyanət yox, öp millətin qocaman əllərindən, çünki səndə riyakarlıq yox ...

Könül zəminin torpaqları təmiz, beyin fakültələrin fəal, yuxarıları düşünən, üfüqlərə can atan qardaşım sənsən. Bacı dedin bu yolda sənə yardım edən millətinin qızına gəlininə, namusunu namusun bildin. Belə də olmalıdır. Aldığın tərbiyə, götürdüyün yük, ətrafdakı səmimiyyət, yanındakı ruh insanları və hədəfin əksini düşündürməz sənə. Sən var ikən torpaq basılmaz. Şəhadətiylə bayrağına qızılgülün rəngini verən şəhidlərin gözü yolda qalmaz. Onlar ülvüləşdi, zamanları qabaqladı, sarsılmadılar. Dünyada ikən cənnətini qazandı həm xalqın, həm də Allahın rizasını qazandılar. Yolun yolçusu, qoruyucusu, varislik sənin çiyinlərin üzərində davam edəcək. Düşmənin çox, ömrün qısa, gecələrin qədər gündüzün, gedəcəyin qədər gücün var. Dağlardan sənə arxa olmaz, çünki başı yox, səmalar sənə yardım etməz, çünki içi boş, günəşə də güvənmə, o da ya qürub edər, ya da üzünü qaraldar. Səni nə mədən, nə də ki cibin maraqlandırmır. Hər ikisinin boş olması belə səni üzməz. Təki ruhun və vicdanın boş olmasın. Bütün boşluqlar sevginlə, ixlasınla dolacaq, arxanda Azərbaycan deyilən böyük bir xalq dayanacaq. Sənə güvənən, başından bir tük əskikliyinə könlü razı olmayan, xidmətində qüsur göstərməyən Azərbaycan xalqı...

Allahın amanında ol! Ağacların qol-budağı doğrandığı kimi, əlləri-ayaqları budanan, amma bayrağını yerə atmayan səngərlərini boş qoymayan soyunun maddi-mənəvi vərasətini gözlərini qoruduğundan artıq qoru. Qoru ki, kainatı çarx kimi dolandıran Allah məmləkətinə dayaq olsun. Qoruyan Yaradan, yaşadan Odur. O, səmimiləri arxasız, yurdsuz, başsız, yolsuz, nemətsiz buraxmaz. İstiqbalın məchul qələm sahibləri yazacaq, mənhus, yalan dilləri lal, xain gözləri kor edəcəkdir. Sənə yeridiyin yolda mane olmaq istəyənlər ayaqlarına dolaşsalar da, onlar toza-torpağa qarışacaqlar. Hər ayaq basdığın yerdə qəhrəman qəbri, alim nəfəsi, mücahid duası və Allah yardımı var. Təmsil etdiyin millət səsini dünyaya bütün qəlbiylə söyləyəcək, yeni tarixlər yazdırmağa müvəffəq olacaqdır. Getdiyin yolun aydın, ümidlərin çin, əzmin yenilməz olsun!

**Dünənindən bu gününü təhvil alan, bu günündən sabahlara baxan gözlər.**

**Keçmişin qeyrətini gələcəyin şücaətinə qatan gözlər.**

**Zərrə deyiləm! Zərrə deyiləm! – deyib, aləmlərə baxan gözlər.**



# MİLLİ MƏDƏNİYYƏTİMİZİN BÖYÜK ABİDƏSİ

*Əvvəli ötən sayımızda*

*f.e.n. O.Bayramlı*

Beləliklə, türkçülük ideologiyasının banisi olan Ə.Hüseynzadə eyni zamanda həmin ideologiyanın nəzəri təməl prinsiplərinin də yaradıcısı olur və türkçülüyü tez bir zamanda kamil ideologiya səviyyəsinə çatdırır.

Milli, islami, ümumbəşəri dəyərlərə söykənən, əsrin mühüm şüarına çevrilən bu "üçlü qayə" o zaman təkcə azəri türklərinin deyil, bütün türk xalqlarının milli şüurunun inkişafında böyük rol oynayır.

Görkəmli türkçü alim Ə.Cəfəroğlunun dediyi kimi: "Bu ixtiyar və imanlı türkçü, bu üçlü məramla milli istiqlalın fikri mücadiləsinin "Ana Yasası"nı meydana qoymuşdur.

Türkləşmək məramı özünü ilk növbədə milliözünüdərk sahəsində irəliləyişdə göstərir. Bu məram türk xalqlarının kimliyə olan ehtiyacından, milli özünüqoruma instinktindən yaranmışdır.

O zaman türk xalqlarına "türk" olduğunu sübut etmədən, onları bir yerə toplamaq, milli əsarətə qarşı mübarizəyə qaldırmaq qeyri-mümkün idi. "Tatar", "müsəlman", "osmanlı", "azərbaycanlı" adlarının şüurlara hakim kəsildiyi, "türk" adının dilə gətirilmədiyi bir dövrdə Ə.Hüseynzadə tarixi cavabdehliyi öhdəsinə çəkərək əsrin "Biz kimik"-həyəcan səsinə "...əvvəl əmrdə özümüzü tanımalıyıq"- deyə cavab verərək yazırdı ki: "O tayfa, o millət təriqi-fəlah və nicatda olur ki, özünü tanıya. Yəni hər qövm və millət öz qövmiyyətinə, lisanına, dininə, tarixinə, adət və əxlaqına vəlhasil özünün bütün əhvali-maziyyə və hazirəsinə, hətta əhvali-atiyyəsinə kəsbi-vüquf eyləməlidir" – sözlərilə türk xalqlarının fikir tarixinə ilk dəfə milliözünüdərk problemini gətirir. Türkün kimliyini bərpa etməyi və onu qorumağı türk xalqlarının təxirəsalınmaz vəzifəsinə çevirərək yazırdı ki: "Bu məsələ qayət mühümdür. Bu məsələ ilə bu gün deyil, bir neçə əsr əvvəldən bəri iştiğal etmək lazım idi. Keçmişdə əhəmiyyət verilməmiş məsələni gələcəyə, uzaq gələcəyə tərk etməyib heç olmazsa indi ələ almalıyıq. Türklüklə iftixar etdikləri halda türkün kim və kimlərdən ibarət bulunduğunu bilməyən nə qədər türk mühərrirlərimiz vardır. Ona görə bütün bu dolaşıqlıqların səbəbi türk millətləri arasında çaşqınlıq, dağınıqlıq yaratmaq, onları öz türk mənşəyindən, türk soyundan azdırmaqdır. Bu xalqları necə çağırmaq lazımdır? - sualına Ə.Hüseynzadə cavab verir ki, birimizə özbək, birimizə qırğız, birimizə tatar deməklə heç bir fayda əldə etmək olmaz.

Amerika alimi Tadeuş Sviyataxovski yazırdı ki: "XX əsrin əvvəllərində türk xalqlarına kimliyini bildirən bir nəfər var idi. O da Ə.Hüseynzadə idi".

Həqiqətən, ilk dəfə Ə.Hüseynzadə türk xalqlarına milli özünüdərk məramı ilə dil, soy, kültür bağlarını tanıdaraq onları oyatmaq, hərəkətə gətirmək, onlara qüdrətli millət olduğuna inandırmaq üçün şanlı tarixlərini, şərəfli keçmişlərini yada salır.

Elm və bilik sahəsində çox böyük xidmətləri olan istedadlı, zəki alim və şairlərin-Uluğbəylərin, Farabilərin, Mollayi-Rumilərin, Ə.Nəvailərin, Füzulilərin, Kamalların, Hamidlərin adlarını qürurla çəkir və yazırdı ki: "Tariximiz və keçmişimizdəki əkabiri-milliyyəmiz haqqında həqiqəti meydana çıxarmaq üçün əvvəl-əmrdə özümüz tanımalıyız. Yəni türklərin kim olduqlarını və kimlərdən ibarət bulunduqlarını, nərədən nəşət etdiklərini, neçə şöbəyə ayrıldıqlarını, bu gün nərədə sakin olduqlarını və nə namlar altında yaşadıqlarını ...göstərməliyik, içimizdə özbəklərin, qırğızların, başqırdların türk olduqlarını bilməyənlər də var".

Bu məqalələr içərisində Ə.Hüseynzadənin təkcə "Türklər kimdir və kimlərdən ibarətdir?" geniş həcmli əsəri türk xalqlarında millət olmaq fikrinin daha qüvvətli və şüurlu şəkildə oyanması baxımdan əlamətdar hadisədir.

Ə.Hüseynzadə tərəqqi proqramına türkləşmək məramı ilə yanaşı, "zihəyat bir millət olmaq istərsək, bizə hər şeydən əqdəm islam bulunmaq, islam qalmaq" kimi islamlaşmaq məramını da daxil etmişdir. İslamlaşmaq onun milli tərəqqi proqramının ideya-nəzəri əsaslarından biridir. Bunu əldə bayraq edən bəzi rəqib millətlər türklərin "islamlaşmaq" şüarını "panislamizm" məramı kimi qələmə verirdilər. Halbuki həmin çağırışlar öz məzmunu və xarakterilə Avropanın və çarizmin hay-küy qopardıqları "panislamizm"dən fərqli idi. Ə.Hüseynzadədə islamlaşmaq türk və müsəlman xalqlarının kimliyini təmin edən faktordur.

O, bu məramında türkçülüyü, yəni millətçiliyi islamçılıqdan ayırmamışdır. Bəzi tədqiqatçılar islamçılığı gözdən salmağa çalışaraq yazırdılar ki, guya türkçülər islamlaşmağın "əsassız konsepsiya olduğunu bilib ondan əl çəkmişdilər". Lakin türkçülər nəinki islamçılıqdan əl çəkməmişdilər. Əksinə, Ə.Hüseynzadə müsəlman özünüdərkindən ayrılaraq, milliözünüdərkə keçərkən türkçülük məramında "Bizə islamdan kənar nicat yoxdur". mövqeyindən çıxış edərək yazırdı ki: "Bunu mazidə bütpərəst, ya atəşpərəst olan əcdadımız idrak etdikləri üçün dini islamın qəbul və nəşrilə müşərrəf olmuşlar". - deyə islam dininin türk millətinin təşəkkülü üçün təsirli faktorlardan biri sayırdı. Ə.Hüseynzadəyə görə, cürbəcür məzhəb və dinlər türkləri bir-birindən ayıraraq, onların elm və mədəniyyətini tənəzzülə uğratdığı halda, türklər yalnız "dini islam ilə mütədəyyin, ərəb elmi ilə mütəəllim, ərəb mədəniyyətilə mütəməddin olduqları halda əsla ərəbləşməyib, yenə "türk oğlu türk" qalmalarıdır. Öz türk mədəniyyətini, türk dilini, tarixini və ədəbiyyatını mühafizə edib qorudular, inkişaf etdirdilər. Yalnız islam dini türklər arasında yayıldıqdan sonra bu din onların lisanına, ədəbiyyat və əxlaqi-adətlərinə əzim bir təbəddül vücuda gətirmişdir".

Ə.Hüseynzadə islama ehkam kimi də yanaşmayırdı; milli intibahla yanaşı, dini intibahı da əsas götürürdü. Əgər türkləşmək məramı ilə türk dilini, türk tarixini, türk ədəbiyyatını öyrənməyi tələb edirdisə, islamlaşmaq məramı ilə də xristrianlıq (ortodoks) dini doktrinanın dirçəldilməsini deyil, əksinə, islam dininin ümumbəşəri, ali, mənəvi-əxlaqi dəyərlərinin öyrənilməsini istəyirdi. Bu baxımdan islamlaşmaq onun milli tərəqqi proqramının əsas məramlarından idi.

Ə.Hüseynzadə dində islahat dedikdə islamı dəyişmək yox, daha qüvvətlə irəliyə getmək üçün, geriyə-islama qayıtmağı tələb edirdi. Əks təqdirdə əsl dini həqiqətləri və hikmətləri ortaya çıxarmaq, bərpa etmək və islamı müasir elm və tərəqqiyə xidmət edən vasitəyə çevirmək mümkün olmayacaqdır. Ona görə, yalnız bu cür islahat həm islamın əsl mahiyyətini örtən üst qatlardan təmizləyəcək, təhriflərdən, müxtəlif yersiz şərhlərdən xilas edəcək, həm də "bizim hər şeydən əqdəm hikməti islamiyyəni öyrənməyimizə və bu hikmətdən feyziyab olmamıza, onun nuru ilə işıqlanmağımıza çəpər olan maneələri rəf etməyimizə kömək edəcəkdir".

Avropalaşmaq – Ə.Hüseynzadənin milli tərəqqi proqramının əsas məramlarından biridir.

Avropalaşmaqla Avropa elm və texnikasının yeni nailiyyətlərini öyrənməklə milli mədəniyyəti, yəni türk-islam mədəniyyətini yaşatmaq istəyirdi. "O, avropalaşmağı öz millətinə xor baxmaqda, kafirləşməkdə deyil, Avropa elm və texnikasının nailiyyətlərini öyrənib, öz elm və mədəniyyətlərini inkişaf etdirməkdə görürdü". Onun bu mövqeyi Qərb və Şərq mədəniyyətlərinin sintezinin yeni mərhələsi idi. Yəni o, türk-islam mənəviyyatını ilk dəfə olaraq Şərq-Qərb kontekstində birləşdirir".

O, avropalaşmaq məramına qərb mədəniyyətinin, texnikasının nailiyyətlərini, üstünlüklərini öyrənmək, tərəqqi etmək mövqeyindən yanaşırdı və yazırdı: "Tərəqqi və təməddün həvəsində olan hər bir millət öz milli üdəba və üləmasının əsərlərilə kifayətləndikcə çox da irəri gedə bilməz, mütləq sair millətlərdən geri qalar. Geri qalmamaq üçün və meydani tərəqqidə həqqilə rəqabətə qadir olmaq üçün hər bir millət sair miləl və əqvam arasında yetişən ümumbəşəriyyətə xidmət edən cəmi üləmanın asarından hissəmendi-füyuzat ola bilməlidir. Zatən bəşəriyyət qüvayi-müttəfiqə ilə çalışıb irəli getməkdədir. Bir ingilis, bir fransız, bir alman, bir italyan İbn Rüşdün, Əbu Əli Sinanın, Farabinin, Firdovsinin, Sədinin, Mollayi-Ruminin, İmam Qəzalinin əsərindən feyziyab olmağa, bu kibi üləmayi – tərcümə, şərh və təfsirlər vasitəsilə öz millətlərinə mal edin-

məyə çalışdıqları halda, bizə də lazımdır ki, anların Laplasları, Lavuaziyeləri, Russoları, Pastorları, Nyutonları, Spenserləri, Edissonları, Rentgenləri, Marksları, Höteləri vasitəsilə öz maarifimizi, öz ana dilimizdə olan kitabxanamızı təzyidə çalışalım. Cəhalətin, təəssübün kökünü ancaq bu vasitə ilə qurutmaq, söküb atmaq olar. Başqa yol yoxdur. Lakin Ə.Hüseynzadə avropalaşmaq dedikdə müasirlərinin ehtiyatlı olmağa çağıraraq, Avropadan əsən bütün yelləri, hətta zəhərli yelləri şəfabəxş adlandıran materializmi, sosializmi, ateizmin mahiyyətlərinə agah olmadan bu fəlsəfi təriqətləri yaymağa çalışan özümüzünküləri də ciddi tənqid edirdi.

Qərb dövlətlərinin türk xalqlarına qarşı apardıqları qəsbkarlıq və iqtisadi-siyasi təzyiqinə işğalçılıq siyasətinə qarşı o avropalaşmağı... Avropaya müqavimətin üsulu, forması sayırdı.

Ə.Hüseynzadə onu "avropalaşalım" şüarında günahlandıranlara cavab verərək yazırdı ki: "İndi bizə derlər ki, madam ingilislər, firənglər, filanlar böylə imişlər nə üçün siz də... "Füyuzat"ınızda ingilislərə, firənglərə müraciət ediyorsunuz. Ortaya gah Getenin "Faust"unu, gah Şekspirin "Yuli Sezar"ını, gah nə bilim hanki avropalının hankı əsərini çıxarıyorsunuz? "Avropalışalım, firəngləşəlim" – diyorsunuz? Lakin ey qare! Müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə kəşfiyyat və ixtiraatlarına müraciət etmək istiyoruz, özlərinə deyil. Biz istəyoruz ki, islam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəyoriz ki, ölkəmiz onların beyinlərini həzm etsin. Yoxsa, mədələrində həzm olunmasın. Bu gün onların mədələrində həzm olunmamaq üçün bir çarə varsa, o da onların dimağlarının məhsulati-dəmağiyyələrini alıb həzm etməkdən başqa bir şey deyildir".

> ***"İndi bizə derlər ki, madam ingilislər, firənglər, flanlar böylə imişlər nə üçün siz də... "Füyuzat"ınızda ingilislərə, firənglərə müraciət ediyorsunuz. Ortaya gah Getenin "Faust"unu, gah Şekspirin "Yuli Sezar"ını, gah nə bilim hanki avropalının hankı əsərini çıxarıyorsunuz? Avropalışalım, firəngləşəlim diyorsunuz? Lakin ey qare! Müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə kəşfiyyat və ixtiraatlarına müraciət etmək istəyoruz, özlərinə deyil. Biz istəyoruz ki, islam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəyoriz ki, ölkəmiz onların beyinlərini həzm etsin. Yoxsa, mədələrində həzm olunmasın.***

Türkün tərəqqisinin, onun azadlığının, milli istiqlalının təməlini bu "üç qayəli" nicat yolunda görən Ə.Hüseynzadə məhz bu məramın aparıcı olduğunu iddia edərək, "Həyat" qəzetindən sonra, bu düsturu həm nəzəri, həm də tətbiqi baxımdan işləyib hazırlayır. "Fədai lazımdır, fədai!"-deyə XX əsrin fədaisini "türk hissiyatı ilə mütəhəssis, islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin" kimi görmək üçün bu məramı tez bir zamanda "Füyuzat" (1906-1907) məcmuəsinin "tutduğu yolunun" əsas şüarına çevirərək, onu qısaca "Türkləşmək, islamlaşmaq və avropalaşmaq" şəkildə formalaşdırır.

Tərəqqi proqramında "ittihad" məramı. Ə.Hüseynzadəyə görə, "tərəqqidə təkcə təkamül yolu ilə məsələ həll olunmuyor", əsas məsələ "ittihada doğru tərəqqi"dir.

Ə.Hüseynzadə türk xalqlarını rus inqilabının silahlı mübarizə yolundan təkamül yoluna çəkdiyi kimi, eyni zamanda bu inqilabın sinfi mübarizə məramından da uzaqlaşdırmağa çalışmışdır. Lakin bu o demək deyildir ki, Ə.Hüseynzadəni sinfi mübarizə problemi maraqlandırmırdı. Əksinə, sinfi ziddiyyətlərə qarşı mübarizə onun milli istiqlal bəyannaməsinin ilk bəndidir. "Məzlum olan sinifləri zalım siniflərin təcavüzatından azad etməyə çalışınız, müsavati-tammə istəyiniz. Yersiz, yurdsuz əkinçilərimizə yer, torpaq tələb ediniz! Füqərayi-kasibəmizin şəraiti-təəyyüşünü təshihə çalışınız!"

Göründüyü kimi, sinfi ziddiyyətlər məsələsində də ədibin mövqeyi aydın idi. O, ictimai həyatdakı bu ziddiyyətləri görür, onların əleyhinə çıxır, onları məhv etməyə çağırırdı. Lakin Əli bəy çarizmlə mübarizədə milli məsələyə daha çox əhəmiyyət verirdi. O, türk xalqlarının diqqətini ətrafda baş verən "erməni-müsəlman müqatiləsi, yəhudi-rus qitalı, gürcü-əsgər qırğını, inquş-kazak faciəsi" və ilax. hadisələr bütün bunlar mütləqiyyət hökumətinin azadlıq uğrunda döyüşən xalqlara qarşı mübarizə meydanında işlətdikləri vəsaiti mübarizələrdən biridir... bunları bilməliyik, aldanmamalıyıq"-deyə onları milli ittihad uğrunda mübarizə yoluna çəkərək yazırdı: "Zatən inqilabdan məqsəd nədir? Nicat yolu aramaq deyilmidir? Nicat yollarından biri də ittihadda olduğuna şübhəmi var?"





Deməli, Ə.Hüseynzadədə "tərəqqi" məramı ittihad səciyyəlidir.

Ə.Hüseynzadə əsl məsələ "İttihad, yaxud tovhid məsələsi deyil"-deyə özünün türkçülük siyasətinin mahiyyətini şərh edərək yazır: "Türklügün nədən ibarət olduğunu tamamilə bilməyirsiniz... Türkçülük millətini sevmək, yüksəltmək deməkdir". Bir millətin qüvvəti müxtəlif türk tayfaları arasında mənəvi bağlılığın artmasındadır. Bu məsələdə isə "əsas işimiz dil, din birliyini qorumağın vacibliyini bilməkdir. Çünki yalnız bu yolla türklər harada yaşayırsa yaşasın bir-birini tanıyacaq, sevəcəkdir". Mədəniləşmə və tərəqqi yolunda bir-birinə kömək edəcəkdir".

"Ə.Hüseynzadə müsəlman türkləri arasında ilk turanlıdır, yəni panturanistdir" - Y.Akçuraoğlu onun turançılığının mahiyyətini şərh edərkən yazırdı: "Onun turançılığı "şairanə turançılıq" idi". Bu doğrudur, lakin bu o demək deyildir ki, Ə.Hüseynzadənin turançılıq ideologiyası siyasi məramlardan uzaq idi. Onun ideologiyasının siyasi mahiyyətindən danışan M.Ə.Rəsulzadə yazırdı ki: "Turançılıq türk xalqlarının öz müstəqilliyi uğrunda, milli müqəddəratının təyini və təsdiqi uğrunda mütərəqqi ideologiyadır. Bu ideologiya Rusiya imperializminə "Vahid bölünməz Rusiyaya" qarşı qoyulmuşdur".

Ə.Hüseynzadənin turançılığında ilk vəzifə millətini əsarətdən xilas etmək, ölkəsinin milli müstəqilliyini təmin etmək idi. Sonrakı mərhələdə isə türk dövlətlərinin kültür birliyini, daha uzaq strateji baxış etibarilə iqtisadi və siyasi qarşılıqlı əlaqələrinin yaradılması və inkişaf etdirilməsidir. Bu məram Ə.Hüseynzadənin turançılıq ideologiyasının məğzi idi.

Ə.Hüseynzadə bu yolu "səadət yolu" adlandıraraq, yazırdı ki: "Bizim zəmanəmizdə hər bir millət yalnız fiziki deyil, həm də mənəvi mənada qüvvətli olmağa can atır. Çünki xoşbəxtliyin, səadətin yeganə əsası qüvvətdir (yəni "ittihad"dır). Bu isə biliksiz, vəsaitsiz (yəni dilsiz), yüksək əxlaqi səviyyəsiz (dinsiz) və bir-birinə məhəbbətsiz mümkün deyildir."

Odur ki, ittihadda əsas məqsəd dil, din birliyini qorumaqdır. Onun qənaətincə, dil, din birliyi olmadan milli ayrılıqlar, dini çəkişmələr üzündən türk ittihadına, bu böyük işə başlamaq olmaz.

Tərəqqi proqramında hürriyyət məramı. Hürriyyət məramı Ə.Hüseynzadənin "İttihada doğru Tərəqqi" proqramında "Maarif" və "İttihad" məramlarından sonra üçüncü yerdə dayanır. Çünki maarif, ittihad məramları hürriyyətin qələbəsinə hazırlıq məramlarıdır.

Ə.Hüseynzadənin hürriyyət mövzusu həm milli, həm də ümumbəşəri səciyyə daşıyırdı.

O yazırdı: "Biz Qafqaz müsəlmanlarına da yersiz, yurdsuz qalan, əsarət bəlasına düçar olan biz müsəlmanlara da "yer və azadlıq" lazımdır. Yer, yəni əkin və ziraət yeri lazımdır. Azadlıq, yəni müsəlman və türk cəmaətinin külliyyat etibarilə öz tərəqqi və səadəti üçün hər növ vasitə hürr və sərbəst müraciət edə bilmək üçün azadlıq lazımdır".

"Yer və azadlıq" fəlsəfəsi Ə.Hüseynzadənin ictimai, siyasi görüşlərinin əsas mahiyyətidir. Hər iki amal (maddi və mənəvi) onun yaradıcılığında vəhdətdə verilmişdir.

Ümumiyyətlə, Ə.Hüseynzadə iqtisadi məsələni siyasi məsələdən ayırmırdı. İqtisadi azadlıq və siyasi azadlıq uğrunda mübarizə eyni mübarizənin iki cəhətidir. O, iqtisadiyyatı tərəqqinin ən mühüm amili hesab etdiyindən, iqtisadi problem milli-istiqlal bəyannaməsində ön planda verilmişdir. Ona görə iqtisadi inkişafsız nə millət tərəqqi edə bilər, nə dövlət yarana bilər. Onun fikrincə, siyasi istiqlaliyyət yalnız hər bir millətin iqtisadi cəhətdən də müstəqil olması şəraitdə mümkündür. Xalqın məhrumiyyət və əsarətinin başlıca səbəbinin iqtisadi məsələdə görürdü. Çünki müsəlman ölkələrində iqtisadiyyatın zəifliyi ölkələrinin rus və Avropa müstəmləkəçiləri tərəfindən işğalına şərait yaratmışdır. Onun qənaətinə görə, hər bir millətin siyasi cəhətdən istiqlaliyyət qazanması heç də o demək deyildir ki, həmin millət habelə iqtisadi istiqlaliyyət əldə edər. Onun fikrincə: "İqtisadi məsələ hətta beynəlxalq münasibətlərdə elə böyük həlledici bir qüvvədir ki, hətta siyasi cəhətdən tamamilə müstəqil olan dövlətləri özünə tabe edə bilər. İnsanları bir-birinə qovğa və müharibələrə sövq edən qüvvət nə millət, nə milliyyət qeyrəti, din və məzhəb təəssübü, hökumət və səltənətə sahib olmaq arzusu deyildir... Bütün bunların hamısı bəhanədir. Bəhanə diyoruz, çünki həqiqət halda yeganə səbəb iqtisadi mənafe, sadə sözlə desək, əkmək (çörək) davasıdır... Əkmək bir həqdir ki, insanlara səy və əməkləri nisbətində qismət olmalıdır. Bu gün Rusiya əhalisinin inqilabi "yer və hürriyyət" ilə müzəyyəndir. Yer, yəni əkmək, hürriyyət, yəni o əkməyi qazanmağa müsaid şəraiti-ictimaiyyə və siyasiyyə!".

"Para, əkmək olmasaydı, bütün bəşəriyyətin nifrətinə səbəb olan o qan sellər axmazdı, quruyardı".

Ə.Hüseynzadənin hürriyyətə çağırışında siyasi amallar mühüm yer tuturdu.

*Ardı gələn sayımızda...*

# Dövrün Səciyyəsi

BDU-nun professoru, əməkdar elm xadimi Şahlar Əsgərov
ashahlar@hotmail.com

## Əqli və fiziki güc

Allah-taala tərəfindən insanlara verilən bu iki potensialdan səmərəli istifadə edilsə, həyatda bir cox şeylərə nail olmaq olar.

Maddi varlıqla intellektual varlığın fərqi böyükdür. Maddi varlıq istifadə edildiyindən o, tükənir. İntellektual varlığı istifadə etdikcə isə o, coxalır. B.Şou bir sözündə belə deyir: "Əgər sənin və mənim hər birimizdə bir alma varsa, biz onları dəyişsək, yenə hərəmizdə bir alma qalacaq. Əgər hərəmizdə bir ideya varsa, ideyalarımızı dəyişməklə hər birimizdə iki ideya olacaq".

V.Məmmədəliyevin 70-illik yubleyində bir akademik ona kompüter yox, qılınc bağışladı. Öz-özlüyümdə mən təssüfləndim, çünki indi dünya problemlərinin çoxu güc yox, ağıl müstəvisi üzərində həll edilir. Çünki qılınc geriyə, kompüter irəliyə baxma deməkdir. Ziyalılarımızın fəaliyyətində ağılın yox, hissiyyatın təsiri daha çox duyulur. Bədii təfəkkür elmi təfəkkürü zorlayır. Çağdaş şairlərimizin qəlbinə minlərlə qaçqın və məcburi köçkünlərin (kütlənin) acınacaqlı taleyi yox, ayrı-ayrı qız-gəlinin, gözəlin, gülün-çiçəyin gözəllikləri yol tapır. Gündəlik və ya həftəlik çağdaş KİV-ləri izləsək, dediklərimin dövrümüz üçün də həqiqət olduğuna inanarıq. Zaman fiziki potensialı əridir, əqli potensialı gücləndirir.



## Düzgün qərar qəbul etmək sənəti

**"Sizin istənilən hølliniz səhvdir".**

*Eduard Dalberqin*

Fikrimi söyləməmişdən əvvəl Molla Nəsrəddinin bir məşhur lətifəsini yada salmaq istəyirəm:

Günlərin birində Molla Nəsrəddin oğlu ilə səfərə çıxır. Molla uşağı eşşəyə mindirir, özü isə piyada gedir. Qarşıdan gələn bir dəstə adam gileylənir: "Bu da indiki cavanlar. Heç böyüyə hörmət etmirlər. O boyda sağlam cavan eşşəyə minib, yazıq qoca isə piyada gedir".

Bu sözdən utanan uşaq eşşəkdən düşür, molla isə, əksinə, eşşəyə minir. Qarşıdan gələn başqa bir dəstə deyir: "Bunlara bir baxın! O boyda kişi eşşəyə minib, yazıq uşaq isə piyada gedir". Bu sözdən sonra hər ikisi eşşəyə minir. Qarşıdan gələn başqa bir dəstə: "Bura bax ey... İki-iki adam minib eşşəyə, yazıq heyvan nəfəs ala bilmir". Camaatın sözün kəsmək üçün molla və uşaq eşşəkdən düşüb piya-



da gedirlər. Qarşıdan gələn digər dəstə deyir: "Bu axmaqlara baxın. Günün altında piyada gedirlər, atıla-atıla gedən eşşəyə minmirlər" və s.

Mollanın başına gələn bu hadisələr bir çox cəhətdən diqqəti cəlb edir. Birincisi, mollanın özünün mükəmməl ideyası və iradəsi olmadığından xarici qüvvələrin təsiri altında eşşəyə gah minir, gah da düşür. Molla hadisələrin subyekti yox, obyektinə çevrilibdir. Ən başlıca səbəb isə informasiya qıtlığıdır. Heç bir dəstə özündən əvvəlki dəstənin rəyindən xəbəri yoxdur. Bu səbəbdən də səhv rəylərlə çıxış edirlər. Başqa sözlə, bir tərəfdən savadsızlıq, digər tərəfdən isə informasiya qıtlığı mollanı gülünc vəziyyətə salıb.

Düzgün qərar qəbul etmənin texnologiyası haqqıda fikirlərimi dəfələrlə söyləmişəm: istənilən hadisə ilə bağlı qəbul ediləcək qərarın xətası həmin hadisə ilə bağlı toplanan informasiyanın həcmindən asılıdır. Məlumat çox olarsa, xəta da az olar. Məlumat az olarsa, xəta çox olar. Məlumatın həcmi həm də düşünmə zamanından asılıdır. Çox düşünərkən çox məlumat toplanar və düzgün qərar qəbul edilər, bu zaman səhv də az olar və əksinə. Bu dediklərimizi riyazi olaraq belə ifadə etmək olar:

Qərarın xətasının (Qx) məlumatın xətasına (Mx) olan nisbəti sabit bir kəmiyyətdir.

**Qx/Mx = const**

Qərarın xətası dedikdə düzgün həll ilə səhv həll arasında fərq, məlumatın xətası dedikdə isə düzgün həll üçün lazım olan məlumatla əldə olan məlumat arasında fərq başa düşülür.

Deməli, hadisə ilə bağlı düşünmə müddəti nə qədər böyük olarsa, toplanan məlumat da bir o qədər çox, qərarın səhvi isə az olar. Bir hikmətli misalda deyilir: "Bir ağıl yaxşıdır, ikisi ondan da yaxşıdır". Çünki iki nəfərin əldə etdiyi informasiya və ya problemlə bağlı düşünmə müddəti bir nəfərinkindən iki dəfə çoxdur. Deməli, səhv az olacaqdır. Bu səbəbdən də idarəetmə sistemində adətən nazirə müavin, müdirə müavin, rektora prorektor və bunun kimi vəzifələr nəzərdə tutulur ki, qərarın xətası da az olsun. Bu yerlər gərək heç zaman boş qalmasın.

Mütləq düzgün qərar qəbul etmək Allaha məxsusdur. Peyğəmbərlər də min illərin sınağından çıxmış qərarlar qəbul etmişlər. Fövqəlinsanlar da uzun zaman intervalı üçün doğru olan qərarlar qəbul edə biliblər. Müdrik insanların qərarlarının xətası az, cahil insanların qəbul etdikləri qərarların xətası isə çox olur. Bu səbəbdən də Eduard Dalberqin deyir: " Sizin istənilən həlliniz səhvdir".

## İki qütb arasında insan fəaliyyəti

Ziyalıların əksəriyyətinin fəaliyyəti iki qütb arasında baş verir. Özünə məhəbbət və millətə məhəbbət. Bu nisbət 50-nin 50-yə deyil. Hesab edirəm ki, millətə məftun ziyalıların sayı əvvala çox deyil, ikincisi də, müxtəlif millətlər üçün bu nisbət müxtəlifdir və onların düşüncə tərzindən asılıdır. Bu say böhran bir qiymətdən az olanda (tək-tək olanda) millətə məhəbbəti böyük olan ziyalının həyatı çox zaman faciə ilə qurtarır.

Millətini sevən Xəlil Rza Ulutürkə Allah rəhmət eləsin! "Gözün aydın, Firəngiz, oğlun Vətən yolunda şəhid oldu". Bu sözləri hər ziyalı söyləyə bilməz. Özünün xəstə yatmasına baxmayaraq, Heydər Əliyevin Azərbaycana tez qayıtmasını istəyən "91-lərin" ən parlaqlarından biri idi.

İnsan toplumu inkişaf etdikcə, təhsilləndikcə, dünyagörüşü artdıqca ictimai məhəbbətin zəruliyi dərk edildi və güclənməyə başladı. Dövlət bir qurum olaraq 10 min il bundan qabaq formalaşmış və ictimai məhəbbətin, arzunun təzahür formasıdır. İnsan cəmiyyətinin inkişafı özünəməhəbbətdən ictimai məhəbbətə tərəf yerdəyişmə ilə müşahidə olunur. İnkişaf etmiş ölkələrdə cəmiyyət üzvlərinin millətə məhəbbəti özünəməhəbbətli vəhdətdədir.

## Xəritəmiz tariximizdir

Xəritəmizin forması hər birimizi düşündürməlidir. Bizim xəritəmizin sərhədləri məntiqdən kənardır. Tut yarpağını qurd yeyən kimi, düşmənlər torpağımızı yeyə-yeyə Bakıya yaxınlaşırlar. Təkcə Xəzər tərəfdən təcavüz yoxdur. Əminəm ki, xəritəmizin bu şəkildə mövcudluğu xalqın potensilına və istəyinə uyğun deyil. Bu uyğunsuzluğu aradan qaldırmaq bizim və gələcək nəsillərin borcudur.

Əsrin əvvəlində Azərbaycan torpağını bir daha parçalayaraq Naxçıvanı Azərbaycandan ayırıblar. Mən Naxçıvan Muxtar Respublikasının yaranmasının 80, 90, 100-illiklərini yubiley yox, bu torpağın Azərbaycandan ayrı düşməsinin anma tarixi kimi qeyd edilməsinin tərəfdarıyam. Biz birləşməyə can atmalıyıq və bu, rasional düşüncə tələb edir.

Təbiətin ibrətamiz qanunauyğunluqları vardır. Cisimlərin ümumi xassələrindən biri formasını qorumaq və saxlamaqdır. Canlı bioloji varlığı (insan bədənini, yaşıl ağacı) yaralayanda, o, həmin yaranı özü sağaltmağa çalışır. Çünki canlı cisimlər öz formasını saxlamağa cəhd edirlər. cansız cisimlərə də toxunulmazsa, min illərlə öz formasını saxlamağa çalışar.

Azərbaycan və Naxçıvan XX əsrin əvvəllərində siyasi səbəblərdən bir-birindən ayrı düşmüşlər. Ancaq bu ərazilər cansız cisimlər kimi yox, canlı orqanizm kimi birləşməyə, sağalmağa can atmalıdır. Mən ictimai şüurda, ədəbiyyatda bu cəhdlə bağlı narahatçılıq hissi görmürəm və bunu düşüncə tərzimin qüsuru hesab edirəm. Bu səbəbdən də ermənilər Naxçıvan ətrafında cəfəngiyatlar danışırlar.

Azərbaycan Prezidenti İlham Əliyev 14 aprel 2004-cü il tarixində Naxçıvan Muxtar Respublikasının 80-illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmiş və "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir" adlı məruzə ilə çıxış etmişdir. Bu siyasət gələcəkdə Naxçıvanla Azərbaycanın coğrafi baxımdan birləşməsini və yaralanmış torpağın sağalmasını təmin edə bilər.

## Tariximiz obyekt-subyekt kontekstində

XX əsrdə (son 14 il istina olmaqla) ölkəmizə rəhbərlik edən şəxslər məmləkətdə gedən genişmiqyaslı ictimai-siyasi proseslərin, hadisələri idarə edən fəal tərəfi yox, zəif tərəfi olmuşlar. Yəni məmləkətdə baş verən siyasi prosesləri idarə edə bilməmiş, əksinə, bu proseslərin bulrulğanlıqlarında dolaşığa düşmüşlər. Fəlsəfi dillə desək, onlar bu proseslərin subyekti yox, obyektinə çevrilmişlər. Elə bu səbəbdən bizim tariximizi bizdən soruşmadan yazıblar, coğrafiyamızı bizdən soruşmadan çəkiblər. Bu prosesləri elmi metodlarla tədqiq edə biləcək tarixin fəlsəfəsi (söhbət fəlsəfənin tarixindən getmir) adlanan ixtisas üzrə mütəxəssislərimizin olmaması milli tariximizin dərk olunmasını əngəlləyən amillərdəndir. Biz bölgədə gedən proseslərdən baş çıxarmalıyıq. Biz dünyada gedən proseslərdən hali olmalıyıq. Dünyanın inkişaf yolunu düzgün müəyyənləşdirməliyik.

Ermənilər həm müsəlmanların (İranın, Dağıstanın), həm də xristianların potensialından istifadə edirlər. Biz də bəşəri potensiallardan istifadə etməyi bacarmalıyıq. Güman ki, bizi istəməyənlər olduğu kimi, istəyənlər də az deyil.

# QAFQAZ MÜNAQİŞƏLƏRİ

## SSRİ-dən Azərbaycana və Gürcüstana 3 milli münaqişə ocağı miras qalıb

*A.M.Hacıyeva*





Klassik alman fəlsəfəsinin banisi olan Emanuel Kant qonşu dövlətlər arasındakı münasibətlərdə müharibəni təbii hal adlandırıb. Bu fikri oxuduqca elə düşünmək olar ki, məşhur filosof sanki Qafqazın bugünkü durumunu hələ o zaman görüb. Belə ki, Soyuq müharibədən sonrakı dövrdə Avrasiyada ən mürəkkəb etnoərazi konfliktlər məhz Qafqazda baş verib. Hal-hazırda Yaxın Şərq və İraqdan sonra Qafqaz dünyanın ən mürəkkəb, ən gərgin regionlarındandır. Postsovet məkanında baş vermiş səkkiz münaqişədən beşi məhz Qafqazda baş verib, konfliktlər nəticəsində yüz minlərlə insan həlak olub, iki milyondan çox insan öz torpaqlarından didərgin düşüb. Bunları nəzərə alaraq demək olar ki, həqiqətən də Qafqazın etnosiyasi durumunun öyrənilməsi bu gün üçün öz aktuallığı ilə seçilməkdədir. Cənubi Qafqazdakı mövcud münaqişələr, etnosiyasi konfliktlər (Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya) bir daha sübut edir ki, Qafqazda regional təhlükəsizliyin təmin olunması nə qədər çətindir.





### Dağlıq Qarabağ münaqişəsi

Dağlıq Qarabağ münaqişəsi bir sıra əlamətlərinə görə, istər müasir dövrün beynəlxalq, istərsə də 1991-ci ildə rəsmən dağılan SSRİ məkanında milli etnik zəminində baş verən konfliktlər sırasında xüsusi yer tutur. Deməli, Dağlıq Qarabağ münaqişəsi özünün bütün səviyyələrində əhatə dairəsinə görə, həlak olanların və məcburi köçkünlərin sayına görə, tarixi köklərinə görə və bu gün həllinin mürəkkəbliyinə görə postsovet məkanında etnosiyasi konfliktlərin ən mürəkkəbidir. Bu münaqişə həm tarixi kökləri və inkişaf xüsusiyyətləri, o cümlədən konfliktoloji statusunun formalaşması, həm də həlli yollarının axtarılması, onun vasitə və üsulları baxımından diqqəti cəlb edir.

DQ münaqişəsi Cənubi Qafqaz regionu ilə yanaşı, bütövlükdə SSRİ-nin və onunla birlikdə dünya sosialist düşərgəsinin taleyinə təsiri baxımından da çox ciddi hadisədir.

Formal olaraq bu münaqişə Azərbaycan Sovet Sosialist Respublikası tərkibində hələ 1921-ci ildən mövcud olan Dağlıq Qarabağ Muxtar Vilayətinin bu respublikanın tərkibindən çıxaraq, Ermənistan Sovet Sosialist Respublikasına daxil olmaq istəyi formasında meydana gəlib. Sovet respublikalarından biri olan, SSRİ dağıldıqdan sonra isə müstəqil dövlətə çevrilən Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, müasir sərhədlərin təftişi istər keçmiş SSRİ-nin, istərsə də müasir beynəlxalq münasibətlər sisteminin siyasi normalarına, o cümlədən fundamental qanunlarına zidd mahiyyət daşıyır.

Əvvəlcə SSRİ daxilində 1988-ci ilin fevralından başlayan bu konflikt dörd ilə yaxın bir dövr ərzində, yəni 1991-ci ilin sonunadək ümumi dövlət daxilində siyasi konflikt kimi meydana gəlib cərəyan etdi. Yalnız konfliktin sonrakı inkişafını təhlil etməklə onun qəsdən törədildiyini dərk etmək mümkündür. 1991-ci ilin sonunda SSRİ-nin rəsmən süqutu və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsi ilə DQ münaqişəsinin konfliktoloji statusu dəyişdi. Əgər ilk dörd ilə yaxın bir dövr ərzində onu SSRİ-nin daxili konflikti kimi səciyyələndirmək mümkün idisə, Azərbaycan və Ermənistanın müstəqil dövlətlərə çevrilməsi ilə bu münaqişə beynəlxalq konflikt əhəmiyyəti daşımağa başladı.

Bəziləri münaqişədə dini amili qabardırlar. Ümumiyyətlə, ilk baxışdan da belə bir qənaətə gəlmək olar ki, münaqişə dini zəmində baş verib. Ermənilər xristian dünyasında özlərinin "xüsusi" yer tutduqlarını, daha doğrusu "ən qədim" xristianlar olduqlarını bildirirlər. Kilsə ermənilər üçün, digər xalqlardan fərqli olaraq, təkcə dini institut funksiyasını yerinə yetirməyib, kilsə eyni zamanda dövlət funksiyasını həyata keçirib. Tarixdə baş vermiş erməni-Azərbaycan toqquşmaları bəzən xalq arasında "erməni-müsəlman qırğını" kimi adlandırılıb. Göründüyü kimi, münaqişənin məzmununda dini amilin nə qədər güclü olduğu nəzərə çarpır. Lakin bu amillər Dağlıq Qarabağ münaqişəsinin dini formatda qiymətləndirilməsinə imkan verməyib. Ermənilər heç vaxt Azərbaycan ərazisində dini etiqadlarına görə təqiblərə məruz qalmayıblar və DQ münaqişəsi nadir "xristian-müsəlman" münaqişələrindəndir ki, müharibənin gedişində cihad elan olunmayıb. Deməli, münaqişənin məzmununda dini-konfessional məqam yoxdur. Dağlıq Qarabağ münaqişəsi "iki suveren dövlət arasında etnoərazi münaqişəsi"nin nümunəsidir. Ermənistan tərəfi konfliktin bir başa iştirakçısı olduğunu nə qədər inkar etsə də, Azərbaycan tərəfinin təkidi ilə bu münaqişənin məhz Ermənistan-Azərbaycan konflikti olduğu beynəlxalq miqyasda etiraf edildi. Belə ki, Dağlıq Qarabağ münaqişəsi postsovet məkanında baş verən digər 7 konfliktdən fərqli olaraq iki dövlət arasındadır, münaqişə ətrafında bütün danışıqlar Azərbaycan-Ermənistan formatında aparılır və beynəlxalq səviyyədə də konflikt məhz Azərbaycan-Ermənistan münaqişəsi kimi tanınır. Bundan əlavə, DQ münaqişəsi etnosiyasi konfliktlərin bir növü olan etnoərazi münaqişəsidir, yəni konfliktin məzmununda etnik məqam inkaredilməzdir. Nəhayət, DQ münaqişəsi sırf ərazi konfliktidir: bir dövlət digərinin ərazi bütövlüyünə təcavüz edərək onun ərazisinin 20%-ə qədərini işğal edib. Bu o deməkdir ki, DQ münaqişəsi iki dövlət arasında etnoərazi münaqişəsinin nümunəsidir. Deməli,

DQ konflikti Ermənistan tərəfinin irəli sürdüyü kimi daxili etnik konflikt kimi də qiymətləndirilə bilməz. Çünki istər DQ ərazisində, istərsə də Azərbaycanın digər regionlarında ermənilər heç vaxt diskriminasiyaya məruz qalmayıblar, hətta hər zaman xüsusi imtiyazlardan faydalanıblar. Dağlıq Qarabağ münaqişəsinin inkişaf tarixini konfliktoloji baxımdan 4 əsas mərhələyə bölmək olar:

1 . Konfliktin gizli mərhələsi. 1988-ci ilin fevralına qədərki dövrü əhatə edir.

2. 1988-ci ilin fevralından 1992-ci ilə qədərki mərhələ: qarşıdurma və onun əsasən siyasi formalarda münaqişə şəklini almasıdır.

3. 1992-ci ilin əvvəllərindən 1994-cü ilin mayına qədər Ermənistan və Azərbaycan arasında açıq müharibələr mərhələsidir.

4. 1994-cü ilin mayın 12-dən davam edir.

Beləliklə, 1994-cü ilə qədər davam etmiş hərbi əməliyyatlar nəticəsində torpaqlarımızın 20%-ə yaxını işğal edilmiş, 30 mindən çox insan həlak olmuş, 1 milyondan artıq soydaşımız isə evsiz-eşiksiz qalaraq məcburi köçkün və qaçqın statusu qazanmışdır.

DQ konfliktinin həlli yolları bütün digər konfliktlərdə olduğu kimi, onun öyrənilməsi, hansı inkişaf mərhələsində olduğunun müəyyənləşdirilməsindən sonra axtarılmalıdır. Bu məsələdə beynəlxalq hüquq da yardımçı ola bilmədi, əksinə, tərəflər Beynəlxalq hüququn 2 prinsipindən (millətlərin öz müqəddəratını təyin etmək hüququ və dövlətin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı) birinə əsaslanması nəticəsində ziddiyyətlər daha da kəskinləşdi.

Konfliktoloji baxımdan yanaşıldıqda, Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi iki mümkün yoldan biri ilə həyata keçirilə bilər:

1. 1994-cü ilin martından əsas götürülən sülh və ya dinc tənzimləmə yolu.

2. Dinc tənzimləmənin nəticəsiz qaldığı şəraitdə problemin məhz hərbi üsulla nizama salınması.

Yuxarıda deyilənlərdən aydın görünür ki, Azərbaycanın mövqeyi beynəlxalq hüququn prinsiplərinə tam söykənir, lakin Ermənistan tərəfi bununla razılaşmayaraq kontrarqumentlər gətirir. Demək, bu, bir daha sübut edir ki, münaqişənin həlli hüquqi deyil, sırf siyasi razılaşmadan asılıdır.

## Abxaziya konflikti

Abxaziya konflikti Cənubi Qafqazda ən gərgin və mürəkkəb münaqişə ocaqlarından biridir. Hələ sovet dövründə belə Abxaziyanın siyasi elitası Gürcüstanın tərkibindəki statusdan narazı idi. Onlar belə hesab edirlər ki, mühüm siyasi və iqtisadi qərarlar Tiflisdən abxaz tərəfinin mövqeyi nəzərə alınmadan verilir. 80-ci illərin ortalarından etibarən fəallaşan abxaz separatizminin açıq şəkil almasına təkan verən ilk insident 1989-cu ildə Abxaziya Universiteti yerində Gürcüstan Dövlət Universitetinin Suxumi filialının açılması haqqında Tiflisin qərarı oldu. Belə bir şəraitdə Abxaziya Ali Şurasının sədri Vladislav Ardzinba Abxaziyanın de-fakto müstəqilliyini elan etdi. Bu o demək idi ki, Abxaziya ərazisində Gürcüstanın qanunları öz qüvvəsini dayandırır. 1992-ci ilin iyulunda 1978-ci il konstitusiyası ləğv edildi və yeni konstitusiya qəbul edildi ki, bu da Abxaziyanın suverenliyini elan edirdi. 1992-ci ilin avqustun 14-də Gürcüstan Abxaziyaya qoşunlarını göndərməklə münaqişənin hərbi həllinə cəhd göstərdi. Rusiya yaranmış vəziyyətdən istifadə edərək Gürcüstanla MDB-yə daxil olmaq və rus qoşunlarının Gürcüstan ərazisində müvəqqəti saxlanılması haqqında razılıq əldə etdi. Moskva tərəfləri danışıqlar masası arxasına gətirməyi qərara aldı. Bu görüşdə hərbi əməliyyatların dayandırılması, hərbi əsirlərin mübadiləsi, əhalinin və ərzağın sərbəst daşınması üçün şəraitin yaradılması və təhlükəsizliyin yaradılması üçün üçtərəfli komissiyanın yaradılması haqqında razılıq əldə olundu. Lakin Rusiyanın Abxaz separatizmini müdafiə etməsi danışıqların iflasına səbəb oldu. Gürcüstan Abxaziyanın separatçı qüvvələrini şimala sıxışdırdı, Suxumini tutdu. Vəziyyət daha da gərginləşdiyindən Moskva yenidən mediator rolunu öz üzərinə götürdü. 1993-cü ilin iyulun 27-də Saçi müqaviləsi imzalandı. Müqavilə Gürcüstan-Abxaziya-Rusiya üçtərəfli komissiyanın yaradılmasını (atəşkəs və hərbi qüvvələr üzərində nəzarətin təminatı üçün), müşahidə zonasına beynəlxalq müşahidəçilərin göndərilməsini, Gürcüstan və Abxaziya hərbi qüvvələrinin münaqişə ocağından 10-15 günə çıxarılmasını nəzərdə tuturdu. Amma Gürcüstan məsələnin yeganə həlli yolunu Moskva ilə dil tapmaqda görürdü. Bunun üçün 1993-cü ilin dekabrında Gürcüstan MDB-yə daxil oldu, 1994-cü ilin fevralında isə BMT regionda olan rus qoşunlarına beynəlxalq sülh qoruyucu qüvvəsi statusu verdi. 1994-cü ilin noyabrın 26-da Abxaziya Ali Soveti ölkəni suveren respublika elan etdi. Atəşkəsə nail olundusa da, 9 il keçməsinə baxmayaraq, danışıqlarda irəliləyişə nail olunmayıb. Abxaziyada Rusiyanın sülhyaratma qüvvələrinin yerləşdirilməsi Gürcüstanla Rusiya arasında münasibətlərin kəskinləşməsində ciddi amil olaraq qalmaqdadır.

## Cənubi Osetiya konflikti

Gürcüstanda bir tərəfdən hakimiyyət uğrunda mübarizə, digər tərəfdən, Abxaziya və Cənubi Osetiyanın müstəqillik mübarizəsi son dərəcə gərgin konfliktoloji vəziyyət yaratmışdı. Konfliktin birinci tərəfi artıq 1992-ci ildə Eduard Şevardnadzenin siyasi hakimiyyətə qayıtması ilə tənzimlənsə də, Abxaziya və Cənubi Osetiya problemi bu günədək həll olunmamışdır.

SSRİ dağıldıqdan sonra Gürcüstanda xaos baş qaldırdı. Abxaziyadan başqa, Gürcüstanın tərkibində Sovetlər dövründə respublika statusuna malik olan Cənubi Osetiya da ən gərgin münaqişə ocaqlarından biridir. 1921-ci ildən Gürcüstanın Qırmızı Ordu tərəfindən işğal edilməsi nəticəsində konflikt bolşeviklər tərəfindən süni şəkildə boğuldu, Cənubi Osetiyaya Gürcüstanın tərkibində muxtar vilayət statusu verildi və əhalisinin əksəriyyətini gürcülər təşkil edən Tsixinvali vilayətin paytaxtı elan edildi.

Lakin 1989-cu ilin avqustundan başlanan münaqişə ziddiyyətləri daha da kəskinləşdirdi. Nəticədə osetinlər tələb etdilər ki, muxtar vilayət muxtar respublikaya çevrilsin. 1990-cı ilin sentyabrın 20-də Cənubi Osetiya özünü müstəqil Cənubi Osetiya Sovet Demokratik Respublikası elan etdi. 1992-ci ilin yazında gürcü-osetin cəbhəsində hərbi əməliyyatlar gərginləşdi. Eyni zamanda Cənubi Osetiya Abxaziya kimi 1923-cü il konstitusiyasını bərpa etdiyini bildirərək, 1992-ci ilin sentyabrın 25-də Gürcüstandan ayrılmaq haqqında qərar çıxartdı. Bundan sonra Gürcüstanın hər iki keçmiş muxtar qurumunda separatçılar möhkəmlənib Gürcüstanla birləşmənin əleyhinə siyasətlərini davam etdirirlər.

Cənubi Osetiya məsələsi üzrə atəşkəs haqqında razılığa əsasən Birgə Nəzarət Komissiyası yaradıldı. Atəşkəsə nəzarət etmək üçün Komissiyanın fəaliyyətini uğurlu saymaq olar. 1992-1995-ci illərdə vəziyyət tamamilə donduruldu. Məlumdur ki, Abxaziya konfliktində olduğu kimi, münaqişənin həlli yolları Moskvaya gedirdi. Amma Tiflis-Moskva ziddiyyətləri sülh danışıqlarını əngəlləyirdi. Lakin mühüm addım kimi 1996-cı ilin 16 mayında imzalanan gürcü-osetin tərəfləri arasında əməkdaşlığı və regionda təhlükəsizliyin təmin olunmasını nəzərdə tutan Moskva memorandumunun imzalanması oldu, 1996-cı ildə Cənubi Osetiyada keçirilən prezident seçkilərini Tiflis tanımadı, bu tərəflər arasındakı ziddiyyətləri gərginləşdirdi. Beynəlxalq vasitəçilər də bu konfliktin həllinə nail ola bilmədilər. Heç bir dövlət tərəfindən tanınmayan Cənubi Osetiya separatçı rejimi rəsmi Tiflisin nəzarətindən kənardadır və bu zona Cənubi Qafqazda potensial münaqişə ocağı olaraq qalmaqdadır.

SSRİ-nin süqutu bir tərəfdən regionda üç müstəqil dövlətin yaranması ilə nəticələnsə də, digər tərəfdən bu dövlətlərə hələ də öz həllini tapmamış 3 milli münaqişə ocağını - Abxaziya, Cənubi Osetiya və Dağlıq Qarabağı miras qoydu.

***Elmira Qasımova***
*Azərbaycan İncəsənət Muzeyinin direktor müavini*

Bir gün yolum emalatxanadan düşdü.
Gördüm ki, dərdin şəklini çəkirdi rəssam.
Gördüm ki, nə dərd çəkirdi rəssam.
Dərdin şəklini çəkmək dərd çəkməkdən deyilmiş asan.
Gördüm ki, dərdin şəklini çəkə bilməz
Dərd çəkə bilməyən insan.
Bu dərdin adı Vətən dərdidir.
Bu dərdin adı Qarabağ dərdidir.
Ağdam, Fizuli, Şuşa, Laçın dərdidir.
Bu dərdin adı Xocalı dərdidir.

Bu dərd ürəyimdə qövr edən, qaysaqlanmayan bir dərddir.

Neçə yüzilliklər bundan öncə yağı düşmən əlinə qılınc alıb adını Türkmənçay, Gülüstan qoyub Vətənimi parçaladı. Siz elə bilirsiniz ki, Araz çayından axan sudur? Araz çayından axan həsrət, ayrılıq, ovunmayan dərd-qəmdir. Sosialist inqilabının tam və qəti qələbəsindən sonra baxıb gördük ki, İrəvan xanlığı dönüb olub Ermənistan, Zəngəzur, Basarkeçər qalıb sərhədin o tayında, Naxçıvan olub tənha ada, Göyçə gölü də-Sevan. Düşünən beyinləri, danışan dilləri, yazan qələmləri 37-nin qaranlıq gecəsində susdurdular. Elə o vaxtdan da gecənin kabus qaranlığından qorxuram. 90-cı ilin 20 yanvar gecəsində tankların lülələrinə taxtığımız qırmızı qərənfillər qızıl güllələrə çevrilib azadlıq deyən ürəklərimizə tuşlandı. Gecənin qaranlığından necə də qorxuram, Allah! 92-ci ilin fevralın 25-də o müdhiş gecədə Xocalımı viran qoydular, tarmar etdilər, ürəyimə dağ üstündən dağ çəkdilər.

Mən sizə nigarançılığımdan, narahatlığımdan danışmıram, mən sizə Şuşa dağları üçün çəkdiyim həsrətdən, niskildən danışmıram, axı dünyanın hansı nöqtəsinə desən, gedə bilərik, Qarabağdan başqa! Qarabağla aramızda sərhəd var. Bu sərhəd qanla, ölümlə, milli ədavətlə, düşmənçiliklə çəkilib. Sərhədin o tayında müqəddəs torpaqlarımız, mədəniyyət abidələrimiz, tariximiz, dünənimiz, taptanan qürurumuz, sınan ləyaqətimiz, bir də... bir də alınmayan qisasımız qalıb. Mən sizə içimdə çəkdiyim xəcalətdən - xan qızı Natəvanın, Üzeyirin, Bülbülün güllələnib yaralanmış heykəlləri qarşısındakı xəcalətimdən danışmıram. Axı o güllə yaralarından qan yox, dərd, ələm gəlir. Qorxuram xan nəslindən olan balam böyüyəndə qarabağlıyam, şuşalıyam deyə bilməsin. Mən onlardan danışmıram, çünki elə hisslər, elə duyğular var ki, onları sözlə ifadə etmək olmur. Sözlər tükənəndə, sözdən yorulanda, bezəndə üz tutdum rəssamın emalatxanasına. Gördüm ki, dərdin şəklini çəkirdi rəssam. Gördüm ki, nə dərd çəkirdi rəssam. Mən bilməzdim nə çətinmiş dərd çəkərək dərdi çəkmək Qədd əyərmiş dərdi çəkmək!..



# XOCALI FACİƏSİ
## təsviri sənətdə

XX əsrdə yüksək elmi-texniki tərəqqi qazanmış, kosmosu fəth etmiş, iki dünya müharibəsi görmüş insanlıq əsrin sonlarında Xocalı faciəsi ilə üzləşdi. Xocalının adı qara hərflərlə Sonqmi, Xirosima, Xatınla yanaşı yazıldı. Xocalı hadisələri azəri türklərinə qarşı yönəldilmiş məqsədyönlü soyqırım siyasətinin qanla yazılmış daha bir səhifəsi oldu.

Tarixin bu səhifəsində işğal edilmiş torpaqlar, dağıdılmış evlər, viran qalmış od-ocaq, talan edilmiş mədəniyyət abidələri ilə bərabər, ağbirçək ana-nənələrimizin ah-naləsi, körpələrimizin göz yaşları, nər oğulların şəhid qanları əbədi iz qoyub. Qarabağda isə torpaq bütövlüyümüz, dincliyimiz, alınmayan qisasımız qalıb.

Ürəyimizdə qövr edən, qaysaqlanmayan bir dərd olan Qarabağ yalnız siyasətçiləri, hərbiçiləri deyil, sənətkarlarımızı da daim düşündürən, narahat edən bir problemdir. Xocalı faciəsini ilk dəfə rəsm edən sənətkarlar arasında Vaqif Ucatayın (Hüseynovun) plakatı qatilləri ittiham edir. Körpə uşağın sinəsinə sancılmış qılıncın dəstəyi xaç - Kremlin qülləsi formasındadır. Və rəssam körpənin - Qarabağın gələcəyinin sinəsinə qəddarcasına sancılmış silahın kimlərə məxsusluğunu açıq-aydın söyləyir. Rəssam məkan genişliyi ilə bərabər, baxım vəhdəti də yaratmışdır: körpə sanki səmadadır, lövhədə əlavə heç nə yoxdur, yəqin elə bu səbəbdən də tamaşaçının bütün diqqəti obraz üzərində cəmlənir. Bununla da rəssam əsərin bədii-emosional təsir qüvvəsi ilə səciyyələnən əsər yaratmağa nail olmuşdur. Vaqif Ucatayın "Daşnak-burlaklar" əsəri öz kompozisiya qurumu ilə məşhur rus rəssamı İ.Repinin "Volqada burlaklar" əsərini xatırladır. Lakin buradakı "burlaklar" erməni daşnakları (hər obraz konkret bir şəxsiyyətdir), qayıq isə - Azərbaycandan zorla çəkib qoparılan qanlı Qarabağ torpağıdır. Kəskin siyasi karikatura janrında rəsm edilmiş "Daşnak-burlaklar" əsəri bu vandalizmə başçılıq edib ruhlandıranların iç üzünü açıb göstərir. Azəri türklərinə qarşı aparılan "ölçübiçimsiz" soyqırım siyasətini açıqlayan Əmir Talıbovun "İkiüzlü katalikos", Əmirbəy Nərimanbəyovun "Təcavüz", Elmas Hüseynovun "Xocalı faciəsi" əsərləri əlləri xocalıların qanına batmış cəlladların simasız "simasını" göstərir.

Xocalı faciəsini fəlsəfi baxımdan şərh etməyə səy göstərən Teymur Ağayev "Yaddaş", Şahlar Abdullayev "Məngənə", Böyükağa Mirzəzadə "Şərin qələbəsi", Faiq Əhmədov "Qəlbimin harayı" əsərlərində ümumən dağıntıya, sonsuz bəlalara bais olan müharibənin mənasızlığını açıqlamağa nail olmuşlar.

Nazim Məmmədov Xocalı faciəsinə laqeyd qalmamış, bu mövzuda neçə-neçə əsər rəsm etmişdir. Onun əsərlərində hadisələr ətraflı, publisistik şəkildə şərh olunur. Bu mövzunun daha real və təsirli alınması üçün rəssam hadisələr barədə ətraflı məlumat toplamış, onları yaradıcılıq süzgəcindən keçirərək silsilə rəsmlər çəkmişdir. "Xocalı od içində", "Xocalımın son günü", "Qəhrəman qızın ölümü", "Ailə əsirlikdə" və digər əsərlərdə o müdhiş gecənin dəhşətləri, xocalıların yenilməz qəhrəmanlığı, dəyanəti, eyni zamanda düçar olduqda iztirablar, sonsuz əzablar rəsmin dili ilə ifadə olunur. "Nənənin intiqamı" əsəri öz emosional təsir qüvvəsi ilə fərqlənir. Bu əsərdə "xaçın" və "tacın" qurbanı olmuş xocalıların dərdi-kədəri, vətən-torpaq istəyi cizgilər, rənglər ilə dil açıb danışır. Hər lövhə sənətkar etirazının, rəssam mövqeyinin ifadəsidir. Müəllif əsərlərinin böyük bir qismini - 31 əsəri muzeyə hədiyyə etmişdir. Bu mövzuda silsilə rəsmlər yaratmış Kamil Ramazanovun əsərləri həcmcə kiçik olsalar da, erməni faşistlərinin Qarabağa və qarabağlılara qarşı törətdiyi vəhşiliklərin ölçüyəgəlməz miqyasını əks etdirir. "1905 -1918-ci illərin faciələri", "Tarixdən səhifə" əsərləri tarixə bir baxış, "Nədir iblis?" əsəri rəssamı düşündürüb daşındıran sual, "Sivil erməni və sadə türk qızı", "Məğrur nənə", "Ordumuzun zabiti", "Azərbaycan əsgəri", "Təəssübkeş qız" əsərləri millətin mənəvi qüvvəsinə-böyüklüyünə inam və qürur ifadə edirsə, "Körpə girovlar", "Salatın faciəsi", "Girov əsirin faciəsi", "Ana fəryadı" kimi əsərlər yağı və qansız düşmənə nifrət, qəzəb ifadə edir. Erməni silahlıları ilə üzbəüz qalan qeyrətli və hünərvər xocalıların düşmənə asanlıqla təslim etmədiyi, canı-qanı bahasına son nəfəsinədək qoruduğu Vətənin faciəsi bu əsərlərin əsas mövzusudur. Kərim Cəlalın "Zamanın izi" əsəri Qarabağın faciəli taleyindən danışır. Yığcam kompozisiya, sakit, işıqlı rənglər, iki üslubun sintezi əsərin məna gərginliyinə xələl gətirmir. Tablonun dərinliyindən tamaşaçıya doğru uzanan yolda azəri qadını ayaq saxlayıb, bir anlıq arxaya dönərək, Vətənə həsrət, nisgil dolu baxışlarla baxır. Qadın - Ana - Vətən öz yurdundan-yuvasından perikdirilmiş quş kimidir. Özü ilə yalnız gələcəyini-körpə övladını götürüb. Onun qüssə - qəm dolu duruşunda kədər, ümidsizlik duyulur. Lakin qadın geri dönə bilmir: onunla Vətən arasında sərhəd var, bu sərhəd milli ədavətlə çəkilib. Sərhədin o tayında doğulub boya-başa çatdığı, yıxılıb dura-dura ayaq tutub gəzdiyi, çiçəklərdən çələng hördüyü, gəlin köçüb ana olduğu yurd-yuvası, şirinli-acılı xatirələri qalıb.

Qadın obrazının başı üzərində iriölçülü əllər təsvir olunub, əllər sap oyunu ilə məşğuldur, sanki hörümçək kimi tor toxunur. Əlin biləyindəki saatdan isə qan damır - bu qanla yazılmış zaman - Xocalının qana bələndiyi, tar-mar olunub namusuna təcavüz edildiyi vaxtdır. Bu, Qarabağ üçün qanla, xəyanətlə, vəhşiliklər yazılmış "Zamanın izi"dir.

Hafız Məmmədovun, Yaqub Mehdiyevin, Xanlar və Zakir Əhmədov qardaşlarının və digər neçə-neçə sənətkarların əsərlərində Xocalı hadisələrini hönkür-hönkür kameraya alan mərhum Çingiz Mustafayevin, körpəsini bağrına basıb düşmən zülmündən baş götürüb qaçan ananın, son nəfəsinədək vuruşan igid döyüşçünün obrazları əbədiləşdirilmişdir. Sənətkarlarımızın ürək ağrısı ilə yaratdığı hər bir əsər tariximizin rəsmlərdə yaşanan yaddaşı, için-için yanıb ürəyində axıtdığı göz yaşı, böyüyən gənc nəslə keçdiyi tarix dərsi, oğullar üçün döyüşə çağırış himnidir.



# Milli RUH

Ağa Hacıbəyli

Varlığını ən sağlam təməllər üzərində quran millət bu gününü, həm də sabahını zəmanət altına alır. Tarixi keçmişini, kimliyini unudaraq, dünənini yaddan çıxaran bir millətin isə ruhu kökündən qopar, yabançılaşar və nəhayət, hər hadisənin qarşısında əzilər. Odur ki, istiqbalın əmanətçiləri olan gənclərə pozitiv elmləri təlim etdirdiyimiz kimi, keçmişimizin zirvələrdə dolaşdığını dastanlaşdıraraq onlara təlim etməliyik. Milli ruhla gündəlik qidalanma yeni-yeni qəhrəmanlar yetişdirmək imkanını obyektivləşdirər.

Həyat məktəbi orta və ali məktəblərdən çox fərqlidir. Həyat məktəbi dünyaya aid hər bir məsələnin praktiki icra yeridir. O, kitablar arasında olanlardan son dərəcə fərqlidir. Bu düsturu əsas tutaraq orta və ali təhsil ocaqlarında yetişdirilən nəsli milli ruhumuzun prespektivlərinə tamamilə uyğunlaşdırmalıyıq. Günümüzün idrakı, modern elmlərlə təmas, müasir texnologiyaya dərindən yiyələnmək və dini mədəniyyətimiz qütbündə inanc kimi strateji sahələri milli ruhun yanında görməliyik.

Qərbin məfkurə hegemoniyası bütün potensialı ilə dünyanı mənən istila edir. Dünya evində məfkurə mücadiləsi ən müasir döyüş silahıdır. Torpaqlar, ölkələr işğalından öncə masa ətrafında istilaya məruz qalır. Hadisələrin nəbzini tuta bilməyən millətlər, xalqlar, dövlətlər şahmat üstündə fiqurlara çevrilir. Və kimlərinsə əlilə oyunların qaranlıq dəhlizlərinə atılır. Fikrimcə, bu atılmalar milli ruhun ölməsindən sonra başlayır. Amma millət ideologiyasında, bu səhnədə varlığını isbat etməyə çalışan xalq, əvvəlcə milli kimliyini, milli mədəniyyətinin fonunda təmsil edərək proseslərə yaxınlaşmalıdır. Yoxsa canlılar aləmində aparılan süni mutasiyalar son nəticədə ölümlə nəticələndiyi kimi, millətlərin də bu taleyi, yaşama ehtimalı hər keçən gün daha da artacaqdır.

Ölkənin siyasi, iqtisadi, hərbi qazancı fövqəladə tərəqqiyə qovuşacağına inanaraq cani- könüldən çalışmalıyıq. Bu yüksəliş milli ruha tərs düşməməlidir.

Ədəbiyyatımız, milli ruhu və milli düşüncəni amal etməlidir. Millətə aid məsələləri hətta kiçik olsa da, insanlıq səmasında bir göy qurşağı halına gətirməlidir. Yeni nəsillərə ərz edilən dəyərlər, romanlar, pyeslər xalqımızın könül dünyasının tərcümanına çevrilməlidir.

Yediyimiz qidalar, aldığımız hava, verdiyimiz can, qoxuladığımız hər çiçək bu vətənə aid olmalıdır. Mənəviyyatımızı dəyişən heç bir proses cəmiyyətimizə sirayət etməməlidir.

Alimlərimiz elmi tədqiqat mərkəzlərində, natiqlərimiz seminar və konfranslarda, siyasətçilərimiz həm ölkə, həm də beynalxalq tribunalarda, məscidlərdə nəsihət verən vaizlərimiz minbərlərdə Azərbaycan xalqı kimi düşünməli və onun kimi danışmalıdırlar. Onların sevincləri, kədərləri, həyəcanları milli ruhumuzun meyarları çərçivəsində rəvac tapmalıdır. Özümüz kimi fikirləşib, özümüz kimi yeriməli, öz əllərimizlə tutmalı və öz ayaqlarımızla yeriməliyik.

Bu yol milli şüurda dərinləşənləri bir yumruq halına gətirər. Bütün intellektual səviyyələri milli ruhun səviyyəsinə yönəldər. Beləliklə, ölkəmiz tarixən yaşadığı bir çox dramları təkrarən yaşamayacaqdır. Hər cür insani və bəşəri hisslərdən məhrum xeyli düşmənlərimiz var. Onlar milli ideologiyaya qarşı cəbhə açmışlar. Nifrət və kinlərini fərqli təşkilatlar, qurumların vasitəsilə bayraqlaşdırmışlar. Tarixin çox ağır sınaqlarından məsuliyyətini idrak edərək çıxan xalqımız bu bayraqları və süni bayraqlaşmaları qətiyyəti ilə rədd edir.

Dövlətini və millətini sevənlər bir an olsun bu şüurdan ayrılmamalıdır. Çünki millətin ruhu dövlətin qüdrətinin ifadəsidir. Milli ruhu qüvvətli dövlətlər güclənirlər. Milli ruhu sarsılmış millətlər isə əsrlərin və zamanların super güclərinin müstəmləkəsinə çevrilir.

Azərbaycan böyük bir xalqdır. Böyüməsində tarixən böyük qurbanlar veribdir. Nəhəng mədəniyyətlər qurub, məşhur alimlər yetişdirib və dünya mədəniyyətinə misilsiz töhfələr veribdir. Bütün bunlar dünyaya yenidən təqdim olunmalıdır. Bu, bizim həyati vəzifəmizdir. Vəzifə haqdan öncə gəlir. Onu da xatırlamalıyıq ki, xalqımız bir orqanizm kimidir. Bir orqanizmdə bir ruh olar. Ona da milli ruh deyirik.

**Ölkəmizi mükəmməl qala kimi görən və özünü o qalanın həqiqi əsgəri hesab edən ruh insanları...**

# HİSSİYATE-MADƏRANƏ
## və yaxud övlad bəsləmək hissləri

Məhəmməd Hadi

İştə növzadın edib zibi-kənar,
Gah öpər, oxşar onu, gah qoxular.

Madər öpdükcə şu məhparəsini,
İylədikcə rüxü-canparəsini,

Oynayır tərzi-lətifanə ilə,
Sevməli şiveyi-tiflanə ilə.

Anası olduğca busəruba
Xəndələr saçmada tifli-rəna.

Gah öpərkən oluyor giryəfəşan,
Madəri-müşfiq olur pürxəcələn.

Tifli-naziktəridir qonçeyi-tər,
Üzünə gözləri san jalə səpər.

Şu səmavi gözü yağdırmda ab,
Gülşəni-ruyinə bəxş etmədə tab.

Duruyor oxşamağa zadəsini,
Sevgili, nazlı xudadadəsini.

Üzünü, gözlərini silmədədir,
Yenidən nazlı çoçuq gülmədədir.

Nə şirin, dadlı həqiqətdir bu,
Hissbəxşaye-təbiətdir bu.

Nə gözəl mənzəreyi-şəfqətza,
Nə lətafətli, nə ruhani səfa.

İştə övladı ana sevməlidir,
Ən gözəl tərbiyəni verməlidir.

Safü şəffafdır övraqi-dili
Qonçəyi-pakı gözəl bəsləməli.

Baxmasaz yaxşı cigərparələrə,
Yazıq olmazmı şu biçarələrə?

Tifl bir ayinədir əksnüma,
Necə baxsan olacaq çehrənüma.

Biədəb bəsləməyin tiflani,
Mərifətpərvər edin sibyani.

Saflandır, ana, zehnü huşun,
Məhdi-adab oluyor ağuşun.

Oluyorsan ana fərdanələrə,
Sən sədəfsən düri-şəhdanələrə,

Şirbəxşəndeyi-övladi-zəman,
Tərbiyətpərvəri-növi-insan.

Millətin nisfini təşkil qılan
Siz deyilsizmi, a nisvani cahan?

Bədənin nisfi mərəz olsa əgər,
Göstərərmi şu bədən fəzlü hünər?

Cismi-ifliczadə bir xoşk dirəxt,
Verəməz meyveyi-insaniyyət.

Qabili-feyzi-təcəlli olamaz,
Naili-məqsədi-ali olamaz.

Nə zaman kəsbi-ülum etsə nisa,
Cismi-millət tapacaq onda şəfa.

Elmlə ruha müdavat olunur.
Elmlə kəsbi-kəmalat olunur.

Elmdir şəmsi-səbahi-əzəli,
Elm tənvir edər afaqi-dili.

Novzad - təzə doğulmuş uşaq
Zib - bəzək, zinət
Madər - ana
Məhparə - ayparçası
Rüx - yanaq, üz
Şiveyi-tiflanə - uşaqcasına hərəkət
Busəruba - öpdükcə
Xəndələr - gülüşlər
Tifl - uşaq
Rəna - gözəl
Giryəfəşan - ağlayan
Pürxəcələn - xəcalətli

Müşfiq - şəfqətli
Ab - su
Zadə - övlad
Xudadadə - Allahın verdiyi
Hissbəxşaye-təbiət - təbiətin bəxş etdiyi hiss
Şəfqətza - şəfqətli
Övraqi-dil - qəlb səhifələri
Əksnüma - əks etdirən
Çehrenoma - üzə çıxma
Sibyan - uşaqlar
Məhd - beşik
Ağuş - qucaq

Şirbəxşənde - süd verən
Nisf - yarı
Nisvan - qadınlar
Məriz - xəstə
Xoşk dirəxt - quru ağac
Qabili-feyzi-təcəlli olamaz - təcəllilərin feyzini ala bilməz
Nisə - qadın
Müdavat - müalicə
Tənvir - nurlandırma
Afaqi-del - qəlb dünyası

1906, №4



1906, №5



# Söz

Ə.Sabir Tahirzadə

Ey söz, nola dersəm sana xurşidi-səmavat,
Səndən alıyor nurü ziyayi həmə zərrat.
Bir nuri-həqiqətsin, edüb həq səni nazil
Kim, bəxş edəsin gülşəni-nasutə füyuzat.
Gəh lövhdə məstur, qələmdən gəhi cari,
Gəh ərşidə misbah, gəhi fərşdə mişkat.
Sübhi-əzəlidən yüzün etdikcə təcəlli,
Məhv oldu cahanı bürüyən dudeyi-zülmat.
Olmuş bütün ərbabi-nəzər aşiqi-hüsnün,
Tənviri-üyun eyliyor ərbabi-kəmalat.
Bir mövhibeyi-lütfi-xudasın ki, həqiqət
İnsanlar edir zatın ilə fəxrü mübahat.
Sərkəşləri həp taətə məcbur ediyorsın,
Təsiri-nüfuzunla ərir sanki cəmadat.
Ey bariqeyi-fikr, əya ləməyi-vicdan,
Ey şəşəəyi-qəlb, əya nuri-xəyalat.
Növi-bəşərə tərbiyəbəxş olduğun üçün,
Gər densə səzadır sana ümmul-ədəbiyyat.
Sənsən füsəhayi-ərəbi eylədin ilzam,
İzhari-bəlağətlə, əya nuri-hidayat.
Mümtaz elədin növi-bəni-adəmi əlhəq,
İnsan sənin ilə edüb ehrazi-məqamat.
Vicdanü dili-Sabirə nəşr eylə füyuzin,
Ta kim, bitə könlündə rəyahini-kəmalat.

Xurşid - günəş
Səmavat - səmalar
Zərrat - zərrələr
Gülşəni-nasut - dünya evinə
Məstur - yazılı, yazılmış
Cari - axan
Misbah - çıraq
Mişkat - çıraq
Ərbabi-nəzər - nəzər sahibləri

Tənvin - nurlandırmaq
Üyun - gözlər
Ərbabi-kamalat - kamal sahibləri
Mövhibeyi-lütfi-xuda - Allahın lütf etdiyi hədiyyə
Mübahat - iftixar
Sərkeş - başqaldıran, itaətsiz, asi
Cəmadat - cansızlar, cansız yaradılmışlar
Bariqə - parlayan

Ləme - parıltı
Şəşəə - parıltı
Seza - laiq
Umm - ana, əsas
Füsəha - gözəl danışanlar
İlzam - məcbur etmək
Mümtaz - çox yaxşı
Ehrazi-məqamat - məqam ələ keçirmək
Rəyahin - gözəl qoxular, reyhanlar

# Toxunmayın bu günümüzü var edən dünənimizə!

*Azər Eyvazov*

**Toxunmayın yüz illərin keçidindən, axarından süzüb-axıb gələnlərə!**

**Toxunmayın dədələrin-nənələrin zümzüməsində inciləşib düzülüb gələnlərə!**

**Toxunmayın ağılarımıza, bayatılarımıza, laylalarımıza!**

**Toxunmayın dilimizi var edənlərin dilindən gələnlərə!**

**Toxunmayın milli ruhumuza, milli havamıza!**

**Toxunmayın bu günümüzü var edən dünənimizə!**

**Toxunmayın! Toxunmayın!!**



Son illərdə muğam və xalq mahnılarını sevən böyük sənətkarların zaman-zaman dövrü mətbuatda çıxışları və o zəngin məktəbi yaşadanların həyatda bizimlə yanaşı olması, çəkdikləri sıxıntılara baxmayaraq, bu sənətin yaşaması üçün əllərindən gələni etməsi ümidlər verir. Bu sənətkarlar musiqinin bu növünün dəyər və zənginliyini yaxşı bildikləri və təmənnasız sevdikləri üçün, ucuz şou-biznesə qaçmır və əksinə, onun keçici olduğunu anlayaraq var gücləri ilə bu sənəti yaşadır və yaşadanları hazırlayırlar. Dövlətimizin cavabdeh Nazirlikləri, xüsusən son dövrlərdə Mədəniyyət Nazirliyinin xüsusi yanaşması muğam və xalq mahnılarını durğunluqdan çıxartdı.

Amma bununla yanaşı, axır vaxtlar şou-biznesin tutulduğu "sintez xəstəliyi" xalq mahnılarımızdan da yan keçmir. Xalqımızın yaratdığı, min illərin sınağından keçib gələn musiqilərimiz necə gəldi, kor-koranə xarici musiqi janrları ilə, onların təbirincə desək, sintez edilir, əslində isə zorla calanır, calaq edilir. Bu isə xalq mahnılarını öz orijinallığından qoparır. Gəlin bir anlıq düşünək: gənc və yeniyetmə nəsil millilikdən uzaq olan bu sintezləri dinləyir və xalq mahnılarını bu cür tanıyır. Hələ gələcək nəsilləri demirəm... Belə hallar xalq mahnılarının orijinalının unudulmasına gətirib çıxara bilər ki, bu da böyük fəsadlar törətmək zorunda qalacaq.

Onsuz da son illər milli mahnılarımızı, xalq havalarımızı ermənilər hər vəchlə özlərininki kimi qələmə verməyə cəhd edirlər. Belə sintezlər isə mənfur düşmənlərimizin çirkin niyyətlərinin həyata keçməsi üçün birbaşa şərait yaratmış olacaq. Beləliklə, şou-biznesimizin bəzi nümayəndələrinin son illərdəki "xidmətləri" düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil. Bir də ki, hər bir xalqın musiqisi öz çalarları ilə fərqlənir. Xalqımızın zəngin mədəniyyəti olduğu kimi, musiqisi də zəngin və rəngarəng və heç bir sintezə ehtiyacı yoxdur. Musiqimizi qərb musiqisinə calaq edənlər başa düşmürlər ki, mədəniyyətimizi də qərb mədəniyyətinə calaq edirlər. Axı bu cür calaq olunmuş xalq musiqimizə qulaq asan əcnəbilər bunun Azərbaycan xalqına aid olduğunu necə anlaya bilər? Bizim musiqimizin gözəlliyi elə onun orijinallığında deyilmi?

Uzun zaman gördüklərim vicdanımı dilə gətirməyə səbəb oldu. Xalqın zümzüməsini xalq mahnısına çevirənlər yadıma düşdü, "daxili harayıma toxunmayın" fəryadı gəldi. Köklü-köməcli musiqimizi süniləşdirənlər səbəb oldu bu haraya... Elə bil yatmışdım, vicdanıma bir haray da qarışdı, alnı qırış-qırış olan nənəmin bayatı zümzüməsi, çətin də olsa, anamın laylası yadıma düşdü. (İllərin ötməsinə baxmayaraq, bəzən özüm də o zümzümələrə qoşuluram.) Mərhum akademik Həsən Əliyevin vaxtilə oxuduğum "Həyəcan təbili" əsərini xatırladım, birdən qəribə bir qorxu gəldi içimə - qorxdum ki, nənəmin bayatısı, anamın laylası da yadlaşa, sintezləşə...

Üzümü şou-biznes əhlinə tutub bir Azərbaycan övladı kimi xahiş edirəm: xalq mahnılarımıza toxunmayın, onları olduğu kimi oxuyun!

Toxunmayın yüz illərin keçidindən, axarından süzüb-axıb gələnlərə!

Toxunmayın dədələrin-nənələrin zümzüməsində inciləşib düzülüb gələnlərə!

Toxunmayın ağılarımıza, bayatılarımıza, laylalarımıza!

Toxunmayın dilimizi var edənlərin dilindən gələnlərə!

Toxunmayın milli ruhumuza, milli havamıza!

Toxunmayın bu günümüzü var edən dünənimizə!

Toxunmayın! Toxunmayın!!

Cürət etməyin, onsuz da tarixləşə bilməyəcəksiz. Onsuz da sözünə iman qarışmış halal loxmalı, halal tikəli, halal sözlü baba və nənələrimizin ölməzləşən söz sirrinə girə bilməyəcəksiz.

Sadəcə bilin: millətdən gəlib milliləşənə toxunmaq, var ikən özünü yox etməkdir. Onsuz da nə etsəniz belə, əbədiləşə bilməyəcəksiz.

Toxunmayın!



# EYXORNİYA

## Yaradanın möcüzəsi olan kiçik canlı orqanizmdən istifadə etməklə bir çox problemlərimizi həll edə bilərik

**Babək Tatlıyev**
*müstəqil ekspert*




XX əsrdə sənayenin və kənd təsərrüfatının sürətli inkişafı öz xeyirli tərəfləri ilə yanaşı, bəşəriyyət qarşısına ən ağrılı problemlərdən olan ekologiya, o cümlədən ətraf mühitin çirklənməsi problemini çıxarıb. Planetin əhalisinin dönmədən artmasını nəzərə alaraq, insanlar durmadan istehsal güclərini çoxaldır, kənd təsərrüfatı üçün yeni-yeni torpaq sahələrini istifadə edirlər. Bu səbəbdən meşələr məhv edilir, torpaqlar sənaye və məişət tullantıları ilə, kimyəvi maddələrlə çirkləndirilirlər. Məlumdur ki, təbiət də özünəməxsus şəkildə intiqam alır və ekoloji faciələr bumeranq kimi qayıdaraq yalnız insanların deyil, yer üzərində məskunlaşan bütün canlıların həyatina mənfi təsir edir.

Əksər hallarda, xüsusən də sənayedə bu problemə qarşı cox da səmərəli olmayan texnoloji üsullarla mübarizə aparılır. Lakin bu vasitələrin baha başa gəlməsi səbəbindən (bəzən yuksək texnologiyalı təmizləyici qurğuların dəyəri istehsal gücünün dəyərindən baha olur) istehsalçılar onları quraşdırmağa və ekoloji tələblərə riayət etməyə xüsusi həvəs göstərmirlər. Eyni zamanda, texniki tərəqqinin qarşısını almaq mümkün olmadığı üçün məsələnin doğru həlli ekoloqlarla istehsalçıların mübarizəsində deyil, onların səy və imkanlarının vəhdətini təşkil edən proqramların işlənib hazırlanmasındadır.

Biz elmi biliklərimizi artırdıqca, ətraf mühitdə baş verənləri dərk etdikcə Allahın möcüzələri qarşısında durmadan heyrətlənəcəyik. Lakin Yaradan bu möcüzələri əsasən biz insanların istifadəsi üçün xəlq etdiyindən sadəcə seyrci mövqeyində durub onlardan faydalanmamaq ən azı nadanlıqdır.

Allah insanların zaman keçdikcə ətraf mühitə vuracağı ziyanları əvvəlcədən bildiyindən təbiəti qorumaq üçün müxtəlif vasitələr yaratmışdır və O, bizi ətraf mühiti qorumağın alternativ, təbii üsulları ilə təchiz etmişdir. Əfsuslar olsun ki, insanlar həmin vasitələrə lazımi diqqət yetirmirlər. Ən maraqlısı isə odur ki, külli miqdarda iqtisadi səmərə ilə yanaşı (bu üsullar texnogen metodlardan dəfələrlə ucuz olub, hətta gəlir də gətirir(!)), təbii vasitələr bir cox hallarda texnogen vasitələrə nisbətən daha effektiv təsirə malikdir. Bu isə öz növbəsində, xüsusən də son dövrlərdə enerjidaşıyıcılarının qiymətlərinin kəskin artması fonunda Azərbaycan kəndlisi üçün mühüm əhəmiyyət kəsb edir. Ortaya təbii suallar çıxır: nə üçün xüsusilə kənd əhalisi üçün enerjidaşıyıcılarının qiymətinin ətraf mühitin təmizlənməsinə nə aidiyyəti var? Tələsməyin, biz yuxarıda qeyd etdiyimiz Allah möcüzələri sayılan təbii vasitələrdən sizə bəhs etdikcə, bundan daha da artıq suallara cavablar tapılacaqdır.

Botaniki adı Eichorniya crassipes və ya Eichorniya speciosa olan bu üzən su bitkisinin vətəni tropik və subtropik ölkələr olsa da, o, daha sərt iqlimli şəraitə də uyğunlaşır. Dinozavrlarla yaşıd olan bu son dərəcə maraqlı bitkinin yer kürəsinin karbohidrogen qatlarının, başqa sözlə desək, hazırda istifadə etdiyimiz neft və təbii qazın əmələ gəlməsində birbaşa rolu olmuşdur. Çünki elmi təcrübələr sübut etmişdir ki, Eyxorniya bitkiləri milyon illər ərzində su hövzələrinin dibinə çökərək karbohidrogen qatının yaranışında iştirak etmişdir.

Beləliklə, Eyxorniya nədir? Birinci növbədə - bioloji filtr. Çiçəyi və yaşıl hissəsi suyun üzərində olan bu "qarınqulu" suyun altında özünün kirpiktək açılmış sapvari kökləri ilə həmin suda olan bütün zərərli orqanizmləri böyük bir acgozlüklə "yeyir". Eyxorniya öz kök sistemindən stimullaşdırıcılar və karbooksidləşdirici bakteriyaların artım inhibitorlarını ifraz etməklə neft məhsullarının bakterial parçalanması və üzvi zəhərlərin (fenolların, xitonların və b.) detoksikasiya (zərərsizləşdirmə) prosesini sürətləndirir. Eyxorniya qurğuşun, civə, mis, kadmium, nikel, kobalt, qalay, dəmir, sink, xrom kimi ağır metalları, radionukleidləri özündə cəmləmək qabiliyyətinə malik olmaqla yanaşı, həm də neft məhsullarını, texniki yağları, peyini, sulfatları, fosfatları, fenolu, sintetik səthi-aktiv maddələri, mineral duzları, patogen mikroorqanizmləri oksidləşdirmək, parçalamaq iqtidarındadır. Bununla yanaşı, o, sanitar-epidemioloji xidmətlər tərəfindən qeydə alınan bütün mikrobları məhv edir. Eyni zamanda, Eyxorniya fantastik artım tempinə malik olmaqla, həm də heyvandarlıq üçün qiymətli yem mənbəyidir. Belə ki, isti iqlim şəraitində özü-özünü ağlasığmaz dərəcədə çoxalda bilən bu bitkinin məhsuldarlığı hər bir hektar su hövzəsindən 300 - 1500 ton 2.7 - 2.8% proteinə və 30% zülala malik yaşıl kütlə təşkil edir. Hələ üstəlik ondan bioqumus istehsal etmək və təbii ki, bioqaz da almaq mümkündür.

Rusiyanın Kirzaç şəhərində yerləşən iri quşçuluq kompleksində Eyxorniya vasitəsilə 1997-ci ildə aparılmış eksperimentin nəticələri isə ekoloqlarla yanaşı, müxtəlif yönümlü mütəxəssisləri də heyrətə gətirmişdir. Həmin müəssisənin sutka ərzində 180-200 $m^3$ peyin və digər zərərli maddələri axıtdığı çirkab gölləri yaşayış məntəqəsinin cəmi 100-metrliyində yerləşdiyindən burada mövcud olan üfunəti və antisanitariyanı təsəvvür etmək çətin deyil. Hətta çirkab sularının torpağın dərin qatlarına nüfuz edərək quyulari zəhərləməsi kənd əhalisini içməli sudan belə məhrum etmişdi. Mövcud olan təmizləyici qurğular isə çatdırmayıb çirkabı tam təmizləyə bilmədiyindən müəssisə hər il 60 milyon rubl cərimə ödəmək məcburiyyətində qalırdı. Budur, eksperiment başlayır və heyrətamiz nəticələr bir-birinin ardınca sıralanmağa başlayır: bir sutkadan sonra üfunətli qoxu çəkilir, qısa müddət ərzində isə su durulmağa başlayır. Nəhayət, üç ay bitməmiş təcrübənin sonunda əldə olunan nəticələr bütün mütəxəssisləri, o cümlədən emosiyalardan uzaq olan sanitar-epidemioloji xidmət işçilərini şoka salır: Eyxorniyanın sıxlığı 80% təşkil etdiyi ərazidə su hövzəsi kimyəvi və bioloji tullantılardan təmizlənmiş, duzun ümumi miqdarı əhəmiyyətli dərəcədə azalmış, sanitar-epidemioloji xidmətlər tərəfindən qeydə alınan bütün mikroblar məhv edilmiş (stafilakok da daxil olmaqla), ümumi mikrob miqdarı və koli-indeks (bağırsaq çöplərinin miqdarı) normaya endirilmişdir. Həmin vaxt ərzində kənd əhalisi son illərdə həsrətində olduğu digər sevindirici hadisələri də müşahidə etməyə başlamışdır: su quyuları təmizlənmiş, hövzənin özündə isə müxtəlif su bitkiləri yetişmiş, cürbəcür quşlar və heyvanlar burada məskunlaşmağa başlamışdır. İndi isə eksperimentin iqtisadi tərəfi: çəkilən 105 milyon rubl xərcə qarşı əldə olunan xalis gəlir 500 milyon rubl təşkil etmişdir (qiymətlər 1997-ci ilə nəzərən qeyd edilmişdir).

İndi baxaq: insanlar tərəfindən yaradılan, hətta ən müasir və mükəmməl texnoloji qurğular həddən ziyadə baha olmaqla, həm də tam istənilən səmərəni vermədiyi halda, Allahın yaratdığı kiçik bir canlı orqanizm bizlərin törətdiyi fəsadları 100% aradan qaldırmaqla yanaşı, hələ iqtisadi səmərə də gətirir.

Bizlərə isə bu Rəbbani möcüzələrdən bəşəriyyətin, o cümlədən Vətənimizin rifahı üçün effektiv yararlanmaq qalır.

Fürsətdən istifadə edərək, Azərbaycanın böyük oglu Əli bəy Hüseynzadənin müasir davamçıları olan "FÜYUZAT" jurnalının kollektivinə və bu nəşrin ərsəyə gəlməsində zəhməti olmuş bütün insanlara belə bir nəcib irsin bərpası üçün dərin təşəkkürümü bildirir və yaradıcı uzunömürlülüyü arzulayıram.

# Ağacoyma sənətinin bənzərsiz ustası



Zümrüd QURBANQIZI

***Azərbaycan dekorativ tətbiqi sənətinin bir qolu olan bədii ağacoyma sənətinin ənənələrini böyük peşəkarlıq, estetik duyumda yaşadan Seyfəddin Mənsimoğlunun kompozisiya, forma biçimi və ölçü baxımdan ən uğurlu sənət əsərləri bu gün Bakı, İstanbul, Berlin muzeylərində, şəxsi kolleksiyalarda saxlanır.***

Ağac var ki, "ömrünü başa vurur", çürüyür, yanır, kül olur, ağac da var sənətkar əlində formadan-formaya düşüb köçür evlərə, muzeylərə... Usta Seyfəddin də qurumuş, ömrünü başa vurmuş ağaclara fərqli bir anlam, fərqli bir məna bəxş edir.

Seyfəddin Mənsimoğlu 42 ildir ki, Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun fotolaboratoriyasına rəhbərlik edir. Bu illərdə institutda qədim əlyazma nüsxələrinin fotosurətlərindən və mikrofilmlərindən ibarət zəngin bir fondun yaradılmasında böyük əməyi olub. Bir vaxtlar ərəb əlifbası ona çətin, lap möcüzə kimi görünərmiş, lakin 1964-cü ildə Əlyazmalar İnstitutuna gəlişi Seyfəddin müəllimin taleyində böyük dönüş yaradır. O, ilk dəfə ağacoymanın xəttatlıqla qovuşan uğurlu bədii həllini tapa bilib, ağac lövhələr üzərində ərəb əlifbası ilə yazılmış ayrı-ayrı söz və kəlamları orijinal biçimli kompozisiyalarda əks etdirməyə nail olub. Bu ilk uğur onu daha da həvəsləndirib və sonralar XVI əsrin görkəmli miniatürçü rəssamı Soltan Məhəmmədin, Azərbaycan poeziyasının klassikləri Nizami, Xaqani, Nəsimi və Füzulinin, Nəsirəddin Tusinin, Üzeyir Hacıbəyovun və başqa şəxsiyyətlərin adları yazılmış ağac lövhələri hazırlayıb. Həmin əsərlərdə görkəmli şəxsiyyətlərin təkcə adları deyil, eyni zamanda onların əsərlərindəki elementləri təsvir edən nümunələr də verilib.



Usta Seyfəddin işləyərkən zahiri aləmlə əlaqəsini kəsib, doğulub boya-başa çatdığı Cəbrayılı dolaşır xəyalən, gah Aşıq Qurbanini dindirir, gah da dahi Füzuliyə xitab edir. Belə anlarda barmağını da kəssən bilməz, necə ki, dəfələrlə işlədiyi itiuclu alətlə ovcunu, barmaqlarını yaralayanda heç nə duymayıb, işini yarıda qoymayıb. Bəlkə də fikirlərini, duyğu və hisslərini ürkütməmək üçün tab gətirib ağrılara...

"Yolum tez-tez Füzuli meydanından düşür, şairin heykəli önündən heç vaxt sükutla, sakit ötüb keçə bilmirəm, çox vaxt ucadan, bəzən pıçıltı ilə" - "Səni yaradana qurban olum, səndən sonra səndən yuxarı çıxan yoxdur!"- deyirəm. Bəlkə də bu






böyüklüyünə görə Ustad Füzulinin yaradıcılığına 5 dəfə müraciət edib, kompozisiya baxımından bir-birindən fərqli əsərlər yaradıb. Haqq aşiqi şair Füzuliyə bağlılığının başqa bir səbəbi isə Seyfəddin müəllimin özünün də ilahi eşqi axtaran arayan bir insan olmasıdır.

Bəzən özünə həmdərd axtarmaq üçün təbiətə üz tutur, böyük Füzulinin dərd əlindən dağa çıxdığı kimi, onu da dərd çöllərə, meşələrə salır. Eləcə ağacların, yarpaqların pıçıltı ilə söylədiyi hekayətlərin sehrinə düşüb dərdləşir onlarla.

Dahi Füzuliyə həsr etdiyi işlərdən ikisi məhəbbət mövzusundadır. İşlərdən birində ortada "Məhəmməd Füzuli" sözü, onun kənar hissələrində şairin "Yarəb, bəlayi-eşq ilə qıl aşina məni, Bir dəm bəlayi-eşqdən etmə cüda məni" məşhur beytləri həkk olunub. Füzulinin bu qəzəlindən usta digər işində də istifadə edib. Şairin özünə həsr edilmiş işdə onun barelyef portretini yonmuş, onun fonunda ətrafa yayılan şüaları ştrixlərlə qazaraq Füzulinin özündən sonrakı insanlara təsirini ifadə etməyə çalışmışdır.

Usta Seyfəddinin Füzuli ilə bağlı iki işi Fransada Füzulinin 500-illik yubileyi ilə əlaqədar YUNESKO-nun təşkil etdiyi tədbirlərdə nümayiş etdirilib. Sonra o, ustada məhəbbətini daha bir əsərdə ifadə edir. Bu dəfə şairin Allahın şəninə dediyi bir qəzəlini əsas götürərək həmin işi məscid formasında oymuş, minarənin üstündə süfrə kimi sərilmiş, üç dəfə təkrarlanan və altı dəfə tamamlanan mübarək bir ad həkk etmişdir: "Məhəmməd Füzuli".

Onun bu mükəmməl işlərinin hər biri bir sənət əsəridir və bütün qəlbini, hiss və duyğularını hopdurduğu bu nümunələri heç vaxt satmaq fikrində olmayıb, ayrıla bilməyib onlardan, ana övladından ayrıla bilmədiyi kimi. Əslində heç onları qiymətləndirməyə də çətinlik çəkir. Deyir ki, bu gün bizdə pullu, imkanlı adamların zövqü, zövqlü insanların isə pulu, imkanı yoxdur... Elə bunun üçün də əzizləyə-əzizləyə qoruyub saxlayıb bu sənət incilərini emalatxanaya çevirdiyi evinin bir küncündə və bir də 42-illik bir müddətdə mehr saldığı, möhkəm bağlandığı fotolaboratoriyasında...

Sifarişlə işləmir, bütün yaradıcı adamlar kimi təbinin gəlməsini, ilham pərisinin oyanmasını gözləyir. Ağac üzərində xətoyma sənətində heç bir müəllimdən dərs almayan sənətkar bu sahədə bir məktəb yaradıb.

Seyfəddin Mənsimoğlu özü ustad, müəllimdir. "O sənətkarlar böyükdür ki, özlərindən sonra davamçılar qoyub gedirlər" deyən sənətkar davamçıları oğlanları Səbuhi, Firudin, bacısı oğlu Yadullah, Firudinin dostu Samirin bugünkü yaradıcılıq uğurlarına sevinir, ən cavan tələbəsi Vüqarın gələcəyinə ümid bəsləyir.

"Əgər bir mismarı üst-üstə çəkiclə 2 dəfə düz vura bilirəmsə, bu, ana tərəfdən gəlir, çünki dayım dəmirçi olub. Sözü də yatımlı, ağılkəsən şəkildə deyə bilirəmsə, bu, ata tərəfdən gəlmədir, atam el ağsaqqalı olub, qan bağlayardı eldə, obada.

İndi hərdən balaca nəvəmi mənimlə bərabər kiçik çəkiclə ağacları döyəclələyən görəndə qəlbimə bir rahatlıq çökür. Deyəsən, təkcə soyadımı yox, həm də sənətimi yaşadanlar olacaq..."

Azərbaycan dekorativ tətbiqi sənətinin bir qolu olan bədii ağacoyma sənətinin ənənələrini böyük peşəkarlıq, estetik duyumda yaşadan Seyfəddin Mənsimoğlunun kompozisiya, forma biçimi və ölçü baxımdan ən uğurlu sənət əsərləri bu gün Bakı, İstanbul, Berlin muzeylərində, şəxsi kolleksiyalarda saxlanır.



Hər bir işi başlayanda onu sona çatdırmaq üçün Rəbbindən möhlət, dözüm istəyən usta Seyfəddin bu dəfə "Dədə Qorquda" müraciət edib. Artıq eskizlər hazırdır. Özü demişkən, Allah qismət eləsə sənət əsərlərinin sırasına biri də əlavə olunacaq. Və yəqin ki, sonuncu olmayacaq.

# XOCALI dəhşəti unudulmaz

*Vasif Qurbanov*

Adəti üzrə bu səhər də sübh tezdən yuxudan oyanmış babamın "Bu gecə Fərruğun (Ağdamın Kolanı dərəsi ilə Əsgəran arasında dağ) o tayında göyün üzü işıqlanırdı... Xeyir olsun!" - deməsi səhərin özünəməxsus sükutuna sarsıdıcı zərbə vurdu.



Ağlım kəsəndən top-tüfəng səsi, hay-harayla qidalanan hissim babamın bu sözlərindən sonra mənə rahatlıq vermədi. Sanki hardansa ah-nalə gəlirdi qulaqlarıma...

Təxminən bir saatdan sonra atamla Ağdama yola düşdük. Şəhərə çatanda amansız bir ox kimi gözlərimə sancılan görüntülər məni dəhşətə gətirdi. Qarlı-çovğunlu bir fevral günündə ayaqyalın, başıaçıq, bir-birinə sarılıb fəryad edən qadınların, uşaqların vəziyyətinin ömrüm boyu mənə əzab verəcəyini düşündüm.

Ağdam məscidinin qarşısındakı vəziyyəti təsvir etmək heç bir qələmin, heç bir fırçanın gücündə deyil desəm, daha ədalətli olardı. Məscidə gətirilən meyitlər tamamilə tanınmaz vəziyyətdə idi. Müxtəlif işgəncələrlə öldürülənlər çoxluq təşkil edirdi. Bu nə dəhşətdir, İlahi! Bu günahsız insanları bu vəziyyətə kimlər salıb? Kimlər imiş Allahın mülkündə qan töküb meydan sulayanlar?..

1992-ci il 25 fevral. Xocalı sakinləri doğma yurdda son saatlarını yaşayır. 1991-ci il dekabırın 27-də Xocalı şəhər prokuroru Atakişiyevin respublika rəhbərliyinə vurduğu teleqramda Cəmilli və Tuğ kəndlərindən azərbaycanlıların amansızlıqla çıxarılmasından Malıbəylidə vəziyyətin olduqca ağırlığından Dağlıq Qarabağda erməni quldurları üçün ən təhlükəli yerin Xocalı olması və Xocalı əhalisinin silah-sursatdan tutmuş ərzağa qədər, hətta sarğı materiallarına belə böyük ehtiyacın olmasından söhbət açılırdı. Əgər Xocalı əhalisi Xocalını tərk edərsə, Əsgərənla, Xankəndinin arasının açılmasından bəhs edirdi. Təəssüf ki, Xocalının işğalına qədər olan müddət ərzində Xocalı əhalisinin xilası üçün əsaslı bir iş görülmədi. Ermənilərin şəhərin ətrafına qoşun toplaması əliyalın Xocalı əhalisinin həyəcanını daha da artırırdı.

1992-ci ilin 28 yanvarında rayon statusu verilən Xocalıda bütün idarə və müəssisələr, kolxoz və sovxozlar, hətta məktəblər belə tam fəaliyyətsiz vəziyyətdə idi. Fevralın 13-dən 25-dək Ağdamda qərargahda olub respublika rəhbərliyini məlumatlandıran Xocalı rayon prokuroru fevralın 25-də saat 12-də respublika rəhbərliyinə həyacanla dolu sonuncu teleqramını vurdu:

"Azərbaycan Respublikası Prezidenti A.Mütəllibov yoldaşa

SURƏTİ: Azərbaycan Respublikasının Baş Prokuroru M.Babayev yoldaşa

SURƏTİ: Azərbaycan Televiziya və Radio Verlişləri Şirkətinin "24 saat" proqramına

Xocalı rayonu artıq əldən gedir. Bütün bu hadisələr Xocalının üstündədir. Xocalı gedərsə, DQMV ermənilərin olacaq. Biz Xocalını saxlasaq, DQMV bizimdir. Ona görə də Əsgəran aradan götürülməlidir.

Artiq 25 gündür Xocaliya heç bir vertolyot işləmir. Hazırda Xocalıda 7 min əhali yaşayır: arvad, uşaq, qoca və s. Əgər siz bizə kömək etməsəniz, artıq 4 - illik zəhmət hədər gedəcək. Biz sizdən təxirəsalınmaz kömək gözləyirik. Xocalı Azərbaycanın taleyini həll edir.

Xocalı rayon prokuroru:
A.Atakişiyev".



**Xocalı dərdi!**

**Hopdur qəlbimizə hünəri, qeyrəti, əzmi. Yanğınla sevgini doldur ruhumuza.**

**Qaytar bizi!**





**Xocalı faciəsi zamanı vəhşi ermənilər körpə uşaqları xüsusi qəddarlıqla qətlə yetirmişlər. Ümumilikdə yetmiş nəfərə yaxın azyaşlı misli görünməmiş vəhşiliklə öldürülüb.**



Xocalı mühasirədə idi. Ermənilər rus hərbi birləşmələrinin köməyi ilə Xocalının mühasirəsini get-gedə daraldırdılar. Zülmətə boyun əymiş şəhər acı bir sükuta qərq olmuşdu. Şəhərin kənarında toplaşan ermənilərə məxsus tank və BMP-lərin gurultusu bu sükutu hədələyirdi.

Təxminən saat 22:30 radələrində eşidilən dəhşətli atəş səsləri bu acı sükutu qovub uzaqlara ötürdü. Güclü hərbi texnika və silaha malik ermənilər Xankəndində yerləşmiş Rusiyaya məxsus 366-cı motatıcı alay və muzdlu quldurlar xüsusi amansızlıqla hər yerdən köməyi kəsilmiş Xocalıya qəflətən bir neçə istiqamətdən hücuma başladılar. Qarşıya çıxan evi yandırıb sakinlərini vəhşicəsinə qətlə yetirən düşmən qocalara, qadınlara, bələkdəki körpələrə belə güzəştə getmirdi. Birləşmiş erməni-rus hərbiçiləri Dağlıq Qarabağda Azərbaycanın əsas dayaq nöqtələrindən birini işğal etmək, əhalisini qırmaqla yanaşı, burada uzun illər yada salıb zövq alacaqları səhnələr yaradırdılar.

Ələ keçən Xocalı kişisini həmin an ailəsinin gözləri qarşında diri-diri yandırır, qadınların namusuna təcavüz edir, körpələri süngüyə keçirir, qocaları əsir götürüb quduz itlərə yedirir, onların fəryadina gülürdülər. Gözdən, könüldən iraq olmuşdu Xocalı bu gecə... Ata övladını, ana balasını itirmişdi. Dəhşət fırtınası tarix boyu dünyanın heç bir yerində belə azad olmamışdı...

Hüseynov Şakir, İmani Ağayar, Məmmədov Saday, Hüseynov Allahverdi, RəcəbovCəbrayıl -bu siyahını uzatmaq mümkündür,-ermənilər tərəfindən diri-diri yandırılmışlar. Həsənova Fitat, Məmmədova Məhruzə, Məmmədova Tamara- bu siyahını da artırmaq mümkündür - gözləri çıxarılıb, döşləri, sonra isə digər əzaları kəsilərək öldürülmüşlər. Ən dəhşətlisi isə o idi ki, vəhşi ermənilər körpə uşaqları xüsusi qəddarlıqla qətlə yetirmişdilər. Xəlilova Lalə ,Vəliyev Ağasif, Yusifova Natəvan, Rüstəmov Eldar və başqa uşaqlar faciə zamanı 4 yaşlarına belə çatmamışdılar... Ümumilikdə, Xocalı soyqırımında 70 nəfərə yaxın azyaşlı misli görünməmiş vəhşiliklə qətlə yetirilmişdi. Hətta azyaşlı qız uşaqlarının meyitləri üzərində zorlama əlamətləri aşkarlanmışdı.

Ermənilərin qarnını yarıb bətnindəki körpəsini çıxarıb süngüyə keçirdiyi Azərbaycan qadınları haqqında bir söz deməyə ürəyim gəlmir. (Qisaslarını aldıqdan sonra deyəcəm!) Bu müdhiş vəziyyətdən xilas olmaq üçün müxtəlif istiqamətlərə üz tutan günahsız, zavallı insanların bir hissəsi əsir düşdü, bir hissəsi meşələrdə donub dünyasını dəyişdi.

Əsirləri öldürmək ermənilər üçün əyləncəli bir oyuna çevrilmişdi. Onlarla azərbaycanlı əsiri bir tövləyə yığıb od vurub yandırmaq, ananın gözləri qarşısında oğlunun başını kəsmək, qızları ağaca sarılmış vəziyyətdə olan qardaşlarının gözləri baxa-baxa... və s. bu əyləncələrdən idi. Vəhşi canlıların ürək yandıran əyləncələri bununla sona çatmırdı. Xocalı əhalisinin az bir hissəsi yaralı və ya don vurmuş bir vəziyyətdə Ağdam istiqamətində yol tapdı. Bu insanların fəlakətdən qurtarması üçün ordumuzun Ağdam rayonunda yerləşən hissələri erməni mövqelərinə hücum edib, Ağdama doğru gələn biçarə insanların yollarını ermənilərdən təmizlədilər.

Fevralın 26-sı səhər saatlarından etibarən AXC Ağdam şöbəsinin sədri A.Bağırov Xocalı sakinlərinin cəsədlərinin Xocalı ətrafından çıxarılması üçün ermənilərlə danışıqlara başladı və iki erməni əsirini qaytarmaq şərti ilə buna razılıq aldı. Elə həmin gündən etibarən martin əvvəllərinə kimi dağlarda, meşələrdə olan meyitlər tapılıb Ağdama gətirildi. Meyitlərin əksəriyyəti gözləri oyulmuş, ətrafları kəsilmiş, başlarının dərisi soyulmuş vəziyyətdə idi.

Rəsmi məlumatlara görə, Xocalı soyqırımı zamanı 613 nəfər xüsusi amansızlıqla öldürülmüş, 487 nəfərə ağır bədən xəsarəti yetirilmiş, 6 ailə bütövlüklə məhv edilmiş, 1275 nəfər əsir götürülmüşdür.

Lakin sağ qalan Xocalı sakinlərinin qənaətinə görə, bu rəqəmlər, xüsusilə ölənlərlə bağlı göstərilən rəqəm kiçildilib.

Xocalı şəhərinin işğalı zamanı dövlət və ictimai idarə, müəssisə və təşkilatların əmlaklarının məhvi nəticəsində dövlətə 1992-ci ilin dekabr ayının qiymətlər miqyasına görə 4 milyard 199 milyon 668 min 338 rubl məbləğində Xocalı şəhərinin vətəndaşların isə 1992-ci ilin mart ayı üçün qiymətlər miqyasına görə 229 milyon 861 min 800 rubl ziyan vurulmuşdu.

Xocalıda baş verən hadisələrlə bağlı 27.02.1992-ci ildə Qarabağ üzrə rayonlararası prokurorluq tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-ci maddəsi, 94-cü maddəsinin 4.6 bəndi, 255-ci maddəsinin "V" bəndi ilə cinayət işi qaldırılmışdır. 366-cı motoatıcı alayın komandiri Y.Y.Zarviqorov, digər zabitlər Nabokix Krauelə Lixodey və s.haqqında 1949-cu il Cenevrə konvensiyasına zidd və bir sıra başqa beynəlxalq müqavilələri pozan hərbi cinayətləri etmələri barədə sübutlar toplanmışdır.

Qeyd etmək vacibdir ki, bu alayın zabitlərinin əksəriyyəti erməni əsilli və ya erməni qarışığı olan şəxslər idi.

Onlardan Ayriyan Vaçaqan Qriqoryeviç, Akopyan Nerses Qrantoviç, Ohanyan Seyran Muşeqoviç, Bəyləryan Armen Volodiyeviç, Petrosyan Aşot, Çitçiyan Valeri digərlərinin adını çəkmək olar.

Zaqafqaziya hərbi dairəsi prokurorluğu tərəfindən də 366-cı alayın komanda heyəti haqqında cinayət işi qaldırılmışdır. İşi tamamlamaq üçün 1992-1993-cü illər ərzində iki dəfə Rusiya Federasiyasının Baş prokuroru V.Q.Stepankova məktubla müraciət olunsa da, bu müraciətlər cavabsız qaldı. "İnsan hüquqları" ifadəsi dilindən düşməyən beynəlxalq təşkilatlar misli görünməmiş Xocalı soyqırımına göz yumdular. Faciənin Azərbaycan üçün acı nəticələrini görməyə beynəlxalq aləmin gözü hələ də kordur.

1905-1906-cı illərdə müxtəlif regionlarda azəri türklərini kütləvi şəkildə qətlə yetirən ermənilər azərbaycanlılardan pislik, kin-nifrət görmədikləri üçün 1918-ci ilin mart-aprel aylarını əhatə edən genişmiqyaslı bir soyqırımı törətdilər. O vaxtlarda murdar ermənilərə tutarlı cavab vermədik, hətta hədiyyə olaraq İrəvan, sonra isə Zəngəzur-Göyçə-Dərələyəz bölgəsini onlara bəxş etdilər. Onlar da iki ayaqlarını bir başmağa dirəyib, 1948-1952-ci illərdə bu ərazinin tarixi-faktiki sahibi olan bizləri doğma ata-baba yurdlarından çıxara bildilər. 1988-ci ildə Qərbi Azərbaycanda bir neçə kəndin sakinləri vəhşicəsinə qətlə yetirildi, bir hissəsi qovulub çıxarıldı.

Və nəhayət 1992-ci il. Fevralın 25-dən 26-a keçən gecə... Xocalı Soyqırımı...







# Mənəvi tərbiyəyə ehtiyacımız var!

Qürbət Gümüşov

**Mənəvi tərbiyəsini düzgün quran millət həqiqi mənliyinə sahib olacaqdır.**

Tarixi baxımdan olduqca qısa bir müddət ərzində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqillik yolunda atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir nailiyyət xalqımızı azad, müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə dərin nikbinliklə baxmağa ruhlandırır, ona yeni güc, qüvvət verir. Təbiidir ki, müstəqilliyimizin qorunub saxlanması üçün xalqımızın milli-mənəvi dəyərlərə sahib çıxması və onu var gücü ilə müdafiə etməsi əsas amillərdən biri olmalıdır.

Xalqımızın özünəməxsus adət-ənənələri, öz milli-mənəvi və dini dəyərləri vardır. Biz öz milli-mənəvi və dini dəyərlərimizlə fəxr edirik. Onun üçün sahib olduğumuz, əcdadlarımızdan irsən keçən bu dəyərləri qorumaq bizim ən ümdə vəzifəmiz olmalıdır.

Mənəvi tərbiyə insanın bioloji təhlükəsizliyi və sosial təşəkkülünün əsasında psixoloji tərbiyyənin dayandığını bildirir. Bu müqəddəs mesaj mənəvi tərbiyə metoduna əsaslanaraq insanları iki dünya səadətinə çatdırır. Bu baxımdan insanın həqiqi şəxsiyyət kimliyi ən bariz bir şəkildə ailə həyatında meydana çıxar. O ülvi mərtəbənin, insanlıq məfhumunun qorunub saxlanılması və






cəmiyyətin əsasını təşkil edən insan nəslinin təmiz bir şəkildə davamı üçün ailə həyatındakı tərbiyə böyük əhəmiyyət kəsb edir.

Bu gün dünyaya baxsaq, gənclərin pis təlqin və təsirlərə məruz qalan hisslərin, hərəkətlərin və şəhvətlərin qurbanı olduğunu görərik. Acınacaqlı haldır ki, yenicə müstəqilliyini əldə etmiş Vətənimizin bir qisim gəncləri öz milli-mənəvi, əxlaqi və tərbiyəvi dəyərlərindən uzaq düşərək milli mentalitetimizə uyğun olmayan dünya görüşlərinə meyl edərək, fitnə və təhlükələrin qurbanı olurlar. Bunun üçün də gənclərimiz daha diqqətli olaraq sahib olduqları millli mənəvi dəyərlərə hörmət etməli, bu mənəvi hisslərlə yaşamalı, gələcəyə də məhz bu prizmadan baxmalıdırlar. Əks halda bunlar keçmişimizə laqeyd münasibətin, milli mənəvi irsimizdən məhrum olmanın, düşmənlərimizə də "bu millət keçmişi olmayan bir millətdir" söylətməyə əsas verməklə nəticələnər.

Cəmiyyətin mənəvi-əxlaqi həyat tərzi müxtəlif dövrlərin və nəsillərin mənəvi həyatının qarşılıqlı təsiri və asılılığı prinsipi üzərində qurulmuşdur. Bütün bunlar əsas verir ki, ölkəmizdə gənclərin mənəvi təlim və tərbiyəyə cəlb edilməsi mühüm vasitələrdən biri olsun. Mənəvi tərbiyənin müasir təbliği baxımından əsl dini həqiqətlər izah və təbliğ edilməli, din daxilində baş verən qeyri-qanuni cərəyan və ünsürlər tənqid və ifşa edilməlidir. İnanıram ki, azərbaycanlı olaraq bizim hər birimizin hiss və düşüncəmizdə mənəvi keçmişimizi mümkün qədər tam və dolğun şəkildə bərpa etmək istəyi vardır. Bu sahədə ən uğurlu addımlar atmalı, Azərbaycan gəncliyinin çiçəklənməsində əcdadlarımızın qoyub getdiyi irsi bu günün tələbləri səviyyəsində gənclərə doğru-düzgün təlqin etməli, unudulmuş irsimizin bərpasında ən uğurlu addımlar atmalıyıq.

# Könül körpüsü

*Hazırlayan M.Yunusov*

Bir zamanlar kiçik bir kənddə bir-birinə qonşu iki qardaş yaşayırdı. Onların böyük bir tarlaları var idi. Qardaşlar tarlalarını bir yerdə əkib, bir yerdə becərərdilər. Günlərin bir günü bu iki qardaş arasında kiçik bir anlaşılmazlıq baş verir. Bu kiçik anlaşmazlıq günbəgün böyüyür və onların arasında ayrılığa səbəb olur. Qardaşlar illərlə bir yerdə əkib-becərdikləri tarlalarını, cütlərini və bütün var-dövlətlərini bölmək məcburiyyətində qalırlar. Hadisələr bundan sonra daha da gərginləşməyə başlayır. Əvvəlcə bir-birlərinə qarşı qışqırıb bağırırlar, sonra dava-dalaş, arxasınca da ürküdücü bir səssizlik yaşanmağa başlanır. Artıq qardaşlar bir-birinin üzünə belə baxmırdılar. Bu yadlaşma getdikcə başqa bir hal almağa başlayır. Hələ bu hadisələrdən bir neçə gün keçmir ki, əlində böyük bir dülgər çantası olan bir usta böyük qardaşın həyətinə gəlib onun qapısını döyür. Ev sahibindən qısamüddətli bir iş istəyir.

Böyük qardaş:

- Bu dərənin qarşısındakı həyət mənim kiçik qardaşımın həyətidir. Keçən həftəyə qədər onun həyəti ilə mənim həyətim arasında bir yol var idi. O da bu yola bir dərə qazdırdı. Gördüyün kimi, aramızda yol əvəzinə, indi bir dərə var.

Usta:

- Məndən nə etməyimi istəyirsən?

Böyük qardaş:

- Qardaşım bunu məni incitmək üçün edib, indi gör mən nə edəcəyəm! Bax, bu kötükləri görürsən? Onlarla qardaşımla mənim aramda üç metr hündürlüyündə bir hasar çəkməyini istəyirəm. Neçə gün işləyirsən işlə, nə vaxta düzəldirsən düzəlt, amma elə bir hasar istəyirəm ki, gözüm bir daha nə onu, nə də onun həyətini görməsin.

Usta başını sallayıb:

- Nə demək istədiyinizi anladım. İndi mənə bel və lazım olan əşyaların yerini göstər ki, artıq işə başlayım.

Ev yiyəsi ustaya lazım olan alətləri verdikdən sonra alış-veriş üçün qəsəbəyə yollandı, usta isə işə başladı. Bütün gün ölçüb-biçib, tez bir zamanda işini tamamladı. Axşama doğru böyük qardaş qəsəbədən evə qayıdanda gördüklərinə çaşıb qaldı. Ustadan istədiyi hasarın yerinə dərənin bir ucundan o biri ucuna uzanan möhkəm, iki ayaq üzərinə oturdulmuş sağlam məhəcərli əsl usta işi deyə biləcəyimiz bir körpü tikilmişdi. Böyük qardaş çaşqınlıq içində körpünü seyr edərkən qarşıdan bir adamın gəldiyini gördü. Gələn adamın qonşusu, yəni öz qardaşı olduğunu anladı. Qardaşı körpünün qarşı tərəfində iki qollarını açıb ona tərəf gələrək:

- Əziz qardaşım, sənə qarşı etdiyim bu qədər təhqirlərə, haqsızlıqlara baxmayaraq, mənə öz böyük əlini uzadaraq körpü tikdirib nə qədər xoş niyyətli olduğunu, məni nə qədər çox sevdiyini göstərdin. İndi daha bir böyüklük də et, qollarını aç, gəl qucaqlaşaq.

Hər iki tərəfdən qaçaraq bir-birinə qarşı gələn qardaşlar körpünün ortasında bir-birinə sarılıb qucaqlaşdılar. Qardaşlar dönüb arxaya baxanda ustanın getməkdə olduğunu gördülər və böyük qardaş səsləndi:

- Dayan, getmə, görüləsi daha çox işimiz var.

Usta gülümsəyərək dedi:

- Mən buradakı işimi tamamladım. Getməliyəm, hələ daha çox körpülər tikməliyəm.

**Dəyərli oxucu!**

**Məhz belə körpülər qura biləcək gücünüz heç vaxt əskik olmasın! Körpüləri qurduqdan sonra da, yıxılmaması üçün tez-tez yoxlayın. Yəni sevdiklərinizə vaxt ayırın və o körpü yolu ilə tez-tez könülləri ziyarət edin.**





***Qardaşlığın yolu dünya üzərindən deyil, sevgi dolu könüllərdən keçər. Keçdiyi hər qəlbi fəth, hər ağlı məftun edər. Qardaşlıq ətlə, qanla başlasa da zirvələşməsi, əbədiləşməsi mərhəmətlə və sevməklə davam edər. Daha sonra ruhun sıxıntılarını yox edər, qəlbin yaralarını sağaldar və duyğuların aynası olan simada təbəssüm meydana gətirər. Qardaşlığın mənəvi iqlimində kin, nifrət əriyib yox olar. Əsəb, qəzəb yerini şəfqətə, acımağa təhvil verər...***



# Günah – Tövbə

Bəxtiyar Vahabzadə

Hər gecə özümlə üzbəüz durur
Hesab istəyirəm ötən günümdən.
Vicdan cavab verir, ədalət sorur:
Bu gün bir günaha batmışammı mən?

Bölünür bir günüm yaxşı-yamana
Mizan-tərəzidə hər şey çəkilir.
Çevrilib yataqda o yan, bu yana
Nələr çəkdiyimi bir Allah bilir.

Şükür savabıma, şükür, min şükür!
Bilmirəm nə deyim bəs günahıma?
Bu zaman gözümə qaranlıq çökür
"Əfv elə" - deyirəm qibləgahıma.

Nə vaxtsa atdığım yalnış qədəmlər
Əsəb tellərimi çəkir tarıma.
Mənim bir nöqsanım cəzadan betər
Sonralar çevrilir əzablarıma...

Tövbənin qapısı birdir, günah min
O bircə qapıdan min günah keçər.
Haqqa qul kəsilən bir müdrik kəsin
Əyilib önündən neçə şah keçər.

Tövbə orağıyla vicdanındakı
Günah alağını biçənə alqış!
Günahla etiraf arasındakı
Tövbə körpüsündən keçənə alqış!

Tövbə həm vicdanın, həm ağlın səsi,
Tövbə yüz günahın tək bir nöqtəsi!
O nöqtə iradə, o nöqtə inad,
O nöqtə təzə bir günaha qalxan.
Tövbədən sonrakı bir günah yüz qat
Böyükdür əvvəlki yüz günahından.

*2 avqust, 1999, Şəki.*



*Bünövrəsinə iman təri qarışmış canlı abidə*
*Sən qeyrətli əllərin sevgisi ilə ucaldın.*
*Bu günün memarına dayan bax, öyrən deyən abidə*
*Millətin canlı tarix kitabı, izin ver səninlə dünəni oxuyaq, bu günə baxaq.*



۲۰۰۷ ، (۳٤)۲

ادبی فنی سیاسی اجتماعی مصوّر هفته لك تركجه مجموعه اسلامیهٔ در

# فیوضات

کائناتین سلطانینین بو دنیانی یاراتماقدان
مقصدی عشق ایدی، دنیانی بهانه ائتدی.
عشق بلبلی بو دنیایا قاناد اچاندان بري
بر یئر تاپمادی، اوز یواسینی بزیم
قلبیمیزده قوردو.

مسلمی شیرازی